Xalqın qəzeti!

# Xalq qəzeti

№ 99 (30215) 13 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb.**

# Prezidentin 10 may müraciəti 1993-cü ildən sonrakı tariximizə mükəmməl baxışdır

*Ölkəmizdə bu müddətdə ləyaqətli və milli ruhlu gənclik yetişib*



**Bu sətirləri qələmə alarkən bir həmkarımızdan eşitdim ki, ulu öndərin 100 illiyinə ən layiqli töhfələrdən biri məhz dövlət başçımızın Şuşadan xalqa müraciəti oldu. Həmin müraciətdə deyilir ki, 1993-cü ilin yayında Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha sübut etdi. Heydər Əliyev həmin ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.**

1993-cü il seçkiləri xalqımız və dövlətimiz üçün ona görə tarixi əhəmiyyət kəsb edir ki, ulu öndər xalqın etimadından dərhal sonra ölkədə ciddi islahatlara başlamışdı. Siyasi sahədə islahatlar aparılmış, bütün azadlıqlar təmin edilmişdi. AXC – Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv olundu. Əvvəlki iqtidarın səhvləri üzündən bağlanmış sərhədlərimiz dünya ölkələrinin üzünə açılmış,ölkəmizin beynəlxalq təcridinə son qoyulmuşdu.

(ardı 4-cü səhifədə)

## E.İ.Əfəndiyevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elçin İlyas oğlu Əfəndiyev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 12 may 2023-cü il**

## Şuşanın vandal yaraları sağaldılır



Səhifə ⇨ 4

## ABŞ kollektiv Qərb vasitəçiliyində: PATEL NƏYƏ İŞARƏ EDİR?



Səhifə ⇨ 3

## “Missiyamız Azərbaycan–Türkiyə münasibətlərinə böyük töhfələr verməkdir”



Səhifə ⇨ 7

## Makronun Ermənistana ölümcül silahlar dəstəyi: Azərbaycana təhdid, yoxsa blef?

Səhifə ⇨ 3

## Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkəsidir



Səhifə ⇨ 9

## “Abşeron” yatağı qaz hasilatına əhəmiyyətli töhfə verəcək



Səhifə ⇨ 9

## Milli ədəbiyyatımızın dünya miqyaslı ədibi



Səhifə ⇨ 12

## Göygöldə möcüzəli yeraltı “şəhər”



Səhifə ⇨ 13

## Türkiyə: Seçkilərə bir gün qalır



Səhifə ⇨ 14

## OPEC apreldə sazişi 202 faiz yerinə yetirib

Səhifə ⇨ 14

## Baxmut uğrunda döyüşlər şiddətlənib

Səhifə ⇨ 14

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Bütün Dağıstan xalqı adından və şəxsən öz adımdan Sizi atanız – dünyada dərin hörmət və ehtiram qazanmış görkəmli dövlət və siyasət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təbrik edirəm.

Heydər Əlirza oğlu bütün həyatı boyu öz xalqına və Vətəninə sədaqətlə xidmət edib. Biz Azərbaycanın müasir tarixində onun xidmətlərinin silinməz izlərini görürük. Böyük siyasi xadimin ardıcıl fəaliyyəti sayəsində respublika çətin sınaqlardan uğurla çıxıb və bu gün tərəqqi yolu ilə inamla irəliləyir. Heydər Əliyevin xalqa müraciətində dediyi kimi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”. Belə də oldu. Siz, hörmətli İlham Heydər oğlu, atanızın, xalqın dahi oğlunun vəsiyyətlərinə sadiqsiniz. Əminəm ki, gələcəkdə də Sizi öz yolunuzda yalnız nailiyyətlər və qələbələr gözləyir.

Sizə səmimi-qəlbdən cansağlığı, rifah və ali dövləti vəzifənizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

**Hörmətlə,**

**Sergey MƏLİKOV,**
**Rusiya Federasiyasının**
**Dağıstan Respublikasının rəhbəri**

***

**Hörmətli İlham Heydər oğlu!**

İcazə verin, atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar ən səmimi təbriklərimi Sizə çatdırım.

Tatarıstanlılar Azərbaycan xalqının dahi oğlu, adı doğma ölkəsinin tarixinə əbədi yazılmış, Tatarıstan-Azərbaycan əməkdaşlığının təşəkkülündə və inkişafında mühüm rol oynamış görkəmli siyasət və dövlət xadimini - çox hörmətli Heydər Əlirza oğlunu böyük minnətdarlıq və dərin hörmətlə xatırlayırlar.

Xalqlarımız arasında etimad və dostluq ənənələrini qoruyub saxlamaq və möhkəmləndirmək üçün Sizin atanız, çox hörmətli Heydər Əlirza oğlu tərəfindən göstərilən səyləri davam etdirmək bu gözəl insanın nurlu xatirəsi qarşısında da bizim ümumi borcumuzdur. Ümidvaram ki, biz Tatarıstan və Azərbaycan arasında əməkdaşlığın Rusiya-Azərbaycan münasibətləri kontekstində dinamik şəkildə inkişafı, adlı-sanlı sələflərimizin məhsuldar təşəbbüslərinin layiqli davamçısına çevrilməyə qadir olan yeni məzmunla zənginləşməsi üçün zəruri olan hər şeyi birgə həll edəcəyik.

Sizə möhkəm cansağlığı, firavanlıq, gözəl Azərbaycanın rifahı naminə ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Rüstəm MİNNİXANOV,**
**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi, “Rusiya–İslam dünyası” Strateji Baxış Qrupunun sədri**

***

**Hörmətli cənab Prezident İlham Əliyev!**

Ölkələr arasında münasibətlərin xarakterinin müəyyən olunmasında liderlərin rolu çox böyükdür. Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi bu günlər onun irsini və Azərbaycandakı yəhudi icmasına töhfəsini, həmçinin Azərbaycan və İsrail arasında münasibətlərin əsasını qoyan ilk addımlarını xatırlamaq üçün gözəl fürsətdir.

Zati-aliləri, Siz bu gün atanızın yolunu və siyasi kursunu layiqincə davam etdirirsiniz. Biz bu yubiley ilini rəmzi olaraq İsraildə Azərbaycan səfirliyinin açılması ili kimi qeyd edirik.

Mərhum Prezident Heydər Əliyevin xatirəsinə və Zati-alinizin siyasətinə İsraildə böyük ehtiram bəslənilir.

**Ən xoş arzularla,**

**Tzipi LİVNİ,**
**2006-2009-cu illərdə İsrailin xarici işlər naziri,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü**

***

**Hörmətli Prezident Əliyev!**

Sizi və Azərbaycan Respublikasının sevimli xalqını hörmətli atanızın, ümummilli lider, müstəqil Azərbaycan dövlətinin banisi Zati-aliləri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı tərəfindən ehtiramla anılır, çünki o, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmiş, onu inkişaf yoluna çıxarmışdır. Prezidentliyi dövründə o, mədəniyyətə və təhsilə, o cümlədən beynəlxalq əməkdaşlığın təşviqinə böyük önəm vermişdir.

Bu əlamətdar günlər atanızın xatirəsini yad etmək və onun yolu ilə gedərək qazandığınız nailiyyətlərə nəzər yetirmək üçün gözəl fürsətdir. Azərbaycanın müdrik lideri kimi, Siz atanızın uğurlarını artıraraq ölkənizi tolerantlığın, beynəlxalq ictimaiyyət tərəfindən dinlərarası əməkdaşlığın yüksək ehtiram göstərildiyi mərkəzə çevirmisiniz.

İsrail ilə Azərbaycan arasında güclü münasibətlərin əsasını Sizin atanız qoymuşdur. Bu il Siz onun müdrik siyasətini davam etdirərək Təl-Əvivdə səfirlik açdınız.

Bütün bu nailiyyətlərə görə Sizi ürəkdən təbrik edir, dost Azərbaycana davamlı uğurlar arzu edirəm.

**Dərin hörmət və ehtiramla,**

**Ravvin Mark ŞNAYER,**
**ABŞ-ın Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti**

**Hörmətli cənab Prezident!**

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin adından və şəxsən öz adımdan Sizi və bütün qardaş Azərbaycan xalqını əlamətdar tarix – Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Sovet İttifaqının rəhbərlərindən biri olmuş, ağır sınaq illərində Azərbaycana başçılıq etmiş xalqın görkəmli oğlunun xatirəsi bir çox ölkələrdə hörmətlə anılır. Rusiya müsəlman ruhaniləri də göndərilən təbriklərə dərin ehtiramla qoşulurlar. Məhz bu yubileyə müxtəlif tədbirlər həsr olunub, onların arasında bizim Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin iştirak etdikləri Azərbaycan Elm və Mədəniyyət Günləri də var.

Sizin rəhbərliyinizlə qazanılan şəksiz qələbələr və Azərbaycanın parlaq uğurları bizdə xüsusi sevinc hissi doğurur. Azərbaycanın iqtisadi, siyasi, mədəni uğurları əsası Heydər Əliyev tərəfindən qoyulmuş təşəbbüslərin davamlılığının ən yaxşı təsdiqidir. Biz bunu Rusiya və Azərbaycan xalqları arasında tarixi qardaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsində, konfessiyalara və millətlərə ardıcıl dövlət dəstəyində sevinclə müşahidə edirik.

Çox hörmətli Heydər Əliyevin öz xalqı, Vətəninin tərəqqisi, şöhrəti naminə fədakar xidmətləri xüsusi qeyd edilməlidir. Bu dahi dövlət xadiminin 100 illik yubileyinin qeyd olunduğu bu günlərdə Uca Allaha ona öz mərhəmətini bəxş etməsi üçün dua edirəm.

**Hörmətlə və xeyirxah dualarımla,**

**Müfti şeyx Ravil QAYNUTDİN,**
**Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Rusiya Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü**

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Sizə öz adımdan və “Total Energies” şirkəti adından ən səmimi ehtiramımı bildirirəm.

Bu əlamətdar gündə müstəqil Azərbaycanın qüdrətli, davamlı iqtisadi inkişafa malik dövlətə çevrilməsi yolunda Heydər Əliyevin siyasi və iqtisadi sahələrdə misilsiz əməyini xüsusi qeyd etmək istərdim. Onun rəhbərliyi ilə və yeni neft strategiyası sayəsində Azərbaycan özünü etibarlı qlobal tərəfdaş kimi təsdiq etmiş, ölkədə xarici investorlar üçün əlverişli şərait yaranmış və eyni zamanda, dövlət maraqları qorunmuşdur.

Mən, həmçinin Avropa İttifaqının əhəmiyyəti artan enerji təhlükəsizliyi sahəsində Azərbaycanın etibarlı enerji təchizatçısı qismində davamlı uğurunu təşviq etmək üçün Sizin rəhbərliyinizlə “Total Energies” ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

**Regis AGUT,**
**“Total Energies” şirkətinin Azərbaycan üzrə icraçı direktoru**

***

**Çox hörmətli cənab Prezident!**

Sizi və bütün Azərbaycan xalqını əlamətdar yubiley – ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təbrik edirəm.

İstər sovet Azərbaycanının, istərsə də müstəqil Azərbaycanın inkişafında Heydər Əlirza oğlu Əliyevin tarixi xidmətləri vardır. Sovet Azərbaycanı dövründə iqtisadiyyat, elm, sənayeləşmə, kənd təsərrüfatı, mədəniyyət və s. sahələrdə sıçrayış baş verdi. Heydər Əliyev ikinci dəfə respublikaya müasir Azərbaycanın tarixinin ən mürəkkəb mərhələsində, faktiki olaraq başlanan vətəndaş müharibəsi və siyasi hərc-mərclik dövründə rəhbərlik etdi. Bu keşməkeşli siyasi şəraitdə onun dahiyanə təşkilatçılıq bacarığı və vətənpərvərlik mövqeyi özünü daha parlaq şəkildə göstərdi.

Bütün bu hadisələr gözlərimin önündə baş verdiyindən mən öz yaşıma uyğun dəyərləndirə bilərəm ki, bu, necə çətin idi və Heydər Əlirza oğlu hansı istedada malik idi.

Sözsüz ki, mən bu sətirləri yazanda Heydər Əlirza oğlunun şəxsi ünsiyyət təcrübəsini də yada salıram. Bu, həm onun qayğılarına qaldığı və müalicələrində mənim də iştirak etdiyim pasiyentlərlə, həm də Rusiyada Azərbaycan diasporuna onun xeyir-duası ilə mənə tapşırılan rəhbərliklə bağlıdır. Mən bu dahi insanın xatirəsi qarşısında baş əyirəm.

Çox hörmətli cənab Prezident, Siz atanızın layiqli oğlusunuz və dahi Heydər Əlirza oğlunun yerinə yetirilməsini arzuladığı məsələlərin həyata keçməsinə nail olmusunuz. Siz 44 günlük müharibədə Qələbə qazanan xalqın layiqli Prezidentisiniz!

**Dərin hörmətlə,**

**Məmməd ƏLİYEV,**
**Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, “Dostluq”, “Şöhrət” ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi**

**Zati-aliləri!**

Dost Azərbaycan Respublikasında atanız - ümummilli lider Heydər Əliyevin yüzillik yubileyini qeyd etdiyiniz bu əlamətdar günlərdə Sizə ən xoş salamlarımı çatdırır, dərin minnətdarlığımı bildirirəm.

Ölkələrimizi birləşdirən dostluq və Sizi Əlahəzrət Kral II Abdullah İbn Əl-Hüseyn ilə bağlayan qardaşlıq münasibətləri ilə fəxr etdiyimi, bu əlamətdar günü qeyd edərkən Sizin və əziz xalqınızın yanında olduğumu vurğulamaq istərdim.

Ulu öndər Heydər Əliyev görkəmli dövlət xadimi olaraq Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. Odur ki, bu gün onun ölkəsi, xalqı və dövləti qarşısında misilsiz xidmətləri dərin ehtiramla yad edilir.

Zati-aliləri, iki il əvvəl İordaniyada mötədillik və dinlərarası dialoqun inkişafı sahəsində görülən işlər barədə çıxış edərkən mərhum dahi şəxsiyyətin ölkənizdə mötədillik, dinlərarası ahəng və multikulturalizm prinsiplərinin təbliğində, insan hüquq və azadlıqlarının təminində, ekstremizm və terrorizmə qarşı mübarizədə əldə etdiyi nailiyyətlərə heyranlığımı bildirmişdim.

Bakıya səfər etmək və Zati-alinizlə görüşmək şərəfinə nail olduğum zaman Azərbaycanın qazandığı böyük nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim.

Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə dərin ehtiramımı ifadə etməklə yanaşı, Zati-alinizə ölkəniz və xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə Uca Tanrıdan müvəffəqiyyətlər diləyirəm.

**Dərin hörmətlə,**

**Nəbil HƏDDAD,**
**İordaniyanın Dinlərarası Birgəyaşayış Araşdırmalar Mərkəzinin sədri**

***

**Zati-aliləri!**

Xahiş edirəm, Azərbaycan xalqının ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, atanız Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Masdar” şirkəti adından ən xoş arzularımı qəbul edin.

Heydər Əliyev Azərbaycanın uzunmüddətli inkişafına töhfə verən, güclü enerji iqtisadiyyatını formalaşdırmaq üçün mütərəqqi strategiyanı müəyyənləşdirən dahi dövlət xadimi idi. Bu gün həmin strategiya Sizin rəhbərliyinizlə uğurla davam etdirilir. “Masdar” şirkəti həmin strategiyanı dəstəkləməkdə mühüm rol oynamaqdan şərəf duyur və biz dünya səviyyəli təmiz enerji layihələrinin inkişafı istiqamətində birgə işləməyə davam etdiyimiz üçün Azərbaycanla tərəfdaşlığımızı yüksək qiymətləndiririk.

Cənab Prezident, dahi ümummilli liderin anadan olmasının 100 illiyi və “Heydər Əliyev İli” münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm.

**Hörmətlə,**

**Məhəmməd Cəmil ƏL-RAMAHİ,**
**Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin baş icraçı direktoru**

***

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

Qəlbimizdə xüsusi yeri olan dost və qardaş ölkə can Azərbaycanın sevinci, xoşbəxtliyi, firavanlığı və əmin-amanlığı bizdə böyük qürur hissi doğurur. Güclü və qüdrətli Azərbaycanın ulu öndəri Heydər Əliyevin anadan olmasının 100 illiyi və bu ilin “Heydər Əliyev İli” elan edilməsi münasibətilə Zati-alinizə və əziz Azərbaycan xalqına dərin ehtiram və təbriklərimi çatdırmaq istəyirəm.

Möhtərəm Prezident, Qarabağı böyük Zəfərlə işğaldan azad etməyiniz hər şeydən əvvəl ona görə təqdirəlayiqdir ki, həmin müqəddəs torpaqların işğaldan azad olunmasını ümummilli lider Heydər Əliyev Sizə vəsiyyət etmişdi. Siz ulu öndərin vəsiyyətini yerinə yetirdiniz, yüksək liderlik keyfiyyətlərinizlə o müqəddəs torpaqları azad etdiniz, həm də can Azərbaycanı dünyanın parlayan ulduzuna çevirdiniz.

Monteneqronun müsəlman əhalisinin və digər millətlərin nümayəndələrinin Azərbaycanı sevdiyini və dəstəklədiyini bütün qəlbimlə bildirmək istərdim. Azərbaycan ilə Monteneqronun çox yaxşı diplomatik və gözəl dostluq münasibətlərindən qürur hissi duyuruq.

Allah dostluğumuzu və sevgimizi daimi etsin.

Yaşasın Azərbaycan!

Yaşasın Azərbaycan-Monteneqro dostluğu!

**Ən dərin hörmət və ehtiramlarımla,**

**Rifat FEJZİÇ,**
**Monteneqronun İslam İcmasının sədri**

***

**Möhtərəm cənab Prezident!**

Görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu bu əlamətdar günlərdə Zati-alinizə ən dərin ehtiramımı bildirmək istəyirəm. Tarixi şəxsiyyət olan atanız Azərbaycanda müstəqil və güclü dövlətin qurulmasının əsasını qoyub.

Bu qüdrətli ölkədə Heydər Əliyev bütün dinlərə və xalqlara böyük dəyər verərək, onların qarşılıqlı harmoniyada yaşamasını təmin edib. Bu gözəl ənənə Azərbaycanda indi də layiqincə davam etdirilir. Azərbaycanda səfərdə olan hər kəs bunun əyani şahidi olur.

Cənab Prezident, mərhum atanızın yolunu davam etdirərək Zati-alinizin dinlərarası dialoqun gücləndirilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir. Biz bunun da əyani şahidləriyik.

Ulu öndər Heydər Əliyevin xatirəsini onun 100 illik yubileyinin qeyd olunduğu bu günlərdə rəhmət və hörmətlə anırıq. Ruhu şad, məkanı cənnət olsun!

**Ən dərin ehtiramla,**

**Filuksinos Saliba ÖZMEN,**
**Mardin və Diyarbəkir Mitropoliti**

**Zati-aliləri,**
**çox hörmətli İlham Heydər oğlu!**

Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb Regionu Müsəlmanlarının Ruhani İdarəsi Sizə öz ehtiramını ifadə edir və Zati-alinizə firavanlıq, Uca Yaradanın mərhəmətini arzulamaq şərəfini duyur.

Bu il mayın 10-da bütün dünyada ehtiram və nüfuz qazanmış görkəmli siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam oldu. Ruhani idarəsi Sizin 2023-cü ilin Azərbaycan Respublikasında “Heydər Əliyev İli” elan edilməsi barədə sərəncamınızı ürəkdən dəstəkləyir. Azərbaycan Respublikasında və Rusiya Federasiyasında bu əlamətdar tarixə həsr olunmuş çoxsaylı tədbirlər keçirilir.

Heydər Əliyevin Azərbaycan Respublikası və ümumilikdə keçmiş Sovet İttifaqının tarixində misilsiz xidmətləri olub. Heydər Əliyev keçmiş SSRİ-nin rəhbərlərindən biri olmuş yeganə azərbaycanlıdır.

O, 1980-ci illərdə beş il müddətinə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olub. Bu dahi şəxsiyyət Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın bünövrəsini qoyub, dövlətlərimizin və xalqlarımızın dostluğunun, qarşılıqlı anlaşmasının möhkəmlənməsinə böyük şəxsi töhfə verib.

Heydər Əliyevin qarşısında miqyasına görə misilsiz vəzifə dururdu. Onun titanik fəaliyyətinin nəticəsində Azərbaycanın sənayesi kökündən dəyişdi, bütün infrastruktur yeniləndi və iqtisadiyyatda islahatlar, modernləşmə həyata keçirildi, respublikanın qədim paytaxtı intibah dövrünü yaşadı.

Heydər Əliyevin dinə, milli-əxlaqi dəyərlərə hörməti onun əməllərində əksini tapır, bütün dünya müsəlmanlarının xatirəsində yaşayır. Heydər Əliyev Sankt-Peterburqa səfərləri zamanı həmişə bu şəhərdəki Sobor məscidinin fəxri qonağı olurdu. Rusiyanın Sankt-Peterburq və Şimal-Qərb regionunun müsəlmanları onun şəxsiyyətini qəlblərində gözəl hisslərlə xatırlayırlar.

Sankt-Peterburqda Heydər Əliyevlə bağlı çoxlu xatirə məkanları var. Şəhərin Heydər Əliyevin 1949-1950-ci illərdə təhsil aldığı SSRİ DTN-in ali məktəbinin yerləşdiyi mərkəzi küçələrindən birində görkəmli siyasət və dövlət xadimi, ulu öndərin şərəfinə xatirə lövhəsi qoyulub. Rusiya Federasiyasının mədəniyyət paytaxtının sakinləri Azərbaycan Prezidenti Heydər Əliyevin Sankt-Peterburqa hədiyyəsini – dahi Azərbaycan şairi Nizami Gəncəvinin gözəl abidəsini xatırlayırlar.

Sevindirici haldır ki, Siz bu gün Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirirsiniz. Siz həmişə ölkədə insan hüquqları və azadlıqlarının təmin edilməsinə, dini-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirirsiniz.

Ruhani idarəsi fürsətdən istifadə edərək Sizə öz dərin ehtiramını bildirir və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dini, iqtisadi, sosial, siyasi və digər sahələrdə səmərəli əməkdaşlığın davamlı inkişafını arzulayır.

**Dərin hörmətlə,**

**Müfti Ravil PANÇEYEV,**
**Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb Regionu Müsəlmanlarının Ruhani İdarəsinin sədri**

***

**Çox hörmətli cənab Prezident!**

Türk dünyasının böyük oğlu, adı ən nüfuzlu tarixi şəxsiyyətlərlə yanaşı çəkilən, həyatı və fəaliyyəti ilə nəsillərə örnək olan Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini böyük qürur hissi ilə qeyd edirik.

Ümummilli lider Heydər Əliyev 1990-cı illərin əvvəllərində vətəndaş müharibəsi, parçalanmaq, müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşan Azərbaycanı uzaqgörənliyi, müdrikliyi və siyasi liderliyi sayəsində qısa müddətdə sürətli inkişaf yoluna çıxararaq Qafqazın doğan Günəşinə çevirdi. Ulu öndər Heydər Əliyev “Bir millət, iki dövlət” prinsipini əsas tutaraq Türkiyə ilə münasibətlərin inkişafına daim xüsusi diqqət yetirir, Azərbaycanın reallaşdırdığı layihələrdə Türkiyənin geniş təmsil olunmasına çalışırdı. Məhz bunun nəticəsində Azərbaycan və Türkiyə birlikdə həyata keçirdikləri mühüm layihələrlə bölgədə əməkdaşlığın inkişafında böyük rol oynayırlar.

Qürurverici haldır ki, bu gün Sizin rəhbərliyinizlə Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi yolla əmin addımlarla irəliləyərək böyük uğurlar qazanmaqdadır. Siz İkinci Qarabağ müharibəsində tarixi Qələbə qazanaraq Azərbaycan torpaqlarını işğaldan azad etməklə ata vəsiyyətini yerinə yetirdiniz, eyni zamanda, bütün Türk dünyasına şanlı Zəfər sevincini yaşatdınız, ulu öndərin ucaltdığı Bayrağı əzəli torpaqlarda dalğalandırdınız.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək Sizə və ailənizə uzun ömür, cansağlığı, uğurlar arzulayır, ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ən dərin ehtiramımı bildirirəm.

**Hörmətlə,**

**Musa Sərdar ÇƏLƏBİ,**
**Almaniyadakı Avropa Türk İslam Birliyinin fəxri sədri, Avrasiya Strateji Araşdırmalar Mərkəzinin sədri**

# ABŞ kollektiv Qərb vasitəçiliyində: PATEL NƏYƏ İŞARƏ EDİR?

## Bakı–İrəvan nizamlanmasının Brüssel raunduna Vaşinqtondan reaksiya




**"Azərbaycanla Ermənistan arasında çox vacib sülh sazişi ABŞ Dövlət Departamentinin bundan sonra da dərindən məşğul olacağı məsələdir". Belə bir bəyanatla sözügedən qurumun mətbuat katibinin müavini Vedant Patel çıxış edib.**

Əlbəttə, cənab Patelin bu fikirlərini Birləşmiş Ştatların Azərbaycan–Ermənistan nizamlanmasından qopmadığının təsdiqi kimi qəbul etmək mümkündür. Nəzərə alaq ki, hər iki ölkənin xarici işlər nazirlərinin Birləşmiş Ştatlarda dörd gün davam etmiş danışıqlar raundundan sonra prosesin əhəmiyyətini heçə endirməyə yönələn fikirlər səslənmişdi. Bakı bu baxımdan diplomatik münasibət ortaya qoyub təmkinli davransa da, yəni, səmərəsizlik ritorikasından uzaq dursa da, İrəvandan gələn açıqlamalar onu deməyə əsas verirdi ki, Ermənistan ABŞ vasitəçiliyinin nəinki fayda vermədiyi qənaətindədir, üstəlik, bunu ictimai rəydə gücləndirmək fikrindədir.

Baş nazir Nikol Paşinyanın administrasiyasının təmsilçiləri, elə onun özü üçün belə bir görüntü hava-su kimi lazımdır. Bir tərəfdən, fon yaratmaq ki, ölkə konstruktivdir, sülhə gəlmək üçün, necə deyərlər, alışıb-yanır, digər yandan bütün sülh təşəbbüslərini heçə endirmək və müəyyən mənada, günahı vasitəçilərdə axtarmaq, daha doğrusu, vurğunu onların bölgədəki maraqları üzərinə qoyaraq, uzlaşmanın mümkünsüzlüyü reallığını doğurmaq – rəsmi İrəvanın niyyəti budur. Əlbəttə, Ermənistan siyasəti üçün Azərbaycanın, guya, maksimalist tələblər irəli sürdüyü məntiqini qabartmaq da xarakterikdir.

Daha bir məqam. Dörd gün davam etmiş Arlinqton danışıqlarından sonra Ermənistanın hakim siyasi dairələrində belə fikir yarandı ki, Bakı ilə İrəvan arasındakı münasibətlərin yoluna qoyulmasına sistemli yanaşılması üçün Rusiyanın mövqeyi vacibdir. Mövcud xüsusda Kremlin Cənubi Qafqaz siyasi akvatoriyası ilə əlaqədar tarixi bağları üzərinə gəlindi. Bölgənin Moskvanın mənəvi orbitində olduğuna dair baxışlar da, həmçinin.

Əslində, qeyd etdiyimiz xüsus Nikol Paşinyanın hakimiyyətə gəldiyi 2018-ci il inqilabından sonra Ermənistan baxımından görünməmiş siyasi ritorika sayılmalıdır. 44 günlük müharibədən əvvəl rəsmi İrəvan, ümumiyyətlə, Rusiyanı saymırdı. Müharibədən sonra buna məcbur qaldı. Son bir ildə də Ermənistan şimal qonşusuna tam əhəmiyyətsiz yanaşmaqdadır. Sual olunur: Rusiya amili nə üçün əsas tutulur?

Cavab birmənalıdır: üfüqdə sülh perpektivi görünəndə İrəvan bu yola əl atır, siyasi manipulyasiyalara baş vurur. Sanki, anti-Rusiya mövqeyindən çıxış edib Azərbaycan-Ermənistan sərhədinin Ermənistan tərəfinə Avropa İttifaqının müşahidəçilərini gətirən, Moskvanın hakim rol oynadığı, özünün də üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsinin missiyasının ölkəyə gəlişinə əngəllər törədən Paşinyan administrasiyası deyil.

Bəli, Ermənistan öz avantürizmi üçün Rusiyanı yüksək tutur, ABŞ-ın vasitəçilik missiyasını kölgələməyə cəhd göstərir. Əlbəttə, bu prosesdə Moskva da az rol oynamır. Kremlin rəsmi təmsilçiləri və ona yaxın dairələr açıqlamalarında Vaşinqtonun sülh missiyasını heçə endirmək yönümlü baxışlar səsləndirirlər. Bütün bunların fonunda Birləşmiş Ştatlardan açıqlama gəlməli idi və V.Patelin şəxsində gəldi də. Hərçənd, demək olmaz ki, bu açıqlama birbaşa ABŞ-a əks mövqe tutanlara cavab ruhundadır. Ancaq cavab hər bir halda, duyulur. Məsələn, Patel bildirir: "İnanırıq ki, irəliyə doğru aydın bir yol var. Biz, təbii ki, mayın əvvəlində bu iki ölkənin rəsmilərini qəbul etməkdən məmnuq idik".

Əlbəttə, sülh yolu kifayət qədər aydındır. Yəni, həm də Vaşinqton o yolu aydın görür. V.Patel inandığını bildirir ki, ABŞ-dakı danışıqlar səmərəli olub və Brüsseldə keçiriləcək növbəti raundun davamı üçün zəmindir. Deməli, Vaşinqton kollektiv Qərb vasitəçiliyi kontekstindən çıxış etməyə üstünlük verir. Halbuki dördgünlük danışıqlar raunduna qədər və ondan az sonra belə təəssürat yox idi. Elə təsəvvür formalaşırdı ki, Birləşmiş Ştatlar Azərbaycan–Ermənistan nizamlaması üzrə özünü müstəqil oyunçu olaraq göstərmək istəyir. Ancaq yuxarıda da vurğuladıq ki, Ermənistan mətləbdən yayındı və Vaşinqtonun aydın gördüyü yolu, belə demək mümkünsə, dumanlandırdı.

Dövlət Departamentinin öz təşəbbüsünün davamını Brüsseldə axtarmaq əzmi də dumandan qurtulmaq istəyindən qaynaqlanır. Başqa sözlə desək, Ağ ev kollektiv Qərb vasitəçiliyi üzərinə gəlir. Nəzərə alaq ki, ABŞ üçün bu məntiq Rusiya vasitəçiliyindən daha yaxşıdır. Axı, Moskva Cənubi Qafqaz tənzimləməsində özünü alternativsiz tərəf kimi görməkdədir. İndiki halda Vaşinqtonun kollektiv Qərb nizamlamasından uzaqlaşması, Rusiyanın mövqeyinin güclənməsi reallığını doğura bilər. Deməli, bu reallığa qarşı çıxmaq şərtdir.

Diqqət yetirək: V.Patel deyir ki, hərbi əməliyyatlar davamlı və ləyaqətli sülhə doğru əldə olunan tərəqqiyə xələl gətirir. Ardınca Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqton danışığını vacib müsbət addım sayır. Onu da bildirir ki, görüş zamanı tərəflər bir neçə vacib sualları müzakirə etmək, bir-birinin nəzər nöqtəsini görmək imkanı qazanıblar. Ən əsası isə: "Biz inanırıq ki, möhkəm irəliləyiş üçün hələ doğru yol var. Biz inanırıq ki, bu problemin sülh yolu ilə həlli var. Ona görə də biz dövlət katibindən başlayaraq, bu məsələ ilə bu qədər dərindən məşğul olmağa davam edirik. Lakin mən danışıqları qabaqlamaq istəmirəm".

Qeyd edək ki, Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin dörd gün davam etmiş danışıqları əsnasında ABŞ-dan gələn mesajların məğzində bu cəhət də dayanırdı ki, sanki, rəsmi Vaşinqton hər iki ölkə rəsmilərinin görüşmələri üçün yalnız məkan təşkil etmək kimi texniki iş həyata keçirməkdədir. Yəni, Birləşmiş Ştatlar tərəflərin birbaşa təmasının vacibliyini vurğulayırdı. İndi Patelin Vaşinqton prosesinin davamı kimi Azərbaycanın və Ermənistanın liderlərinin mayın 14-də keçiriləcək Brüssel raunduna, necə deyərlər, sərmayə yatırması onu göstərir ki, burada həlledici məqam məkan məsələsi deyil. Həqiqətən də söhbət əgər məkandan gedirsə, o zaman Gürcüstan həm neytrallıq, həm də məsafə baxımından ən münasibdir və uzun yol qət edib Vaşinqtona, Brüsselə və Moskvaya getməyə heç bir ehtiyac yoxdur. Amma aydındır ki, belə bir ehtiyac var.

Əlbəttə, haqqında söz açdığımız ehtiyacın olmadığı da yüksək səslə vurğulanır. Bu mənada son günlər səslənmiş ən tutarlı və real bəyanatın müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısı Şuşada keçirilmiş beynəlxalq konfransdakı çıxışında Ermənistana birbaşa, vasitəçilərsiz danışıqlar aparmağı təklif etdi. Görünür, Azərbaycan lideri də vasitəçilik missiyalarının həm faydasızlığı, eyni zamanda, ziyanlılığı məntiqini qabardır. Ölkəmizin rəhbəri, həmçinin, bu missiyaların daşıdıqları maraqları da aydın görür. Həmin maraqların kontekstində İrəvanın hansı manipulyasiyalara yol verdiyini və sülh imitasiyalarını da həmçinin.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

# Makronun Ermənistana ölümcül silahlar dəstəyi:

## Azərbaycana təhdid, yoxsa blef?

**Mötəbər məlumata əsasən, Fransa Ermənistandakı səfirliyinin yanında yeni hərbi attaşenin təyin olunması barədə qərar qəbul edib. Bu barədə Caliber.az saytı məlumat yayıb. Beləliklə, bir müddət bundan əvvəl Fransanın "Intelligence Online" nəşri tərəfindən yayılan məlumat öz təsdiqini tapıb.**

Bu addım ilk dəfə yüksək səviyyədə 2022-ci ilin sentyabrında, Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı müzakirə olunub və indi faktiki olaraq rəsmiləşir. Bildirilir ki, fransalı hərbi attaşe Fransa ölümcül silahlarının Ermənistana tədarükünə nəzarət edəcək. Parisin Ermənistana ölümcül silahların tədarükü barədə hərbi-siyasi qərarına əsas dəstəyi isə şəxsən Fransa Prezidenti Emmanuel Makron göstərib.



Beləliklə, Avropa İttifaqının aparıcı ölkələrindən biri regiona ölümcül silahların tədarükündən imtina üzrə ənənəvi ümumavropa siyasətini kobud şəkildə pozub. Materialda deyilir ki, bununla da Fransa regionda hərbi potensialın Ermənistanın xeyrinə olmasına səy göstərir.

***

Fransanın bu addımı onun ermənipərəst mahiyyətindən bir addım da uzaqlaşmadığının göstəricisidir. Rəsmi Paris 44 günlük Vətən müharibəsində biabırçı məğlubiyyətə uğramış Ermənistanın ayağa qalxması, dirçəlməsi üçün hər vəchlə çalışır. Fransa "bacısı" adlandırdığı Ermənistana indiyədək daha çox mənəvi-siyasi, iqtisadi dəstək göstərirdi. İndi isə bu sıraya hərbi-texniki dəstək də əlavə olunur.

Aydın məsələdir ki, Ermənistan bu silahları hansısa müdafiə sərgisində nümayiş etdirmək, yaxud hərbi hissələrin silah-sursat anbarında paslanması üçün almır. Onlardan ilk növbədə özünə başlıca təhdid saydığı Azərbaycana qarşı istifadə etməyə çalışacaq. Sirr deyil ki, bu gün Ermənistanda bir çoxu revanşist hisslərlə yaşayır. Ölkənin Hindistanla hərbi-texniki əməkdaşlığı genişləndirməsinə, Dehlidən 244 milyon dollar dəyərində silah-sursat, o cümlədən "Pinaka" reaktiv yaylım atəşi sistemləri və "Svati" radarları tədarük etməsinə də bu kontekstdə yanaşılmalıdır.

Ötən ilin oktyabrında isə Ermənistan mediasında İrandan pilotsuz uçuş aparatları almasına dair məlumat yayılmışdı. Təcavüzkar ölkənin müdafiə nazirliyi bu məlumatı nə təsdiq, nə də inkar etmişdi. İndi Fransanın da Ermənistanı silahlandırması Azərbaycana qarşı məkrli niyyətlərdən, Bakı ilə İrəvan arasında hərbi tarazlığı hayların xeyrinə dəyişdirmək istəyindən xəbər verir.

Fransa BMT nizamnaməsinə görə, qurumun beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyan ali orqanının – Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Nüvə silahına malik dövlətdir. Fransa 1949-cu ildə NATO-nu təsis edən 12 ölkədən, 1952-ci ildə Avropa Kömür və Polad Birliyinin (hazırkı Avropa İttifaqı) əsasını qoyan 6 dövlətdən biridir. Xüsusilə, BMT TŞ-nin daimi üzvü olması Fransanın sülhün və əmin-amanlığın qorunmasında məsuliyyət daşımasını şərtləndirir. Parisin atdığı bu addım isə onun beynəlxalq münasibətlər sistemindəki yeri və rolu ilə heç cür uzlaşmır. Bundan əlavə, Fransa uzun illər ATƏT-in Minsk qrupunun həmsədri olub. Bu gün də Bris Rokfeyl adlı diplomatın Minsk qrupunda həmsədr olduğunu iddia edir. Görünür, aşkar tərəfkeşlik edən ölkənin vasitəçi ola bilməyəcəyi barədə qızıl qaydanı Parisdə unudublar.

Onu da qeyd edək ki, Fransanın açıq ermənipərəstliyi Azərbaycanda zaman-zaman tənqid olunub. Sonuncu dəfə Milli Məclisin sədri Sahibə Qafarova mayın 11-də Fransanın ölkəmizdəki səfiri Ann Buayonla görüşərkən, bəzi Fransa rəsmilərinin və siyasətçilərinin Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə açıq şəkildə Ermənistana dəstəyini ifadə edən, Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və ermənipərəst siyasətini dəstəkləyən bəyanatlarının ictimaiyyətimizin haqlı və ciddi narazılığına səbəb olduğunu xatırladıb. S.Qafarova, bu çərçivədə Fransa Senatında və Milli Assambleyada qərəzli qətnamələrin qəbul edilməsini pisləyib. O xatırladıb ki, 2022-ci ilin noyabrında Milli Məclis tərəfindən Senatda və Milli Assambleyada bu qətnamələrin qəbul edilməsini pisləyən bəyanat qəbul edilib.

Parlamentin sədri Fransanın Xarici işlər naziri Ketrin Kolonnanın regiona son səfəri, Laçın yolu ilə bağlı Ermənistanda verdiyi bəyanatlar, həmçinin Fransanın ictimai radiosuna verdiyi müsahibədə səsləndirdiyi iddiaları da qəbuledilməz adlandırıb. Onun fikrincə, bu kimi qeyri-obyektiv fikirlər göstərir ki, Fransa bu məsələdə birtərəfli, qərəzli mövqeyini davam etdirir.

***

**Məsələ ilə bağlı "Xalq qəzeti"nə açıqlama verən politoloq Fikrət Sadıqov bildirib ki,** bütün səfirliklərdə müxtəlif attaşelər, o cümlədən hərbi attaşelər fəaliyyət göstərir. Ancaq regiondakı gərginlik fonunda Fransanın Ermənistandakı səfirliyi yanında yeni



hərbi attaşenin təyin olunması, təbii ki, qeyri-adi haldır: "İlk növbədə nəzərə almaq lazımdır ki, NATO 1990-cı illərdən etibarən öz üzvlərinə Ermənistan və Azərbaycana hərbi münaqişə vəziyyətində olduqları üçün silah və hərbi texnika satışına qadağa qoyub. Belə görünür ki, Paris alyansın qərarını sadəcə olaraq, tapdalayır".

Fikrət Sadıqov qeyd edib ki, görünür, Fransa Azərbaycanın güclənməsindən və Ankara-Bakı tandeminin yaranmasından çox narahatdır: "Hesab edir ki, o, yaranmış vəziyyətdə Ermənistanın yanında olmalıdır. Ancaq biz Ermənistana heç bir təhlükə yaratmırıq. Onlar bizə qarşı təxribat törədir. Biz öz torpaqlarımızı azad etmişik və hazırda da öz torpaqlarımızdayıq. Bunu sağlam düşüncəli bütün insanlar başa düşürlər. Əgər Parisdə Ermənistanla hərbi-texniki əməkdaşlığı inkişaf etdirdikdən sonra Azərbaycana qarşı hansısa addım ata biləcəklərini düşünürlərsə, demək, yanılırlar. Biz öz torpaqlarımızı müdafiə etməyə hər zaman hazırıq. Bizim güclü müttəfiqlərimiz var. Ərazi bütövlüyümüzü qorumaq, müdafiə etmək üçün imkanlarımız kifayət qədər genişdir. Hərbi attaşenin təyin olunması ilə onlar heç bir məqsədə nail ola bilməyəcəklər".

**Milli Məclisin deputatı, politoloq Elşad Mirbəşir isə bildirib ki,** Fransa təkcə Azərbaycana qarşı deyil, bütövlükdə, Cənubi Qafqaz regionunun təhlükəsizliyinə ciddi təhdid yaradır və sülh prosesinə əngəl olur.

Onun sözlərinə görə, Fransanın Ermənistandakı səfirliyinə yeni hərbi attaşe təyin edilməsi ilə bağlı məsələnin yalnız rəsmi tərəfi qalıb: "Yeni hərbi attaşenin əsas fəaliyyət istiqaməti ondan ibarət olacaq ki, Ermənistana Fransanın müasir silahları verilsin: "Belə olanda sual ortaya çıxır ki, Fransanın məqsədi nədir? Əgər sülh prosesinə



töhfə verməkdirsə, onda ümumilikdə, Avropanın mövqeyinə tam zidd mövqe sərgiləmək daha bir riyakarlığın aşkar göstəricisidir. Çünki Avropa İttifaqının yanaşması ondan ibarətdir ki, istər keçmiş, istərsə də hazırkı münaqişə bölgələrinə silahların verilməsinə məhdudiyyətlər tətbiq olunsun. Amma Fransa aşkar şəkildə Ermənistanı silahlandırmaqda marağını nümayiş etdirir, ölkəmizin ərazi bütövlüyün şübhə altına qoyur".

***

Yazımızın girişində qeyd etdiyimiz kimi, Paris indiyədək bir çox açıq ermənipərəst addımlar atıb. Ancaq onun bu addımları Azərbaycanı heç zaman öz yolundan çəkindirə bilməyib. Çünki Azərbaycanın yolu haqq yoludur. Sonuncu dəfə 2022-ci ilin dekabrın 20-21-də Fransa və Ermənistan Laçın yolundakı vəziyyətlə bağlı BMT TŞ-nin iclasını çağırmışdılar. Hər iki ölkə Azərbaycana qarşı növbəti ədalətsizliyi qlobal platformada legitimləşdirməyə cəhd etsə də, növbəti dəfə rüsvay oldular. Özü də Fransa BMT TŞ-nin daimi üzvü və həmin dövrdə qurumun sədri idi. On gün ərzində bütün resurslarını işə salsa da, bir bəyanatı qəbul etdirə bilməyən Fransa və onun yaxın müttəfiqi üzərində Azərbaycanın diplomatik-siyasi qələbələri bundan sonra da davam edəcək.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**hərbi ekspert**

– Düşünürəm ki, bu, Emmanuel Makronun auditoriyaya hesablanmış gedişidir. Onun məqsədi Fransada yaşayan 500 minə yaxın erməni mənşəli vətəndaşı seçici elektoratı kimi öz əlində saxlamaqdır. Digər tərəfdən, attaşenin səlahiyyəti çox azdır. O cümlədən, onun müqavilə imzalamaq səlahiyyəti yoxdur. Əgər Fransa Ermənistana silah verəcəksə, bu, dövlətlərarası alqı-satqı müqaviləsi əsasında olacaq. Ona görə də hərbi attaşenin orada olub-olmaması heç nəyi həll etmir. O olsa da, olmasa da silah-sursat satıla bilər.

Bundan əlavə nəzərə almalıyıq ki, Ermənistandakı silahların 90-95 faizi Rusiya istehsalıdır. Fransanın verəcəyi silahlar Rusiyanın silahları ilə adaptasiya olunaraq atəşi avtomatik idarəetmənin ümumi sisteminə uyğun gəlməyəcək. Bir hərbçi kimi deyirəm ki, burada ciddi problemlər ortaya çıxa bilər.

Fransanın Ermənistana silah satması Azərbaycana heç bir təsir göstərə, regionda hərbi balansı Ermənistanın xeyrinə dəyişdirə bilməz. Çünki Ali Baş Komandan İlham Əliyev mayın 10-da Şuşadan xalqa müraciətində ordumuzun güclənməsi üçün lazım olan addımları bundan sonra da atacağımızı bildirdi. Azərbaycan Ordusu cənab İlham Əliyevin dediyi kimi dünyanın ən güclü orduları sırasındadır. Ermənistan bundan sonra illərlə silah alsa da, qarşı tərəfin cavabını vermək üçün ordumuzun gücü yetərlidir.

# Prezidentin 10 may müraciəti 1993-cü ildən sonrakı tariximizə mükəmməl baxışdır

(əvvəli 1-ci səhifədə)

*Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!*

**Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən Şuşa, 10 may 2023-cü il**

Prezidentin fikrincə, bu addımlar bizim üçün ona görə zəruri idi ki, torpaqlarımız işğal altında idi. Ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yəni, böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etdilər.

Dövlət başçımız xatırlatdı ki, 1993-cü ildən bəri bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdən biri mükəmməl təfəkkürə malik gənclər ordusunun yetişdirilməsidir. Əslində, dövlət başçımız bu qəbildən olan qiymətləndirmələri dövri olaraq səsləndirir. Həm Gənclər Günü münasibətilə keçirilən tədbirlərdə, həm Silahlı Qüvvələr Günündə, həm də yeni təhsil ilinin başlanması zamanı cənab Prezidentin Azərbaycan gəncliyinə inam və etimad dolu fikirlərini dəfələrlə eşitmişik. Bu arqumentə ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşadan səsləndirilən müraciətdə də toxunulması isə daha çox diqqət çəkirdi.

Çünki həm gəncliyə dövlət qayğısı göstərilməsinin, yeni nəslin müxtəlif dövlət qurumlarında irəli çəkilməsinin, peşəkar hərbçilər yetişdirilməsinin təməlində ümummilli liderimizin siyasi kursu dayanır, həm də cənab Prezidentin xalqa müraciət etdiyi Şuşanı düşmən tapdağından məhz Azərbaycan gəncliyinin hünəri, cəsarəti və mərdliyi azad etmişdir.

Dövlət başçımız həmin müraciətində xatırlatdı ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyanın ayrı-ayrı guşələrində müxtəlif meyillər, tendensiyalar müşahidə olunur, "yeni dəyərlər" meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq: "Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk".

Bir faktı yada salmaq zərurəti var. Belə ki, müstəqilliyin ilk illərindəki gənclik haqqında söz açarkən, dərhal yada düşən tələbələr, idmançılar və əsgərlər olurdu. Çünki həmin illərdə gəncləri bu iki –üç sahədən başqa heç yerdə görə bilməzdin. İndi isə Azərbaycan gənci Prezidentin köməkçisi, nazir, deputat, diplomat, icra hakimiyyəti başçısı və həm də tələbə, idmançı və əsgərdir.

Bəli, bugünkü Azərbaycan əsgərinin, yeni Azərbaycan gəncinin İkinci Qarabağ müharibəsində nümayiş etdirdiyi məharətlə təkcə dövlət başçımız yox, bütün xalq fəxr edir. Ordumuzun döyüş taktikası və strategiyası dünyanın aparıcı hərbi məktəblərinin peşəkar mütəxəssisləri tərəfindən öyrənilir.

Dövlət başçımız ötən ilin fevralında – Gənclər Gününün 25 illiyinə həsr olunmuş forumda sualları cavablandırarkən demişdi ki, Azərbaycanda 29 yaşına qədər insanlar gənclər sayılır. Əgər belə demək mümkündürsə, bu gün ən yaşlı gəncin cənab İlham Əliyev Prezident vəzifəsinə birinci dəfə seçiləndə 11 yaşı var idi. Yəni, bu, reallıqdır: "Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".

Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsinin yaratdığı yeni reallıqlardan biri də məhz Azərbaycan gəncləri ilə bağlıdır. Belə ki, dövlət başçımızın da xatırlatdığı kimi, bu gün bizim qəhrəman gənclərimiz – dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz bu yolda hamı üçün nümunə olublar.

Prezident əmindir ki, səngərlərdə, döyüş meydanlarında, kəşfiyyat fəaliyyətində şücaət və peşəkarlıq göstərmiş gənclər bu nailiyyətin məsuliyyətini dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, nümunə götürsünlər: "Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax, bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar".

Dövlət başçımız 10 may tarixli müraciətinin sonunda bir daha ulu öndərin arzu-istəklərini xatırladaraq deyir ki, bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qurub yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik: "Necə ki, ulu öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan –Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik".

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*

# Ermənistan silahlı qüvvələri artilleriya qurğularından mövqelərimizi atəşə tutub

**Mayın 12-si saat 18:00 radələrində Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun üzbəüz mövqelərini D-30 topları və minaatanlardan atəşə tutub.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri cavab tədbirləri görülür.

Bölmələrimiz itki verməyib.

# Gəncədə yubiley şənliyi

## *Ulu öndərin 100 illiyi ilə bağlı konserti 50 mindən çox gəncəli izləyib*

**Gəncədə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə şəhər icra hakiiyyətinin təşkilatçılığı ilə keçirilən möhtəşəm konserti 50 min nəfərdən artıq insan izləyib.**





Heydər Əliyev "Park-Xiyaban" Kompleksindəki "Zəfər Tağın"nın önündə təşkil edilən çal-çağırda şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatları, idarə, müəssisə, təşkilat rəhbərləri, xarici qonaqlar,



şəhər sakinləri iştirak edirlər. Şənlikdən əvvəl yubiley şərəfinə veloyürüş keçirilib. Sonra iştirakçılar ulu öndərə həsr edilmiş əl işləri və rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Konsert proqramında Gəncə Dövlət Filarmoniyasının ifaçıları – Xalq artisti Şahnaz Haşımova, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solistlər Vasif Bayramov, İlham Qasımov, Röv-



şən Məmmədov, Rüstəm Cəfərov ulu öndər Heydər Əliyevə, onun xalqımıza töhfəsi və əmanəti olan müstəqil Azərbaycana həsr olunan vətənpərvər ruhlu mahnılar ifa edirlər. Gəncə Dövlət Filarmoniyasının "Göygöl" Dövlət Mahnı və Rəqs ansamblının, həmçinin "Xəmsə" uşaq rəqs ansamblının təqdim etdiyi rəqslər tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Türkiyədən dəvət edilmiş məşhur müğənni Rafet El Roman yubiley konsertində Gəncə sakinləri üçün öz repertuarında yer alan sevilən mahnılarını ifa edib. Türkiyəli müğənni konsertin sonunda ulu öndərə həsr olunmuş əzəmətli "Sən elə bir zirvəsən" mahnısını təqdim edib. Mahnının sədaları altında səhnədə quraşdırılmış ekranda



ümummilli lider Heydər Əliyevin həyat yoluna həsr olunan videoçarx nümayiş etdirilib.

Müsiqili şənlik möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

*Hamlet QASIMOV, "Xalq qəzeti"nin bölgə müxbiri*

**Gəncə**

**İyirmi səkkiz il düşmən tapdağında olan qədim mədəniyyət paytaxtımız Şuşa düşmən əsarətində olduğu dövrdə həm gözəlliyinə, həm də tarixiliyinə həddindən artıq zərər vurulub. Şəhər Vətən müharibəsində parlaq qələbəmizlə azadlığına qovuşandan sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb.**

Bu zaman 350 hektarlıq qoruq zonası xüsusilə diqqət mərkəzində saxlanılıb. Malikanələr, yaşayış evləri və inzibati binaların öz köhnə görkəmlərinə qaytarılmasına həssaslıqla yanaşılıb. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında Şuşanın əvvəlki vəziyyətinə qaytarılmasının vacibliyini bildirib, qoruq zonasında tarixiliyin mütləq şəkildə qorunmasının, məhəllə, məscid, hamam, bulaq, saray, malikanə və digər maddi-mədəni abidələrin hər birinin özünəməxsus memarlıq quruluşunun saxlanılmasının önəmini diqqətə çatdırıb.

Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq reallaşdırılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun möhkəmləndirilməsi həyata keçirilib, məscidin döşəməsi bərpa edilib. Bütün bunlarla bərabər, aparılan

# Şuşanın vandal yaraları sağaldılır

## Heydər Əliyev Fondu tarixi abidələri həyata qaytarır



Yeri gəlmişkən, mütəxəssislərin bildirdiklərinə görə, Şuşanın 28 illik işğalı dövründə düşmən tərəfindən şəhərin erməniləşdirilməsinə cəhd göstərilib, tariximizin silinməsinə, pozulmasına çalışılıb. Memarlıq abidələrimiz, görkəmli şəxslərin yaşadıqları evlər, malikanələr, inzibati binalar, demək olar ki, yararsız vəziyyətə salınıb. Hətta deyilənə görə, işğal dövründə Şuşanın erməniləşdirilməsi məqsədilə Ermənistan genişmiqyaslı planlar həyata keçirib və bunun üçün hər il 30 milyon dram vəsait ayrılıb. Hazırda mədəniyyət paytaxtımızın bərpası prosesində düşmənin şəhərə vurduğu ziyan aradan qaldırılarkən, ilk növbədə, tarixilik prinsipi, maddi-mədəni abidələrin ilkinliyi məsələsi önə çəkilir.

Mayın 9-10-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Şuşada olarkən, ayrı-ayrı tarixi abidələrdə aparılan bərpa işlərindən sonra açılış mərasimlərində iştirak ediblər. Məsələn, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən gerçəkləşdirilmiş bərpa işləri diqqət çəkdi. Mərasimdə Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binasının ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısına salındığı vurğulandı, bu tikilidə vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşdiyi vurğulandı. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildə başlanan bərpa işləri zamanı binanın ilkin vəziyyətinə qaytarılmasının, ilk növbədə, diqqətdə saxlanıldığı, sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarların sökülərək binanın tarixi formasına qaytarılması işlərinin uğurla yerinə yetirildiyi bildirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri Milli Xalça Muzeyinin Şuşa filialının bərpa prosesinə də diqqət yetirək. Burada dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilərək bu tarixi binanın XIX əsrin ikinci yarısında tikildiyi, işğal dövründə yararsız hala salındığı və tarixi görkəminə müdaxilələr edildiyi xatırladıldı. Eyni zamanda, burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanıldığı, binanın daxili divarları, döşəmələri və tavanlarının əvvəlki görkəminə qaytarıldığı vurğulandı.

Şuşada tarixi nümunələrə belə qayğı bəslənilməsi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında da diqqət çəkib. Dövlətimizin başçısına və birinci xanıma burada görülən işlər barədə məlumat verilərək bu məscidin 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunduğu, XIX əsrin memarlıq abidəsi olan bu dini ibadət ocağının inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binalarının yerləşdiyi xatırladılıb.

Yeri gəlmişkən, Şuşa şəhəri işğal altında olduğu müddətdə digər tarixi abidələr kimi Saatlı məscidi də erməni faşizminin təsirinə məruz qalaraq dağıdılıb tərəfindən dağıdılıb. 2021-ci ilin dekabrından isə məsciddə Heydər

analizlər nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyənləşdirilib və minarə ona uyğunlaşdırılıb, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Şuşada Yuxarı Gövhər Ağa məscidi də tarixilik prinsipi əsasında əsaslı bərpadan keçib. Dövlətimiz başçısı və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verilərək bu tarixi-mədəniyyət abidəsinin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabaği olduğu, bu inanc yeri onun ən yaxşı əsərləri sırasına daxil edildiyi qeyd olunub. Eyni zamanda, məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənildiyi xatırladılıb.

Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılıb. Şəhər işğaldan azad edildikdən sonra bu tarixi-mədəniyyət abidəsinin konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib. Məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb. Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri, mədəni-dini abidələrimizin bərpası davam edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub.

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilib. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir.

Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir.

*V.BİNYƏTOĞLU, "Xalq qəzeti"*

# Qusarlıların heç vaxt unutmayacağı dahi şəxsiyyət



**2023-cü il Azərbaycan dövləti və xalqı üçün əlamətdar tarixdir. Bu il Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 100 illik yubeliyini qeyd edirik. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev ili" elan olunub.**

Heydər Əliyev dünyanın ən qüdrətli tarixi simaları arasına yüksəlmiş nadir şəxsiyyət, azərbaycanlı dahidir. Xalqımızın ümummilli lideri olan bu müdrik, görkəmli dövlət xadimi bütün ömrünü Azərbaycan xalqının xoşbəxtliyinə, ölkəmizin və dövlətimizin inkişafına, tərəqqisinə həsr etmişdir. O, Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə titanik fəaliyyəti, nəhəng quruculuq işləri ilə adını çağdaş tariximizə qızıl hərflərlə yazmışdır.

Ulu öndərin 100 illik yubileyi Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qusar rayonunda da bu dahi insana sevgi və məhəbbətdən doğan qədirbilənliklə qeyd edilir. O böyük dövlət xadiminin idarəçilik və təsərrüfatçılıq məktəbini keçmiş, həyat yollarında onun ideyalarından bəhrələnmiş bir vətəndaş kimi, ümummilli liderin Qusar və qusarlılara xüsusi rəğbəti ilə bağlı öz ürək sözlərimi bölüşmək mənim üçün də olduqca böyük şərəfdir. Vaxtilə iqtisadiyyatı ancaq bağçılığa və maldarlığa söykənən Qusar rayonu həm ümummilli lider Heydər Əliyevin, həm də onun iqtisadi və siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin qayğısını, köməyini həmişə görüb, indi də görür.

1998-ci il oktyabrın 3-nü qusarlılar heç vaxt unutmayacaqlar. Məhz həmin gün Qusar rayonuna səfərə gələn ulu öndər hər bir qusarlıya qürur gətirən, indi isə dillər əzbəri olan fikirlərini bizimlə belə bölüşmüşdü: "Bu gün müstəqil Azərbaycanın apardığı bütün quruculuq, yaradıcılıq işlərində qusarlıların öz yeri var. Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, qusarlılar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında xidmətlər göstərmişlər, qan tökmüşlər, milli qəhrəmanlıq zirvəsinə ucalmışlar.

Qusarın kənd təsərrüfatı rayonu kimi inkişafı məhz Heydər Əliyevin dövründə başlamışdır. Keçən əsrin 70-ci illərində rayonda böyük massivlərdə meyvə bağlarının salınması, Qusar və Samur konserv zavodlarının, heyvandarlıq komplekslərinin, aqrar avtoparkın, suvarma sistemlərinin, körpülərin, yolların tikilməsi, təchizat sisteminin qurulması və digər infrastrukturların təməli və istifadəsi məhz Heydər Əliyevin göstərişi, şəxsi köməyi ilə reallaşmışdır. Qusar respublikada meyvəçilik üzrə ikinci rayona çevrilmişdi. Rayonun tarixində meyvəçilik və tərəvəzçilikdə rekord məhsul məhz həmin illərdə toplanıb.

1998-ci ilin oktyabrında Qusar sakinləri qarşısında etdiyi unudulmaz nitqində ulu öndər həmin illəri xatırlayaraq demişdi: "Qusarlılar xüsusi etimada layiqdir. Sizin tarixiniz qəhrəmanlıq tarixidir. Vətənə, torpağa, dövlətə sədaqət göstərmək tarixidir...Adətən, deyirlər ki, mən Qusara 1969-cu ildən diqqət yetirməyə başlamışam. Amma mən hələ 50-60-cı illərdə Qusara dəfələrlə gəlmişəm. Qusarın işləri ilə məşğul olmuşam, Qusarın insanları ilə bir yerdə işləmişəm və Qusarın gözəl mənzərələrinə həmişə heyran olmuşam. Azərbaycana rəhbərlik etdiyim zaman daim Qusarın qayğıları ilə yaşamışam. Qusarın inkişaf etməsi üçün tədbirlər görmüş, onların həyata keçməsinə nail olmuşam."

Yadımdadır, 1995-ci il fevralın 20-də Heydər Əliyevin respublikada yaşayan ləzgi ictimaiyyətinin nümayəndələri ilə görüşü keçirilirdi. Bu görüşdə bir çox məsələlərə aydınlıq gətirildi. "Azərbaycan ləzgilər üçün doğma torpaqdır və onlar heç bir yerdə özlərini bu qədər rahat hiss etmirlər"– deyən ümummilli lider milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların Azərbaycan xalqının tərkib hissəsi kimi qəbul edildiyini, Azərbaycanın bütün azərbaycanlıların vahid və bölünməz Vətəni olduğunu bəyan etdi. Bu müddəalar sonralar onun sədrliyi ilə işlənib hazırlanan, ümumxalq səsverməsi ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyasında təsbit olundu.

Möhtərəm Prezidentimiz İlham Əliyev ölkəyə rəhbərliyinin elə ilk günlərindən ölkəmizin siyasi yolunun dəyişməzliyini qətiyyətlə bəyan etmişdir: "Azərbaycanın qüdrətli dövlətə çevrilməsi üçün ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir". Həyata keçirilən uğurlu xarici siyasətin nəticəsidir ki, ötən illərdə müxtəlif beynəlxalq təşkilatlar tərəfindən Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanındı və bu yöndə sənədlər qəbul edildi. 44 günlük İkinci Qarabağ müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində həmin beynəlxalq sənədlər hüquqi baza rolunu oynadı.

Artıq regionların sosial-iqtisadi inkişafının dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər Qusarın da simasını tamam dəyişib. Xüsusilə son illərdə rayonumuzda tikinti-quruculuq, abadlıq işləri daha intensiv və effektli həyata keçirilir, təhsil, səhiyyə, mədəniyyət sahələrində nəzərəçarpacaq irəliləyiş əldə olunmuşdur. Bu irəliləyişi təmin edən əsas amil dövlət başçısı, möhtərəm İlham Əliyevin Qusara, onun tərəqqisinə, insanlarının rifahına qayğısıdır. Ölkə rəhbəri Qusara on dəfədən çox səfər edib, rayon ictimaiyyəti ilə görüşüb, hər dəfə də neçə-neçə obyektin istifadəyə verilməsində, yeni tikililərin təməlqoyma mərasimlərində iştirak edib.

Qusar ölkəmizin digər rayonları kimi inkişaf və tərəqqi yolundadır. Biz bunları görür, təqdir edir, uğurlarımızla sevinir, fəxr edirik. İndi bizim dağlar diyarımız dünyanın ən gözəl turizm imkanlarına malik bölgələrindən biri kimi tanınır. Nəinki respublikamızda, hətta Qafqazda turizm sektorunun ən böyük tikililərindən biri olan "Şahdağ" Beynəlxalq Qış-Yay Turizm Kompleksinin inşası bölgədə turizmin inkişafına böyük təkan vermişdir. Bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış həmin turizm mərkəzində hər il ölkəmizin müxtəlif guşələrindən və xaricdən gəlmiş minlərlə turist dincəlir, sağlamlığını bərpa edir. Növbəti illərdə Bakı–Yalama yolu ilə "Şahdağ" xizək kurortuna dəmir yolu çəkilməsi nəzərdə tutulmuşdur.

Rayonda turizm ilə yanaşı, kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni meyvə bağlarının salınması, kənd yollarının təmiri, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması, tikinti-abadlıq işlərinin görülməsi, sosial obyektlərin tikintisi geniş vüsət alıb. Qusar şəhərinin və kəndlərin tanınmaz dərəcədə dəyişməsi onun hər bir sakinində böyük qürur hissi doğurur.

Rayon mərkəzində küçələrin abadlaşdırılması işləri görülür. Hazırda küçələrdə yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir. Şövkət Orduxanov adına şəhər mərkəzi stadionda əsaslı yenidənqurma aparılır. Stadionun ilin sonuna kimi istifadəyə verilməsi nəzərdə turulur.

Nəriman Nərimanov adına şəhər parkında əsaslı təmir işləri görülür. Turizmin inkişaf etdrilməsi ilə əlaqədar rayonda çoxlu otellər istifadəyə verilib, o cümlədən Çiləgir kəndində 6014 kvadratmetr sahəsi olan otel binasının tikintisi davam etdirilir. Qusar – İmamqulukənd – Quxur oba avtomobil yolu istifadəyə verilmiş, Bakı –Gəndov – Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Qusar rayonu ərazisindən keçən 16 kilometrlik hissəsində tikinti işləri və 26 kilometrlik 1-ci dərəcəli Samur –Şirvanlı –Xanoba avtomobil yolunun əsaslı təmiri işləri davam etdirilir. Kənd bələdiyyələrinin daxili imkanları hesabına 215 min kvadratmetr kənd yolları cari təmir edilmişdir.

Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması üçün Həzrə, İmamqulukənd kəndlərində və Samur qəsəbəsində şəbəkə yenidən qurulmuş və daha 9 kənddə yenidənqurma işləri görülür. Mucuq, Hil, Xuluq, Qılah, Nəcəfkənd, Yasab oba və Torpaq körpü kəndlərində yeni su xətləri çəkilmiş və ya təmir edilmişdir. Qusar şəhərinin içməli su təchizati və kanalizasiya sistemləri yenidən qurulmuşdur.

Hil kəndində 720 yerlik orta məktəb binası, Heydər Əliyev Fondunun yaxından köməyi ilə Atluxan, Kufoba, Aşağı İmamqulukənd, Əniğ Oba və başqa kəndlərdə yeni məktəblər, Zuxul, Avaranqışlaq, Üzdən oba, Nəcəfkənd və Qılah Oba kəndlərində modul tipli yeni məktəb binaları istifadəyə verilmişdir. Rayonun şəhər, qəsəbə və kənd əraziləri tikinti-abadlıq meydanına çevrilmişdir. Bəli, nə qədər ki, Azərbaycan dövləti yaşayır, Heydər Əliyevin siyasəti də yaşayacaqdır. Heydər Əliyev tərəfindən qurulmuş müstəqil Azərbaycan dövləti əbədi olduqca, onun siyasəti də əbədi olacaqdır.

Beləliklə, Azərbaycan gələcəyə doğru inamla, yeni zəfərlərlə addımlayır. Bu nailiyyətlərin əsasını isə Heydər Əliyev siyasəti təşkil edir. Bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız bu əsərin müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək .

Mən xoşbəxtəm ki, Heydər Əliyevin dövründə yaşayıb işləmiş, onun varisi İlham Əliyevin dövründə də ictimai-siyasi proseslərin içində olmuşam. Həm də doğma Qusarın son 40 ildəki inkişafı, tərəqqisi daim gözlərim önündə olub. Ümid edirəm ki, qusarlılar və bütün Azərbaycan əhalisi, ölkəmizin tərəqqisindən ötrü əzəmətli işlər görmüş, öz müdrik daxili və xarici siyasəti ilə Azərbaycanı dünyanın qabaqcıl dövlətləri sırasına çıxarmış cənab İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşəcəklər.

***Mayıl BAĞIROV,***
***Qusar rayonu, əmək veteranı***

> ***Qusarlılar, siz xoşbəxtsiniz ki, belə bir gözəl diyarda yaşayırsınız, gözəl iqliminiz var. Siz xoşbəxtsiniz ki, bu diyarı siz və sizin ulu babalarınız qurub yaradıb və gözəlləşdiriblər. Siz xoşbəxtsiniz ki, bu cür müstəqil Azərbaycanın vətəndaşlarınız və onun üçrəngli bayrağını daha da yüksəldirsiniz.***
>
> ***Heydər ƏLİYEV,***
> ***Ümummilli lider***

# Özbəkistanda ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbirlər keçirilib





**Daşkənddə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı mərasim keçirilib. Ulu öndərin adını daşıyan parkda onun abidəsi önündə təşkil olunmuş mərasimdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, ölkə Senatı sədrinin birinci müavini Sadık Səfayev, xarici işlər naziri Bəxtiyar Səidov, mədəniyyət və turizm naziri Azadbek Nazarbekov, Millətlərarası Münasibətlər və Dostluq Əlaqələri Komitəsinin sədri Rüstəm Kurbanov, Özbəkistanda fəaliyyət göstərən səfirlər, elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun üzvləri, ictimaiyyətin nümayəndələri, jurnalistlər iştirak ediblər.**

Rüstəm Kurbanov mərasimi giriş sözü ilə açaraq Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışıb. O deyib ki, Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin əsası ümummilli lider Heydər Əliyev və Özbəkistanın birinci Prezidenti İslam Kərimov tərəfindən qoyulub. Bu gün bu səmimi dostluq münasibətləri Azərbaycan və Özbəkistanın dövlət başçıları İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir.

Səfir Hüseyn Quliyev bildirib ki, XX əsrin son 3 onilliyində Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən balanslaşdırılmış və müdrik siyasət nəticəsində Azərbaycanın suverenliyi və müstəqilliyi tam təmin olunub.

Özbəkistan Yazıçılar İttifaqının sədri, Xalq şairi Siracəddin Səyyid Heydər Əliyevin hər zaman Özbəkistanla münasibətlərə xüsusi önəmlə yanaşdığını, bu böyük siyasətçinin ədəbiyyata, şeirə, sənətə yüksək qiymət verdiyini diqqətə çatdırıb.

Mirabad rayonunun Dəmiryolçular məhəllə komitəsinin sədri Mehriban Rəhimova deyib ki, Heydər Əliyev təkcə Azərbaycan xalqı deyil, bütün türk dünyası üçün nadir şəxsiyyət idi. Sırdərya vilayətində yaşayan azərbaycanlı şair Əli Nəsirli Heydər Əliyevin ədəbiyyata, mədəniyyətə diqqət və qayğısından danışıb.

Sonra tədbir iştirakçıları paytaxtdakı Müasir İncəsənət Mərkəzində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət sərgiyə baxıblar.

***Qulu KƏNGƏRLİ,***
**Daşkənd**



# "Heydər Əliyev" tankerinin və "Zərifə Əliyeva" gəmi-bərəsinin təsviri əks olunmuş poçt bloku hazırlanıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) təşəbbüsü ilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə onların adını daşıyan gəmilərin təsviri əks olunmuş iki poçt markasından ibarət blok dövriyyəyə buraxılıb.**

ASCO-dan AZƏRTAC-a bildirilib ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "Azərpoçt" MMC-nin hazırladığı orijinal poçt bloku Belarus respublikasının "Bobruisk İnterated Printing House" çap evində işıq üzü görüb.

Yüksək keyfiyyətlə çap olunmuş poçt blokunun ölçüsü 120x80, markaların ölçüləri 52x37 millimetrdir. Poçt blokunun bəzi elementləri şəffaf lakla örtülüb, bəziləri konqrev edilib.

Azərbaycanın poçt markaları kataloqunda qeydə alınmış poçt bloku 4 min nüsxədə çap olunub. 400 ədəd poçt bloku isə xüsusi hədiyyəlik bukletdə təqdim edilib.

Bu poçt blokunun dövriyyəyə buraxılması dənizçilərin həm Ulu Öndər Heydər Əliyevə, həm də görkəmli oftalmoloq Zərifə xanım Əliyevaya sonsuz ehtiramının bariz nümunəsi olmaqla yanaşı, dünyada filateliyaya marağın yenidən artdığı vaxtda əsl kolleksiyaçılar üçün də böyük töhfədir.

Qeyd edək ki, 165 illik yubileyini qeyd edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi milli filateliyamızın inkişafına daim qayğı ilə yanaşıb. Gəmiçilik 140, 145 və 150 illik yubileylərində də klyasserlərdə (markaların saxlanılması üçün şəffaf ciblikli albom) markalar toplusu, 160 illik yubileyində isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi – 160 il" adlı markalı kitab çap etdirmişdi.

# Dünya Azərbaycan dahisinə ehtiramını bildirir

**Planetin müxtəlif ölkələrində, şəhərlərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasimlər düzənlənir, maraqlı konsert proqramları təşkil edilir, sərgilər açılır, filmlərə baxış keçirilir. Dünyaca məşhur musiqiçilərin müşayiəti ilə təqdim olunan yubiley tədbirlərinin bəzilərinə Azərbaycanın tanınmış incəsənət xadimləri də öz ifaları ilə xüsusi ovqat bəxş edir, onlara milli kolorit qatırlar. Oxunan, göstərilən və nümayiş etdirilən bütün sənət nümunələrinin ünvanı isə birdir – xalqımızın dahi övladı Heydər Əliyev.**

## Moskva

**Mayın 15-də Rusiya Dövlət Dumasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev. Əbədi davam edən həyat" adlı sərginin açılışı olacaq.**

Rusiya paytaxtından verilən məlumata görə, sərginin açılışının planlaşdırıldığı mayın 14-15-də Rusiya Federasiyasında işgüzar səfərdə olacaq Milli Məclisin sədri Sahibə Qafarova da iştirak edəcək. S.Qafarova Rusiya Federasiya Şurasında Heydər Əliyevin xatirəsinə həsr olunmuş ayrıca tədbirə də qatılacaq.

## Riqa



**Azərbaycanın Latviyadakı səfirliyində xalqımızın Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş tədbir keçirilib.**

Səfirliyin məlumatına görə, tədbirdə Latviya Seyminin katibi Armands Krauze, Latviya Prezidentinin xarici məsələlər üzrə müşaviri Solveiqa Silkalna, Latviyanın keçmiş prezidentləri Andris Berzinş, Raymonds Veyonis və Valdis Zatlers, Xarici İşlər Nazirliyinin, diplomatik korpusun nümayəndələri, eləcə də bu ölkədəki Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Yubiley tədbirində çıxış edən Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov bildirib ki, Heydər Əliyevin bütün həyatı Azərbaycan xalqına, dövlətçiliyimizin qurulmasına və möhkəmlənməsinə, bütün sahələrin tərəqqisinə, müstəqil Azərbaycanın dünya birliyinə inteqrasiyasına həsr olunub. Səfir həmçinin ümummilli lider Heydər Əliyevin keçdiyi mənalı ömür yolundan, Azərbaycanın azadlıq mübarizəsindəki qətiyyətli fəaliyyətindən, dövlət müstəqilliyimizin gücləndirilməsi istiqamətində gördüyü işlərdən, müəyyənləşdirdiyi milli inkişaf strategiyası əsasında hazırda ölkəmizin dünya dövlətləri arasında özünə layiqli yer tutmasından danışıb.

Latviya Seyminin katibi, Seymdə Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun sədri Armands Krauze, keçmiş prezident, "Heydər Əliyev" ordenli Valdis Zatlers çıxışlarında 100 il əvvəl dünyaya göz açmış bir şəxs zamanla öz xalqının əvəzolunmaz liderinə və müasir Azərbaycanın qurucusuna çevrildiyini xüsusi olaraq önə çəkiblər. Türkiyənin Latviyadakı səfiri Şule Öztunç Heydər Əliyevi böyük dövlət xadimi, Azərbaycan xalqının lideri və öz əsrinin ən parlaq şəxsiyyətlərindən biri kimi qiymətləndirib, dahi şəxsiyyətin ölkə tarixindəki xüsusi yerindən bəhs edib. Daha sonra musiqi proqramı təqdim edilib. Konsertdə Latviya Milli Simfonik Orkestrinin musiqiçilərindən ibarət simli kvartetin ifasında Üzeyir Hacıbəyli, Qara Qarayev, Aqşin Əlizadə, Emils Darzinş və Motsartın əsərləri ifa edilib.

## Praqa




**Praqa şəhərinin mərkəzində yerləşən "Lutserna" sarayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli konsert təşkil edilib.**

"Çex–Azərbaycan Birliyi" təşkilatının layihəsi əsasında, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən tədbirdə Praqa Film Orkestri də yaxından iştirak edib. 400 nəfərlik konsert zalına Çexiya ictimaiyyəti, Azərbaycan icmasının üzvləri, eləcə də bizə dost icma və təşkilatların nümayəndələri toplanıb.

Birliyin sədri Eldar Vəliyev bildirib ki, bu il, eyni zamanda, Çexiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyi qeyd olunur. Bu əlaqələrin yaranmasında isə Heydər Əliyev böyük rol oynayıb. Burada bu gün belə bir tədbirin keçirilməsi hər mənada ibrətamiz haldır. Yəni, yaxşı işlər unudulmur və indi iki yubileyi, eyni zamanda, qeyd edə bilirik.

Sonra çıxış edən Praqa Film Orkestrin təmsilçisi Mixaela Ştrausova xalqımızın layiqli övladı Heydər Əliyevin müstəqil dövlətimizin güclənməsi və inkişafı naminə göstərdiyi misilsiz xidmətlərini auditoriyanın diqqətinə çatdırıb.

Çıxışçıların ardınca Praqa Film Orkestri və Slovakiyadan dəvət olunmuş məşhur violençel ifaçısı Jan Pospişilin çex və dünya bəstəkarlarının əsərlərini səsləndiriblər.

## Qahirə



**Azərbaycanın Misirdəki səfirliyinin təşkilatçılığı ilə bu ölkədə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər keçirilib.**

Yubiley tədbirləri Misirin Qalyubiyyə vilayətinin Qanatır əl-Xeyriyyə şəhərində yerləşən Misir-Azərbaycan Dostluq parkında başlayıb. Ulu öndərin heykəli önündə düzənlənən toplantıda Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov, Qalyubiyyə vilayətinin qubernatoru Əbdülhəmid əl-Həccan, Misir parlamentinin Nümayəndələr Palatasında Azərbaycanla dostluq qrupunun rəhbəri, parlamentin Dini məsələlər komitəsinin sədri Əli Cuma, Misir Xarici işlər nazirinin müavini Səlahəddin Əbdül Sadiq, Misir Senatında Azərbaycan parlamenti ilə dostluq qrupunun sədri Həni Sarı Əl-Din, həmçinin Türkiyə, Qazaxıstan, Tacikistan, Ukraynanın Misirdəki səfirləri, "Vətənpərvər" - Misirdəki Azərbaycan Diaspor Təşkilatları Birliyinin üzvləri, azərbaycanlı iş adamları, tələbələr, media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan səfir Elxan Poluxov Ulu Öndər Heydər Əliyevin Misirlə əlaqələrin qurulmasında müstəsna xidmətlərini diqqətə çatdırıb, dostluq münasibətlərinin bu gün də uğurla davam etdiyini bildirib. O, ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin Misir və digər ərəb ölkələri ilə əlaqələrin inkişafına böyük diqqət yetirdiyini bildirib. E.Poluxov bu ilin yanvarında Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin ölkəmizə səfərini münasibətlərin möhkəmlənməsində mühüm addım adlandırıb.

Misir parlamentinin Nümayəndələr Palatasında Azərbaycanla dostluq qrupunun rəhbəri Əli Cuma Misir-Azərbaycan əlaqələrinin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib. O qeyd edib ki, Azərbaycanın müstəqilliyi dövründə 700-ə yaxın azərbaycanlı tələbə Misirdə böyük uğurlar qazanıb, onların əksəriyyəti yüksək ixtisaslı mütəxəssis və alim olub.

Onu da qeyd edək ki, Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Misirin nüfuzlu mətbuat orqanlarında geniş məqalələr dərc olunub.

## Stokholm



**Heydər Əliyevin 100 illik yubileyi münasibətilə İsveçin paytaxtında ulu öndərin həyat yoluna həsr edilmiş filmin nümayişi olub.**

Azərbaycanın İsveç Krallığındakı səfirliyi tərəfindən təşkil edilən tədbir Stokholmun mərkəzindəki Sergel kinoteatrında keçirilib. Tədbirdə Azərbaycanın İsveç Krallığındakı səfiri Zaur Əhmədov xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün dünyanın bir çox ölkələrində həmvətənlərimiz tərəfindən dərin hörmət və ehtiramla qeyd edildiyini bildirib.

"Bu böyük şəxsiyyət öz həyatını doğma xalqına həsr edərək Azərbaycanı daim inamla irəliyə aparmaqla onun tərəqqisinə nail olub. Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik illərində xalqımız üçün həlledici anlarda liderlik keyfiyyətləri və siyasi iradə nümayiş etdirərək ölkəmizi böyük bəlalardan qurtarıb", - deyən səfir "Heydər İli" çərçivəsində Skandinaviya ölkələrində silsilə tədbirlərin keçirilməsinin planlaşdırıldığını və bu tədbirin onlardan biri olduğunu nəzərə çatdırıb. O, həm də İsveçin məşhur fotoqrafı və rejissoru Mikael Silkebergin yeni film üzərində işlədiyini bildirib. Səfirin sözlərinə görə, yeni sənədli film ulu öndər Heydər Əliyevin məşhur norveçli etnoqraf Tur Heyerdalla görüşlərindən və Skandinaviya ilə Azərbaycan arasında tarixi əlaqələrdən bəhs edəcək.

***"Xalq qəzeti"***

# Xarici media ulu öndərin 100 illik yubileyindən yazır

### *"BELTA" agentliyi bu barədə xüsusi məqalə verib*


prensa.ec

Ahora | a mamá con iniciativas, mucho amor

ECUADOR PORTADAS | MUNDO PORTADAS | ACTUALIDAD Actualidad | ECONOMÍA Y FINANZAS Economía y Finanzas | COMUNIDAD | ACADEMIA | CIENCIA Y T Ciencia y

Heydar Aliyev: personalidad destacada – sabio estadi

ON: MAY 8, 2023



La elección de Heydar Aliyev como líder de Azerbaiyán en 1969 cambió el ritmo de vida, hubo un punto de inflexión en el país y comenzó una nueva era. En la década de 1970, se construyeron empresas raras para ese momento en Bakú: acondicionadores de aire domésticos, plantas de cimientos en aguas profundas, central térmica de Mingachevir, central hidroeléctrica de Yenikend, centrales hidroeléctricas de Sarsang.

**Belarusun "BELTA" dövlət informasiya agentliyi ümummilli lider Heydər Əliyevin və görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyləri ilə əlaqədar məqalə yayıb.**

Məqalədə Heydər Əliyevin və Zərifə Əliyevanın keçdiyi həyat yolu barədə ətraflı məlumat verilib, ulu öndərin nadir şəxsiyyət, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin qurucusu olduğu qeyd edilib. Belarus ilə Azərbaycan arasında münasibətlərin yaranmasında Heydər Əliyevin müstəsna xidmətləri vurğulanana məqalədə, həmçinin akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar müxtəlif tədbirlərin keçirildiyi bildirilib, onun oftalmologiya sahəsində xidmətlərinə geniş yer ayrılıb.

## "O, hüquqi, sivil dövlət modeli yaratdı"


БЕЛТА +

Столетние юбилеи со дня рождения Гейдара и Зарифы Алиевых отмечают в Азербайджане

**Ekvadorun "El Vanguardista" və "PrensaEc" portallarında dərc olunan "Heydər Əliyev: Görkəmli şəxsiyyət - müdrik dövlət xadimi" sərlövhəli məqalədə 1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkədə həyatın ritminin dəyişdiyi və yeni bir dövrün başlandığı qeyd olunur.**

O vaxt keçmiş SSRİ-nin müxtəlif dövlət universitetlərinə ali təhsil almaq üçün göndərilən gənclərin bu gün respublikanın ixtisaslı kadrlarının əsasını təşkil etdiyi vurğulanan yazıda milli hərbi kadrların hazırlanmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılışının xüsusi əhəmiyyəti önə çəkilir.

Məqalədə bildirilir ki, dövlət idarəçiliyində zəngin təcrübəyə malik böyük strateq Heydər Əliyev ölkəsinin milli Konstitusiyasını, Azərbaycan dövlətinin sivil, hüquqi modelini yaradıb.

"Müdrik siyasətçi və dövlət xadimi olan Heydər Əliyev yaxşı bilirdi ki, yaşanan dərin sosial-iqtisadi böhrandan yeganə çıxış yolu neftdir. Buna görə də gərgin səylər bahasına "Amoko", "BP", "LUKoil", "Statoil" və digər nəhəng şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycanın inkişafının, gələcək uğurlarının əsası qoyuldu", - deyə yazıda vurğulanıb.

Yubiley məqaləsində qeyd olunub ki, sonradan "üç dəniz əfsanəsi" adlandırılan Bakı-Tbilisi-Ceyhan neft, ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin ərsəyə gəlməsi, dövlətimizin başçısının 1996-cı və 1999-cu illərdə sahibkarlığın inkişafı ilə bağlı imzaladığı sərəncamlar ölkə iqtisadiyyatının tərəqqisində mühüm rol oynayıb.

## "Məhəbbət, işıq, fərəhli dostluq"


МУҲАББАТ ЯНГЛИҒ ФАРАҲЛИ ДЎСТЛИК

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə ölkənin nüfuzlu mətbu nəşrlərindən sayılan "Ədəbiyyat qəzeti" Heydər Əliyevin 100 illik yubileyi münasibətilə bir nömrəsini tamamilə Azərbaycana həsr edib. Qəzetin xüsusi buraxılışı "Azərbaycan və Özbəkistan xalqlarının dostluğu əbədidir!" manşeti ilə çıxıb.

Nəfis tərtibatda hazırlanmış xüsusi buraxılışın 2-3-cü səhifələrində "Məhəbbət, işıq, fərəhli dostluq" sərlövhəli məqalədə Özbəkistan-Azərbaycan ədəbi, mədəni, siyasi əlaqələrindən söz açılıb. Geniş məqalədə Azərbaycan-Özbəkistan dostluğunun Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığından başlayaraq Heydər Əliyevlə Şərəf Rəşidov arasında davam etdirilərək günümüzdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikası Prezidenti Şavkat Mirziyoyev arasında daha da möhkəmləndiyi bildirilir. 6-cı səhifədə "Şərəf Rəşidovun dostu, Azərbaycan xalqının ulu öndəri" adlı məqalədə ümummilli lider Heydər Əliyevə və Azərbaycana həsr edilmiş ədəbi əsərlərdən söz açılıb. "Heydər Əliyevin ucaltdığı şair" sərlövhəli məqalə isə Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürkdən bəhs edir. Məqalədə Heydər Əliyevin bu böyük şairin həyatında oynadığı önəmli roldan danışılır. Qeyd olunur ki, Heydər Əliyev vətənpərvərlik, millətçilik, türkçülük ideyalarının carçısı olan şairi müdhiş sovet repressiyasından qoruyaraq müstəqil Azərbaycanın istiqlal şairinə çevirib.

***"Xalq qəzeti"***

# “Missiyamız Azərbaycan–Türkiyə münasibətlərinə böyük töhfələr verməkdir”



## “SOCAR – Türkiyə” şirkətinin nailiyyətləri bu missiyanın uğurla həyata keçirildiyindən xəbər verir

**“SOCAR–Türkiyə” şirkətinin baş direktoru vəzifəsini icra edən Elçin İbadovla, “SOCAR-Türkiyə”nin emal və neft-kimya bölməsinin rəhbəri, “Petkim Petrokimya Holding”in baş direktoru Anar Məmmədov Türkiyənin İzmir şəhərinə ezam edilmiş bir qrup Azərbaycan jurnalistləri üçün mayın 12-də geniş mətbuat konfransı keçirmişlər. “SOCAR-Türkiyə”nin İzmir şəhərinin Əliağa bölgəsindəki ofisində keçirilən tədbirdə iştirak edən “Xalq qəzeti”nin müxbiri bildirir ki, şirkət rəsmilərinin mətbuat konfransı bir neçə maraqlı açıqlamalarla yadda qalmışdır.**

Qardaş ölkədə fəaliyyət göstərən şirkətin baş direktoru vəzifələrini icra edən Elçin İbadov qeyd etdi ki, SOCAR-ın Türkiyədə investisiya yatırımlarının həcmi 18 milyard dollar səviyyəsindədir və bu vəsaitin 10 milyard





dolları İzmirin Əliağa bölgəsinin payına düşür. Yeri gəlmişkən, bu qardaş ölkənin tarixində Türkiyə iqtisadiyyatına yatırılan ən böyük xarici investisiyadır.

Baş direktor əvəzi Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) fəaliyyətinə də toxundu və xüsusi vurğuladı ki, TANAP fəaliyyətə başladığı 2018-ci il iyunun 30-dan bugünədək Azərbaycandan ümumilikdə 45 milyard kubmetrə yaxın təbii qaz tədarük edilib. Bunun 23,3 milyard kubmetri Avropaya, 21,5 milyard kubmetri isə Türkiyəyə nəql edilib. Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü isə 2020-ci il dekabrın 31-dən başlayıb.

E.İbadov bildirdi ki, Türkiyəyə əsasən, Azərbaycanın “Şahdəniz” yatağından hasil edilən təbii qaz nəql olunur. Xatırladaq ki, hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir.

“SOCAR–Türkiyə” rəsmisi, həmçinin qeyd etdi ki, Türkiyə tərəfindən qaz təsərrüfatının inkişaf etdirilməsi istiqamətində məqsədyönlü işlər Trans-Anadolu kəməri (TANAP) üçün genişləndirmə imkanları yaradacaq. Belə ki, Türkiyədə qaz resurslarının axtarışı, mayeləşdirilmiş təbii qaz stansiyalarının tikintisi və qaz xətlərinin qurulması istiqamətində məqsədyönlü iş artıq 7 ildir davam etdirilir. Biz Türkiyənin bu istiqamətdəki potensialına inanırıq. Bu bizə imkan verəcək ki, TANAP-dan daha səmərəli istifadə edək.

Elçin İbadov onu da vurğuladı ki, hazırda TANAP xəttinin genişləndirilməsi ilə bağlı müvafiq işlər aparılır.

Mətbuat konfransında “SOCAR–Türkiyə” emal və neft-kimya bölməsinin rəhbəri və “Petkim Petrokimya Holding”in baş direktoru Anar Məmmədovun açıqlaması da Azərbaycan jurnalistlərinin böyük marağına səbəb oldu. O ilik olaraq bəyan etdi ki, bu il SOCAR-ın Türkiyədəki STAR Neft Emalı Zavodunda 12 milyon ton neft emalı planlaşdırılır.

Anar Məmmədov bildirdi ki, zavodun emal gücünün 10 milyon ton olmasına baxmayaraq, ötən il müəssisə 11,3 milyon ton neft emal edib. Bu isə zavodda həyata keçirilən əlavə tədbirlər nəticəsində mümkün olub.

Anar Məmmədovun diqqətçəkən açıqlamalarından biri də 19 oktyabr 2018-ci ildə fəaliyyətə başlayan SOCAR-ın Türkiyədəki STAR Neft Emalı Zavodunun gələn il fəaliyyətinin müvəqqəti dayandırılacağı ilə bağlı oldu. O qeyd etdi ki, 2019-cu ilin sentyabr ayından etibarən tam gücü ilə işləməyə başlayan zavodun planlaşdırılmış dayandırılması bir neçə məqsəd daşıyır. “Əvvəla, neft emalı zavodu istifadəyə veriləndən sonra birinci dəfə dayandırılacaq və bu da ilk növbədə planlaşdırılmış profilaktik işlərin aparılması məqsədi daşıyır. Digər məqsəd zavoddakı planlı təmir işlərinin aparılması qrafikində tezliliyin uzadılmasını təmin etməkdir. Zavodda aparılacaq əlavə tədbirlər nəticəsində zavodun dayandırılma tezliyi dörd ildən beş ilədək uzadılacaq”.

“SOCAR-Türkiyə”nin emal və neft-kimya bölməsinin rəhbəri, “Petkim Petrokimya Holding”in baş direktoru onu da əlavə etdi ki, əlbəttə, müəssisənin təqribən iki aylıq – 45-60 günlük planlı profilaktik işlərinin aparılması üçün dayandırılması şirkət üçün itkilər deməkdir. Zavodun planlı təmirlərə dayandırılması tezliyinin uzadılması isə maliyyə baxımından müsbət nəticələrə hesablanıb. Belə ki, bu, 40 milyon ABŞ dolları civarında qənaət deməkdir”.

Baş direktor onu da əlavə etdi ki, “Star” zavodunun 2022-ci ildə illik xam neft emal gücü 10 milyon tondan 11 milyon tona çatdırılıb. Müəssisədə “Urals”, “AzeriLight” və “Kərkük” neft növlərini emal etmək mümkündür. Əsas məhsullarımız dizel yanacağı, təyyarə yanacağı, nafta təşkil edir. Məlumat verildi ki, “SOCAR–Türkiyə” qardaş ölkənin neft məhsullarına olan ehtiyacının 25 faizini təmin edir.

Anar Məmmədov, həmçinin bildirdi ki, Azərbaycana məxsus şirkət Türkiyənin neft-kimya məhsulları üzrə bazarının 12 faizini əhatə edir. SOCAR-ın Türkiyədə investisiya yatırımlarının həcmi 18 milyard dollar səviyyəsindədir və bu vəsaitin 10 milyard dolları İzmirin Əliağa bölgəsinin payına düşür. Baş direktorun açıqlamalarına görə, istehsalın həcmi artsa da, neft-kimya kompleksinin və SOCAR-ın neft emalı zavodunun payı azalır: “Bu, Türkiyə sənayesinin sürətlə inkişaf etməsi ilə bağlıdır”.

Mətbuat konfransında jurnalistlərin suallarına cavab verərkən SOCAR-ın Türkiyədəki törəməsi olan “SOCAR–Türkiyə” şirkətinin alternativ enerji mənbələri hesabına elektrik enerjisi istehsalını artırmaq niyyətində olduğu da açıqlandı. “SOCAR Türkiyə” şirkətinin baş direktoru vəzifəsini icra edən Elçin İbadov bildirdi ki, hazırda “SOCAR–Türkiyə”nin ümumi gücü 51 meqavatt olan 17 külək elektrik enerji turbini mövcuddur: “Gələcəkdə biz bu külək enerjisi turbinlərinin sayını və külək enerjisi istehsalının gücünü artırmaq niyyətindəyik. Artıq bununla bağlı müvafiq qurumlara rəsmi olaraq müraciət etmişik”.

E.İbadov bununla bərabər, şirkətin günəş enejisindən istifadəyə də xüsusi diqqət ayıracağını bildirdi: “Artıq “SOCAR–Türkiyə”nin köməkçi qurum və müəssisələrində günəş enerjisi panelləri quraşdırılır. Bu panellər müəyyən qədər enerjiyə olan tələbatı ödəyir. Ancaq bu həcmlər hələlik o qədər də böyük deyil”.

“SOCAR–Türkiyə” emal və neft-kimya bölməsinin rəhbəri və “Petkim Petrokimya Holding”in baş direktoru Anar Məmmədov jurnalsitlərin suallarını cavablandırarkən şirkətin BP ilə birgə həyata keçirməli olduğu yeni neft-kimya layihəsi olan “Mercury” barədə də açıqlama verdi. Bildirdi ki, hazırda “Mercury” layihəsi tamamilə dayandırılıb, lakin bazar şərtlərindən asılı olaraq, başqa bir şirkətlə davam etdirilə bilər. Layihənin dayandırılması səbəbinə gəldikdə isə bunun iki səbəbi var: “İlk səbəbi BP şirkətinin ümumilikdə bütün dünyada neft-kimya istehsalına yatırımların dayandırması ilə bağlı qərar verməsi olub. İkinci səbəbi isə neft-kimya istehsalı sahəsində bazar şərtlərinin dəyişməsidir. 5 il əvvəl olan bazar şərtləri artıq bugünün tələbləri ilə uyğun gəlmir. Amma bu, o demək deyil ki, bu layihə bizim gündəmdən çıxıb. Bu layihə yenə də bizim üçün gündəmdir. Bazar şərtləri uyğun olarsa, biz bu layihəni başqa bir şirkətlə davam etdirəcəyik”.

Mətbuat konfransının sonunda SOCAR rəsmisi Elçin İbadov bəyan etdi ki, bu gün neft-kimya SOCAR-ın əsas strategiyasında önəmli yer tutur: “Neft-kimyanı və neft-kimya məhsullarını əvəz edəcək məhsul hələ ki yoxdur. Bu səbəbdən də bu layihə hər zaman bizim üçün gündəmdə olacaq. Məqsədimiz Azərbaycanla Türkiyə arasındakı münasibətlərə “SOCAR Türkiyə”nin böyük töhfələr verməsidir. Güman edirəm, hələ ki, bu missiyanı uğurla yerinə yetiririk”, – deyə, Elçin İbadov tədbirə yekun vurdu.

***İlqar RÜSTƏMOV, “Xalq qəzeti”***

**Türkiyə, İzmir şəhəri**

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa Dəstək Layihəsi”nə bu il daha 1591 işsiz şəxs cəlb edilib. Beləliklə, layihəyə cəlb olunanların sayı 8114-ə çatıb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda bildirilib.**

# “Məşğulluğa Dəstək Layihəsi”nə cəlb olunanların sayı artır




Qeyd olunub ki, ümumilikdə, 22 min şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi məqsədi daşıyan layihənin iştirakçıları üçün əvvəlcə təlimlər təşkil olunur. Təlimlərin sonunda keçirilən qiymətləndirmədə biznes planlarını müdafiə edən şəxslər istehsal və xidmət sahələri üzrə təsərrüfatlarını yaratmaları üçün avadanlıqla təmin olunurlar.

Layihənin məqsədi işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və s.) özünüməşğulluq üzrə kiçik bizneslərinin yaradılmasıdır.

Məlumatda, həmçinin deyilir ki, “Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində bölgələrdə ictimai dinləmələrin təşkil edilməsi prosesi davam edir. Növbəti ictimai dinləmə Oğuz rayonunda keçiriləcək. Oğuz şəhərindəki Emin Abdullayev adına 2 saylı tam orta məktəbdə təşkil olunacaq tədbirdə iştirakçılara layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər barədə məlumat veriləcək.

Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin yanvar-aprel aylarında 106 min 330 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 18 min 334 nəfəri “Əmək və Məşğulluq” altsistemindəki vakansiya bankına yerləşdirilən boş yerlər üzrə işlə təmin edilib.

Həmin dövrdə 1624 nəfər özünüməşğulluq proqramına cəlb olunub. Təlim kurslarında iştirak etdikdən sonra onların kiçik bizneslərini yaratmaları üçün aktivlərlə təminatı həyata keçirilir.

Yanvar-aprel aylarında 3 min 295 işsiz şəxs üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində peşə hazırlığı kursları təşkil edilib, 83 min 77 şəxsə isə peşəyönümü xidmətləri göstərilib.

***Zərifə HÜSEYNOVA, “Xalq qəzeti”***

# ÜST ilkin səhiyyə xidmətlərinin gücləndirilməsinə yardım edir

**Şamaxı rayonunda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkə ofisi tərəfindən ilkin səhiyyə xidmətləri ilə bağlı görülmüş işlərlə tanışlıq və bu sahədə təşkilatın ölkənin səhiyyə qurumları ilə gələcək əməkdaşlığına dair müzakirələrin aparılması məqsədilə Şamaxı rayonuna səfər təşkil edilib. Səfərdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov və ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı iştirak ediblər.**

Səfər zamanı ÜST-nin Şamaxı Təlim Mərkəzi, Şamaxı Ailə Sağlamlıq Mərkəzi (ASM) və Quşçu kəndində yerləşən ASM-də görüşlər keçirilib. Həmçinin ÜST-nin layihəsi çərçivəsində rayona gətirilmiş mobil klinikaların fəaliyyəti ilə tanışlıq olub. Görüşlərdə ÜST-nin ekspertləri və yerli səhiyyə işçiləri rayondakı ilkin səhiyyə xidməti sahəsindəki təcrübələrini paylaşıb və bu sahənin gələcək inkişafına dair fikir mübadiləsi aparıblar.

Səfərin yekununda Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədovun iştirakı ilə ölkənin səhiyyə qurumları və ÜST arasında Şamaxı və digər bölgələrdə ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi sahəsində gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.



Qeyd edək ki, ÜST Şamaxı rayonunda “İlkin Səhiyyə Xidmətləri üzrə Nümayiş” layihəsi, həmçinin Azərbaycan Tibb Universitetinin 6-cı kurs tələbələrinin iştirakı ilə Şamaxı Təqaüd Proqramı və digər tədbirlər həyata keçirib. Bu layihənin, eləcə də tədbirlərin məqsədi Şamaxıda əlçatan, keyfiyyətli və hərtərəfli ilkin səhiyyə xidməti modeli işləyib hazırlamaq, tibb işçilərinin bilik-bacarıqlarını artırmaq, həmçinin ilkin səhiyyə xidmətləri üzrə kadr potensialını gücləndirməkdir.



ÜST-nin ölkə ofisi son illər Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsi və universal tibbi təminata nail olunması məqsədi ilə həyata keçirilən islahatları dəstəkləmək üçün yerli səhiyyə tərəfdaşları ilə sıx əməkdaşlıq edir. Bu baxımdan ilkin səhiyyə xidmətlərinin gücləndirilməsinə dəstək ÜST-nin Azərbaycandakı ən önəmli prioritetlərindən biridir.

***Z.BƏŞİRQIZI, “Xalq qəzeti”***

# Ədliyyə naziri Tərtərdə vətəndaşlarla görüşüb



**Dünən ədliyyə naziri Fikrət Məmmədov Tərtər rayonunda vətəndaşları qəbul edib.**

Qəbulda Tərtər, Ağdam, Bərdə və digər rayonlardan olan vətəndaşlar dinlənilərək qaldırılan məsələlərlə bağlı aidiyyəti tapşırıqlar verilib.

Bölgə sakinləri onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

Səfər çərçivəsində, həmçinin yerli ədliyyə orqanlarının və məhkəmələrin iş şəraiti ilə tanış olunub, işin səmərəliliyinin artırılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

Rayonda fəaliyyət göstərən ədliyyə işçilərinin və hakimlərin iştirakı ilə tədbir keçirilib. Nazir F.Məmmədov "Heydər Əliyev İli"ndə 100 illiyini qeyd etdiyimiz ümummilli liderin mənalı ömür yolundan danışıb, onun demokratik hüquqi dövlət quruculuğunda, müasir məhkəmə-hüquq sisteminin bərqərar edilməsində müstəsna rolunu qeyd edib.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

# Bakıda mina təhlükəsinə həsr edilmiş "Canlanan torpaq" kitabının təqdimatı olub



**Bakıda "Sülhün Kökləri" (Roots of Peace) beynəlxalq humanitar təşkilatının təsisçisi və rəhbəri Heidi Kühnün mina təhlükəsinə həsr etdiyi və Azərbaycan dilinə tərcümə olunan "Canlanan torpaq" (Breaking ground) kitabının təqdimat mərasimi keçirilib.**

Bakı Ali Neft Məktəbinin (BANM) inzibati binasında baş tutan tədbirdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, "Sülhün Kökləri" (Roots of Peace) beynəlxalq humanitar təşkilatının təsisçisi və rəhbəri Heidi Kühn, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, eləcə də ANAMA yanında İctimai Şura üzvləri və BANM-in tələbələri iştirak ediblər.

"Canlanan torpaq" kitabı mina və müharibənin təsirinə məruz qalmış ölkələrdə törədilən mina terroru, mina və partlayıcı sursatların yaşatdığı dəhşəti təcəssüm etdirir.

Kitabda, həmçinin "Sülhün Kökləri" təşkilatının təsis edilməsindən sonrakı illərdə onun kənd təsərrüfatı layihələri ilə minalara qarşı mübarizədə, dağıdılmış torpaqların canlandırılmasında və bu prosesdə saysız-hesabsız insanların həyatına müsbət təsir etməklə nail olduğu uğurlar öz əksini tapıb.

Kitabın müəllifi Heidi Kühn müharibədən zərər çəkmiş, ailələrini və övladlarını itirmiş analarla həmrəylik nümayiş etdiyini söyləyib. "Biz insan olaraq dağıdıcı və yaradıcı qüvvəyə sahib ola bilərik. Hazırda dünyanın 60 ölkəsində 60 milyona qədər mina basdırılıb. Gəlin bu minalardan təmizlənmə fəaliyyətinə dəstək olaq və "sülhün kökləri" olaraq bu təşəbbüsə hamımız birlikdə qoşulaq", - deyə H.Kühn bildirib.

Kitabın Azərbaycan dilindəki nəşrinin "Ön söz" müəllifi, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, tərcüməçisi Aysəba Umudlu və Qabil Aşırovdur. "Canlanan torpaq" kitabın ilk təqdimatı keçən ilin sentyabrda baş tutub.

Tədbirdən sonra qonaqlar Bakı Ali Neft Məktəbinin həyətində zeytun ağacı əkiblər.

Qeyd edək ki, Azərbaycanda səfərdə olan "Sülhün Kökləri" təşkilatının rəhbəri Heidi Kühn "Ümumdünya ərzaq mükafatı"na layiq görülüb.

**AZƏRTAC**

# Şuşada "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ilinin rəsmi açılış mərasimi keçirilib





**Mayın 12-də Şuşa şəhərində Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023" ilinin rəsmi açılış mərasimi keçirilib.**

"Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2022-ci il tarixli sərəncamına uyğun olaraq təşkil edilən tədbirdə dövlət rəsmiləri, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-a üzv ölkələrin nümayəndə heyətləri, Türk Əməkdaşlıq Təşkilatlarının rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək bu il Azərbaycan və Türk dünyası üçün mühüm tarixi hadisələrlə zəngin olduğunu bildirib. Nazir söyləyib ki, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri bu il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib. Bu gün Şuşa və bütün Qarabağ öz intibah dövrünü yaşayır. Qələbədən qısa müddət keçməsinə baxmayaraq şəhərlərimizin, kəndlərimizin, tarix-mədəniyyət abidələrimizin məhv edilən meşə massivlərinin və bütövlükdə yaşayış infrastrukturunun qısa müddətdə kompleks bərpası və yenidən qurulması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi ilə intensiv işlər aparılır. Şuşa şəhərinin tarixi-mədəni siması bərpa edilir, Şuşaya yenidən mədəni həyat qayıdır.

Adil Kərimli qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən Şuşada müxtəlif yerli və beynəlxalq mədəni tədbirlər keçirilir, mədəni irsimizin bərpası istiqamətində geniş işlər həyata keçirilir. Onun sözlərinə görə, oktyabr ayında planlaşdırılan Nazirlərin Daimi Şurası çərçivəsində Şuşada Birinci Türk Dünyası Mədəniyyət Forumunun keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov deyib ki, Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması Türk dünyası tərəfindən bu şəhərə olan böyük ehtiramın ifadəsidir: "Şuşa azərbaycanlılar üçün olduğu kimi, Türk dünyası üçün də böyük əhəmiyyət daşıyır".

TÜRKSOY-un Baş katibi Sultan Raev vurğulayıb ki, bu torpaqlar bizim üçün sənətin, musiqinin beşiyidir. Şuşa Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyli və neçə-neçə söz, sənət xiridarının vətənidir: Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunduğuna görə Zəfərin, rifahın və şənliyin çox yaraşdığı bu şəhərdə bir-birindən zəngin, yaddaqalan və rezonans doğuracaq proqramlarımız olacaq.

Sultan Raev TÜRKSOY-un "Qorqud Ata" Türk dünyası III film festivalının da açılışının Şuşada olacağını bildirib. O, "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" ilinin bağlanış mərasiminin isə noyabr ayına planlandığını deyib: "Bağlanış tədbirində 2024-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" estafeti Türkmənistanın Anev şəhərinə veriləcək".

Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması münasibətilə bütün iştirakçıları təbrik edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev bildirib ki, son illər həyata keçirilən müstəqil, ardıcıl və qətiyyətli siyasət nəticəsində Azərbaycan Respublikası dünya ölkələri arasında nüfuzunu daha da möhkəmlədib və regionun aparıcı dövlətlərindən birinə çevrilib.

Şuşanın Azərbaycanın tacı olduğunu söyləyən Xalq artisti Polad Bülbüloğlu qala-şəhəri həm də Azərbaycanın nəğmə deyən ürəyi adlandırıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar deyib ki, bu gün çox şadıq ki, azad olunmuş Şuşada qardaş türk xalqlarının nümayəndələri iştirak edirlər. Türk xalqlarının yaxınlaşmasında, mədəni birliyində ən böyük rol oynayan təşkilatlardan biri – TÜRKSOY-dur. Azərbaycan Yazıçılar Birliyi görkəmli şairimiz Bəxtiyar Vahabzadə adına diplom təsis edib. Bu diplom türk xalqları arasında qardaşlılığı, əlaqələri genişləndirən şəxslərə verilir. Bu il birliyin qərarı ilə bu mükafat TÜRKSOY-un Baş katibi Sultan Raevə veriləcək.

Xalq yazıçısı Anar mükafatı Sultan Raevə təqdim edib.

Sonra qonaqlar Türk dünyası ölkələrindən gəlmiş musiqi və folklor kollektivlərinin təqdim etdiyi konsert proqramını izləyiblər.

Qeyd edək ki, 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində TÜRKSOY üzvü ölkələrinin Mədəniyyət Nazirləri Daimi Şurasının qərarı ilə qədim muğam-sənət beşiyimiz Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdu.

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti (1969-2003-cü illər)" mövzusunda konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə ulu öndərin Heydər Əliyev Meydanında və Heydər Əliyev Mərkəzi qarşısında ucaldılmış abidələri önünə gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər.**

# Mingəçevirdə yubiley konfransı



Tədbirin əvvəlində Heydər Əliyev Mərkəzinin foyesində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib. Konfrans işinə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Mingəçevir Şəhər İcra Hakimiyyətinin, YAP Mingəçevir şəhər təşkilatının rəhbərliyi, səhiyyə, təhsil müəssisələrinin, idarə və təşkilat rəhbərləri, şəhid ailələri, müharibə əlilləri, QHT rəhbərləri, şəhər gənclərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konfransda RİH başçısı İlham İsmayılov "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti (1969-2003-cü illər)" mövzusunda məruzə ilə çıxış etmişdir. Tədbirin sonunda ulu öndərə həsr olunmuş "Əsrin adamı" filmi nümayiş etdirilmişdir.

Daha sonra konfrans iştirakçıları Mingəçevir Dövlət Dram Teatrında "Dahilik divanı" adlı tamaşaya baxdılar. Axşam Heydər Əliyev meydanında incəsənət ustalarının iştirakı ilə böyük bayram şənliyi və atəşfəşanlıq keçirildi.

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin*
*bölgə müxbiri*

# Elm Fondunda ümummilli lider yad edildi

**Azərbaycan Elm Fondunda müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.**

Əvvəlcə fondun kollektivi Fəxri xiyabanda ulu öndərin xatirəsini anıb, məzarı önünə gül dəstələri düzüblər.

Tədbirdə ümummilli lider Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu və yorulmaz fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Anım tədbirini giriş sözü ilə açan Azərbaycan Elm Fondunun icraçı direktoru Mehriban İmanova bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatı boyu daim dövlətini, xalqını düşünmüş, ölkəmizin çiçəklənməsi və dünyanın aparıcı dövlətlərindən birinə çevrilməsi istiqamətində tarixi addımlar atmışdır.

M.İmanova Azərbaycan elminin bugünkü inkişaf səviyyəsinə yüksəlməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərindən danışıb. İcraçı direktor qeyd edib ki, görkəmli dövlət xadimi ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə elmin inkişaf etdirilməsi ilə bağlı məsələlərə xüsusi diqqət yetirmiş, elm-təhsil problemlərinə kompleks yanaşmış, elmin sürətli inkişafı üçün mühüm qərarlar vermişdir. Ümummilli liderin əsasını qoyduğu ideya və strategiyalar, layihələr, dövlət proqramları Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və çağırışlarından irəli gələrək zənginləşdirilib və həyata keçirilib.

AZƏRBAYCAN ELM FONDU

Mehriban İmanova Azərbaycan Elm Fondunun 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Əsas Qrant Müsabiqəsini elan etdiyini xatırladıb. Əlavə edib ki, bu müsabiqə ölkəmizdə qabaqcıl texnologiyaların, kəşflərin sayını artırmaq üçün nəzərdə tutulub.

Tədbirdə digər çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, dahi lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazandığını bildiriblər. Qeyd olunub ki, ölkəmiz dünyada layiq olduğu mərtəbəyə ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

*Qabil YUSİFOĞLU, "Xalq qəzeti"*

# Azərbaycanın Avstriyadakı səfirliyində ümummilli lider Heydər Əliyevin büstü açılıb





**Mayın 12-də Vyanada Azərbaycan səfirliyinin binasında ümummilli lider Heydər Əliyevin büstünün açılışı olub.**

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə məlumat verib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov çıxışında Heydər Əliyev ilə xatirələrindən, onunla görüşlərdəki təəssüratlardan bəhs edib.

Milli Məclisin deputatı, Azərbaycan-Avstriya parlamentlərarası işçi qrupunun rəhbəri Tahir Mirkişili qeyd edib ki, bu gün möhkəm dövlətçilik ənənələri üzərində dayanan Azərbaycan, dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında dünya ölkələri ilə münasibətlərini dostluq, həmrəylik və birlik üzərində inkişaf etdirir.

Ağ mərmərdən hazırlanmış və postamentində ulu öndərin imzası yer alan büstün müəllifi gənc heykəltəraş Orxan Nəbizadədir.

*"Xalq qəzeti"*

# Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkəsidir

## Xalqımız bu yüksəlişdə daxili imkan və ehtiyatlarına arxalanır

**Prezident İlham Əliyev mayın 10-da xalqa müraciətində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu yolla Azərbaycanın bu gün uğurla getdiyini, ölkəmizin 2003-cü ildən indiyədək sürətli sosial-iqtisadi inkişaf və tərəqqi dövrü yaşadığını bildirib. Dövlətimizin başçısı, eyni zamanda, uzun illər bundan sonra da respublikamızın uzunmüddətli strategiya və daxili resurslar əsasında inkişaf edəcəyini əminliklə vurğulayıb.**

Ölkə rəhbəri daha sonra deyib: “Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz.



Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq”.

Müraciətdə son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmadığı, bu dövr ərzində iqtisadiyyatın 3 dəfədən çox artdığı, valyuta ehtiyatlarının 65 milyard dollara çatdığı, xarici borcun isə ümumi daxili məhsulun cəmi 9-10 faizini təşkil etdiyi diqqətə çatdırılıb.

Təkcə yuxarıda sadalanan göstəricilərə əsaslanıb qeyd edə bilərik ki, son 20 il Azərbaycanın müasir tarixinə iqtisadi, sosial, siyasi və mədəni inkişafının dönüş mərhələsi kimi daxil olub. Bu dövr ərzində uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ölkənin maliyyə imkanları tarixi maksimuma çatdırılıb. Azərbaycan Cənubi Qafqazın və ətrafın iqtisadi coğrafiyasını dəyişdirməyə qadir olan möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Respublikamız regional iqtisadiyyatın lokomotivinə çevrilib, Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təqdim edib, beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq respublikamızın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət nəticəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib.

Yeri gəlmişkən, dövlətimizin başçısının prezidentlik fəaliyyəti illərində iqtisadi sahədə əldə edilən digər göstəricilərə də diqqət yetirmək istərdik. Əvvəlcə onu deyək ki, Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) nominal həcmi son 20 il ərzində 22 dəfə artaraq 133,8 milyard manata çatıb. Bu dövrdə ölkə əhalisinin gəlirləri 13,7 dəfə, strateji valyuta ehtiyatları isə 2023-cü ilin aprel ayında 2003-cü ilə nəzərən 41 dəfədən çox artıb (2003-cü ildəki 1,6 milyard dollardan 65,9 milyard dollara çatıb).

Azərbaycanın bank sektoru da ildən-ilə dinamik inkişaf nümayiş etdirir. Belə ki, bu gün respublika banklarının aktivləri 44,8 milyard manatdır, biznes kreditlərinin payına 11 milyard manatdan çox düşür. Həmçinin ölkədə dollarlaşma getdikcə əhəmiyyətli dərəcədə azalır, xüsusən xarici valyutada kreditlərin sayı xeyli aşağı düşür.

İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşib. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli yüksəlib, yoxsulluq səviyyəsi xeyli azalıb.

Bu müddətdə regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan özünü etibarlı tərəfdaş kimi təsdiq edə bilib, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri qovşağına çevrilib. Beləliklə, Prezident İlham Əliyevin qarşıya qoyduğu müasir dövlət, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

Azərbaycanda elektroenergetika sahəsi də sürətlə inkişaf edir. Son 20 il ərzində respublikada inşa olunan 40-a yaxın elektrik stansiyasının generasiya gücü təqribən 3400 meqavata bərabərdir.

Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri məhz yol infrastrukturunun müasir standartlara cavab verən səviyyədə yenidən qurulmasıdır. Bu məqsədlə Azərbaycan büdcəsindən hər il böyük həcmdə vəsait ayrılır. Həmin maliyyə hesabına respublikada dünya standartlarına uyğun səviyyədə, yüksək keyfiyyətli avtomobil yolları salınır.

Xatırladaq ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib.

Hazırda Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki parlaq qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu çəkir. Qarabağ münaqişəsinin həlli də regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradır.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**

Azərbaycanda 2003-cü ildən başlayaraq təkcə paytaxtımızda deyil, bölgələrdə də geniş quruculuq və abadlıq işləri görülüb, çoxsaylı infrastruktur layihələri həyata keçirilib, müxtəlif profilli istehsal müəssisələri, sosial obyektlər fəaliyyətə başlayıb və minlərlə yeni iş yeri açılıb. Bütün bunlar hər bir rayonun, kəndin və qəsəbənin simasını dəyişməklə bərabər, əhalinin rifah halının yüksəldilməsinə, sosial problemlərinin həllinə rəvac verib.

Enerji təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın və əhalinin elektrik enerjisi ilə dayanıqlı təchizatı siyasətimizin ən prioritet istiqamətlərindən olub. “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi, “Şahdəniz” qaz yatağının mərhələlərlə istismarı Azərbaycanın dünyanın neft-qaz bazarına daxil olmasına zəmin yaradıb. “Əsrin müqaviləsi”nin müddəti Azərbaycan üçün əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılıb.

Neft-kimya sənayesinin daha da inkişaf etdirilməsi məqsədilə mühüm layihələr həyata keçirilib. Hazırda Heydər Əliyev adına Bakı neft emalı zavodunda əsaslı rekonstruksiya və modernləşmə ilə əlaqədar mühüm işlər aparılır, karbamid zavodunun, yeni polietilen və polipropilen qurğularının tikintisi isə tamamlanaraq, müvafiq sınaq işlərinə başlanılıb. Bu müəssisələrdə istehsal edilən məhsullar daxili tələbatı ödəməklə yanaşı, həm də yüksək ixrac potensialını gerçəkləşdirib.

Şübhəsiz ki, sadalanan uğurların qazanılmasında ölkədə dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlıq mühitinin yaradılması, dövlətimizin çoxşaxəli siyasətinin xalq tərəfindən dəstəklənməsi başlıca amillərdəndir.

Ardıcıl və sistemli surətdə həyata keçirilən şaxələndirmə siyasəti, sahibkarlıq mühitinin yaxşılaşdırılması üzrə görülən tədbirlər ölkə sənayesinin yeni inkişaf mərhələsinə daxil olmasına zəmin yaradıb. Sənayenin inkişafına dair Dövlət Proqramı təsdiq edilib və icrasına başlanılıb. Ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və sair sahələr yaradılıb.

Qeyri-neft sənayesinin inkişaf etdirilməsində müasir istehsal infrastrukturuna malik sənaye parklarının və sənaye məhəllələrinin yaradılmasına üstünlük verilib. Bu cür sənaye kompleksləri ölkənin ixrac qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması baxımından xüsusilə əhəmiyyətlidir. Artıq fəaliyyət göstərən Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı və Qaradağ Sənaye parkları, Neftçala Sənaye Məhəlləsi məhz belə müəssisələrdəndir. Bu illərdə Bakı gəmiqayırma zavodu, Gədəbəy və Daşkəsən qızıl-filiz zavodları, Gəncə avtomobil zavodu, Gəncə alüminium kompleksi, iri qabaritli transformatorlar zavodu, yüksək gərginlikli avadanlıqlar zavodu və digər müasir tipli müəssisələr istifadəyə verilib.



## Kosmik fəaliyyətdən 515 milyon manat əldə edilib

**Azərbaycanın ilk peykinin orbitə buraxılmasından ötən 10 il müddətində 515 milyon manat gəlir əldə edilib. Yaxın illərdə isə ölkəmizin kosmik fəaliyyətdən qazancı 1-1,5 milyard manatı keçəcək.**

Bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyinin (“Azərkosmos”) İdarə Heyətinin sədri Saməddin Əsədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Kosmik fəaliyyət haqqında”Qanun layihəsinin müzakirəsi zamanı deyib. Hazırda bütün diqqətin xarici bazarlara yönəldildiyini bildirən S. Əsədov qeyd edib ki, qazancın 90 faizi xarici bazarlar hesabına olub. “Yəni biz dollar və avro ilə gəlir əldə edirik və ölkəmizə valyuta axınına dəstək veririk”,– deyə S.Əsədov bildirib.

Onun sözlərinə görə, hazırda Azərbaycanın 42 ölkədə 182 müştərisi var. Bunların əksəriyyəti Afrika, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin payına düşür.

***“Xalq qəzeti”***

## Qaz ixracı artıb



**Bu ilin yanvar-aprel aylarında qaz ixracı 10,5 faiz artıb. Bunu energetika naziri Pərviz Şahbazov “Twitter” səhifəsində bildirib. Nazir qeyd edib ki, yanvar-aprel aylarında operativ məlumatlara əsasən, Azərbaycanda neft-kondensat hasilatı 10,2 milyon ton təşkil edib ki, onun da 8,5 milyon tonu ixrac olunub.**

Bununla yanaşı, ilin ilk dörd ayında ölkədə 16,2 milyard kubmetr qaz hasil edilib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,6 faiz çoxdur. Hesabat dövründə Azərbaycandan 8,4 milyard kubmetr qaz ixrac olunub.

Energetika nazirinin sözlərinə görə, yanvar-aprel aylarında qaz ixracı 10,5 faiz artıb. “Avropaya 3,9 milyard kubmetr, Türkiyəyə 3,4 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz ixrac olunub. Bu dövrdə TANAP Türkiyəni 1,9 milyard kubmetr qazla təchiz edib”,–deyə P. Şahbazov əlavə edib.

***“Xalq qəzeti”***

**Asiya İnkişaf Bankı (AİB) gələn il Azərbaycanla 2024-2028-ci illəri əhatə edəcək yeni tərəfdaşlıq strategiyasını həyata keçirməyə başlayacaq.**

## Asiya İnkişaf Bankı ölkəmizlə bağlı yeni tərəfdaşlıq strategiyası həyata keçirəcək



AİB-dən vurğulayıblar ki, Azərbaycan hökumətin 10 illik “Azərbaycan 2030: Milli Sosial-İqtisadi İnkişaf” inkişaf strategiyasına uyğun olaraq dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına, inklüziv cəmiyyətin qurulmasına, insan kapitalının təkmilləşdirilməsinə, “yaşıl” inkişafa doğru irəliləməyə və infrastrukturun təkmilləşdirilməsinə sadiqdir.

Bu günə qədər AİB Azərbaycana dövlət sektoruna 67 kredit və ümumi məbləği 3,7 milyard ABŞ dolları olan texniki yardım və qrant təqdim edib. Azərbaycana kredit ödənişlərinin ümumi məbləği 3,96 milyard ABŞ dolları təşkil edir. Onlar müntəzəm və güzəştli adi kapital resursları hesabına maliyyələşdirilirdi. AİB-nin Azərbaycandakı cari suveren portfelinə 565,2 milyon ABŞ dolları məbləğində 1 kredit və 1 suveren zəmanət daxildir.

***“Xalq qəzeti”***

# “Abşeron” yatağı qaz hasilatına əhəmiyyətli töhfə verəcək



**Xəzər dənizinin Azərbaycan sektorunda ötən əsrin ikinci yarısında aparılmış kəşfiyyat-qazma işləri nəticəsində bir sıra perspektivli sahələr aşkar edilib. Ötən müddətdə həmin sahələrdə kəşfiyyat-qazma işləri aparılıb, ölkəmizin neft-qaz sənayesi üçün son dərəcə əhəmiyyət kəsb edən yeni yataqlar açılıb.**

Bununla belə, bəzi strukrurlarda ilkin kəşfiyyat işləri lazımi nəticələr verməsə də, geoloqlarımız, necə deyərlər, ümidini itirməyiblər. Məhz onların təkidi sayəsində həmin strukturlarda sonradan davam etdirilən kəşfiyyat-qazma işləri uğurla nəticələnib. “Abşeron” perspektivli strukturu da belə bir aqibətlə üzləşib. Belə ki, adıçəkilən strukturda aparılan ilkin kəşfiyyat işləri uğursuz nəticələnsə də, Azərbaycan geoloqlarının bununla bağlı fikirləri həmişə ümidverici olub. Sevindirici haldır ki, geoloqlarımızın ümidləri özünü doğruldub və “Abşeron” yatağının karbohidrogen ehtiyatları ilə zənginliyi tam sübuta yetirilib.

Artıq “Abşeron” yatağından ilkin qazın hasilatı ilə bağlı bütün planlar həyata keçmək üzrədir. Elə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 11-də “Total Energies” şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terrazı qəbul etməsi də bunu deməyə əsas verir. Belə ki, görüşdə SOCAR ilə “Total Energies” arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Bununla yanaşı, Xəzərin Azərbaycan sektorunda yerləşən “Abşeron” qaz yatağında yaxın aylarda nəzərdə tutulan hasilatın başlanılması məsələsi müzakirə olunub.

Qəbul zamanı Nikolas Terraz “Total Energies” şirkətinin Azərbaycanla əməkdaşlığa sadiqliyini və davamlı marağını vurğulayaraq ölkəmizdəki fəaliyyətlərini genişləndirmək niyyətində olduqlarını bildirib. Söhbət zamanı, həmçinin ənənəvi neft və qaz sahəsində əməkdaşlıqdan əlavə bərpaolunan enerji istehsalı sahəsində də mümkün layihələr barədə fikir mübadiləsi aparılıb.

Məlumat üçün bildiririk ki, “Abşeron” yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. O zaman mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermədiyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə “Abşeron” yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq müqavilə imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqaviləyə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri “Abşeron” yatağında məhsuldar layların olması ilə bağlı fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasına inanırdılar.

Məhz bu inamın nəticəsi olaraq 2009-cu il fevralın 27-də Azərbaycan Dövlət Neft Şirkəti ilə “Total” şirkəti arasında “Abşeron” yatağı üzrə yeni müqavilə imzalanıb. 2015-ci ildə isə “SOCAR” və “Total” birgə “JOCAP” (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, “SOCAR Absheron” və “Total E&P Absheron” törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi “Abşeron” yatağının operatoru elan olunub.

Müqavilənin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 747 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında “Abşeron”da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011-ci il sentyabrın 9-da mətbuata verdiyi açıqlamasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron” yatağında böyük qaz ehtiyatlarının kəşf edilməsi münasibətilə xalqımızı təbrik edərək deyib: “Doğrudan da bu, böyük hadisədir. “Abşeron” yatağında böyük həcmdə qaz ehtiyatlarının aşkarlanması Azərbaycanın qaz potensialının inkişafına verilən böyük töhfədir. Bu bizə imkan verəcək ki, öz qaz strategiyamızı daha da inamla irəliyə aparaq, Azərbaycanı qaz ixrac edən ölkə kimi dünyada daha da tanıtdıraq, Azərbaycan xalqının maraqlarını təmin edək”.

2020-ci il sentyabrın 19-da “Abşeron” qaz-kondensat layihəsinin reallaşdırılması istiqamətində mühüm hadisə baş verib. Həmin gün Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib. Xatırladaq ki, “Abşeron” yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir.

Xəzər dənizində, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Elə bu zənginliyinə görə də “Abşeron” yatağının bir neçə mərhələdə işlənməsi nəzərdə tutulur. Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və 750 min ton kondensat hasilatı nəzərdə tutulur. Növbəti illərdə isə burada illik hasilatın ən azı 4 milyard kubmetrə qədər artırılacağı gözlənilir. Bütövlükdə isə, yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın dediyinə görə, 2015-ci ilin noyabrında təsdiq edilmiş “Abşeron” yatağının birinci işlənmə mərhələsi layihəsinə əsasən il ərzində hasil olunacaq 1,5 milyard kubmetr həcmində qazın hamısının daxili bazara tədarükü planlaşdırılır. Layihə çərçivəsində hasil olunan kondensat isə “Bakı-Tbilisi-Ceyhan” əsas ixrac boru kəməri vasitəsilə dünya bazarlarına göndəriləcək. İkinci mərhələdə çıxarılacaq qazın isə hamısı ixraca yönəldiləcək.

Yeri gəlmişkən, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) bu yaxınlarda açıqladığı hesabatında bildirilir ki, “Şahdəniz” və “Abşeron” yataqları 2023-cü ildə Azərbaycanda maye karbohidrogen hasilatının artımının təkanverici qüvvələri olacaq. Hesabatda qeyd olunur ki, Azərbaycanın köhnə yataqlarında hasilatın əsas azalmasının digər yataqlar hesabına kompensasiya olunacağı gözlənilir. Bu artımın isə, əsasən, “Şahdəniz” və “Abşeron” yataqları hesabına baş verəcəyi proqnozlaşdırılır. Göründüyü kimi, “Abşeron” yatağının karbohidrogenlərlə zənginliyi artıq beynəlxalq səviyyədə də qəbul olunur.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

# Franko əfsanəsi və ya “Yaşasın İspaniya!”

**“Franko bizimlə deyil, amma o, görünməyəcək tərzdə yanımızdadır. Fiziki cəhətdən yoxdur, çünki həyatdan köçüb. Biz görmədiyimizə və eşitmədiyimizə baxmayaraq, onun kollektivlik anlayışı bizi birləşdirir”. Bunlar Fransisko Franko Fondunun saytında yazılıb. Amma fikri bölüşənlərin sayı durmadan artmaqdadır. Görünür, nəinki İspaniyanı, ümumən Avropanı son illərdə bürümüş böhran fərqli baxışlara yol açdığından, belə deyimlər daha çox gündəmə gələcək. Həm də ona görə ki, insan naturası əksər hallarda yaxşılıqları xatırlayandır.**



“Frankonun hakimiyyəti illərində işsizlik problemi yox idi. O, səhiyyə sistemini yaratmışdı, pensiya təminatını gücləndirmişdi. Bizə onunla daha yaxşı idi, nəinki indiki hakimiyyətlə” – ölkənin yaşlı təbəqəsi bu cür düşünür. Gənclik isə Frankonu milli ideyaya çevrilmiş şüarı ilə xatırlayır: "İspaniya hər şeydən üstündür!".

İspaniyanın əfsanəvi lideri, XX əsr tarixi şəxsiyyətləri sırasında yer alan, bütün tarixi simalar kimi haqqında ziddiyyətli fikirlər dolaşan Fransisko Baamonde Franko və ya qısaca Franko 1892-ci ildə hərbçi ailəsində doğulub. Yəqin nəsli bağlılığa görədir ki, 1907-ci ildə Toledo şəhərindəki hərbi akademiyaya daxil olub. Bu ali məktəbdə keçirdiyi illər xarakterinin formalaşmasına böyük təsir göstərib. Çox hündür olmayan boyu, yüksək, xoşagəlməz səsi ilə fərqlənib. Hər zaman ambisiyalı danışmağı sevib ki, bu da bəzən onu kadetlərin arasında gülüş hədəfinə çevirib. Amma məhz həmin vaxt Fransisko cavab verməyi, təkcə güc ilə deyil, ruhən qələbə qazanmağı öyrənib. Sonralar bu keyfiyyətinə diqqət yetirən Hitler deyəcəkdi ki, Franko ilə ünsiyyətdə olmaq, bir gündə bir neçə dişini çıxardacaq diş həkimi ilə görüşə getməkdən qat-qat pis təəssürat yaradır.

Akademiyadakı təhsilini başa vurduqdan sonra Fransisko ölkənin Mərakeşdəki legionuna təyinat alır. Bu hərbi birləşmədə soyuqqanlılığı ilə ad çıxarır və döyüşlərin birində ağır yaralanır. Franko xatirələrində bildirir ki, məhz Afrika təcrübəsi onu rəhbər edib. Haqlı idi, çünki müharibə ona sərt nizam-intizamı, qətiyyəti və inadkarlığı öyrədir.

34 yaşında Franko briqada generalı olur. 1928-ci ildə isə Saraqosadakı hərbi akademiyaya direktor təyin olunur. Həmin vaxtlarda İspaniyada ikinci respublika qurulur. Fransisko bu hadisəni kursantlar qarşısındakı çıxışında sərt tənqid edir və buna görə də işdən uzaqlaşdırılır. Yeni prezident Kaseras Kiroqanın hərbi məsələlər üzrə müşaviri vəzifəsinə təyinat almaq üçün ona bir il gözləmək lazım gəlir.

Respublikaçılarla Frankonun fikir birliyi yalnız ölkənin ərazi bütövlüyü məsələsində üst-üstə düşür və təcrübəli hərbi rəhbər kimi o, 1934-1936-cı illərdə Asturiya və Kataloniyadakı separatçılıq meyillərini məhv edir. Bu xidmətlərinə görə baş qərargahın rəisi vəzifəsinə irəli çəkilir. Amma 1936-cı ildə prezident Kiroqa ölkədə hərbi çevrilişin hazırlandığına dair xəbər alır və Frankonu uzağa – Kanar adalarına göndərir. Sonradan müəyyənləşir ki, Fransisko Kanar adalarında olarkən də 1936-cı il iyulun 17-dən başlanan hərbi çevrilişin rəhbərlərindən biri kimi öz işini görürmüş. Həmin vaxt o, Kanardan Mərakeşə gedir və doğma legionunun başına keçərək, Madridə doğru hücuma başladığını bəyan edir. Həmin dövrdə Frankonun üsyanını Vatikan da dəstəkləyirdi. Çünki, o, Roma katolik kilsəsinin ali zümrəsində təmsil olunurdu.

Beləcə 600 min insanın ölümü ilə nəticələnmiş vətəndaş müharibəsi başlayır. Franko tezliklə üsyana tam rəhbərliyi əlinə keçirir. Bu müddətdə, o, Hitlerin simasında Almaniyadan, İtaliyada isə Benito Mussolinidən dəstək alır. Almanların hərbi köməyi öz sözünü deyir. Generalissimus rütbəsini aldığı vaxtlarda Franko sağ partiyaların blokuna qoşulur və 1938-ci ilin yanvarında dövlətin və hökumətin başçısı olur. 1939-cu il aprelin 1-də ölkədəki vətəndaş müharibəsi başa çatdıqdan sonra dəmir əllərə malik Fransisko separatizm və kommunizm meyillərini də boğur.

1947-ci ildə İspaniyada keçirilmiş referendum Frankonu ölkənin ömürlük dövlət başçısı elan edəndə cəmi 45 yaşında idi. O, təkpartiyalı sistemdən – İspaniya Falanqasından ibarət, sağ mühafizəkar ideyalarla cilalanmış hökumət qurur. Ümumən monarxist baxışlı katolik etiqadına məxsus rəhbər xalqın qayğısına qalmağın lazım olduğunu dərk edirdi. Buna görə kompleks səciyyə daşıyan sosial layihələr reallaşdırır, əhalinin pensiya və sosial təminatını nəzərəçarpacaq dərəcədə yaxşılaşdırır, xüsusən də səhiyyədə ciddi islahatlar həyata keçirir.

İkinci Dünya müharibəsindən sonra nasist Almaniyası ilə dostluğa görə ölkənin izolyasiya prosesi tezliklə aradan qalxır. Bu, "soyuq müharibə"nin başlanması ilə bağlı olur. Franko SSRİ-nin və kommunizmin Avropaya təsirini aradan qaldıran yeganə qüvvə rolunu oynayır. 1959-cu ildə o, ABŞ Prezidenti Duayt Eyzenhauerlə Birləşmiş Ştatların ölkəsində hərbi bazalarının yerləşdirilməsi barədə razılığa gəlir. Nəticədə İspaniyaya xarici kapital axını da baş verir. Ötən əsrin 60-cı illəri ölkədə iqtisadi bum dövrü kimi xarakterizə olunur. Məhz həmin müddətdə İspaniyada orta sinif formalaşdırılır. Ölkə uzun müddət inkişaf tempinə görə yalnız Yaponiyadan geri qalır və çiçəklənməkdə olan Avropa ölkəsinə çevrilir.

Amma ölkədə Frankonun yerinə tamam başqa baxışları olan insanlar yetişirdi. İspan cəmiyyətindəki liberallaşma meyilləri onun sistemini çökdürürdü. ETA və digər terrorçu təşkilatların üzvlərinin ard-arda ölüm hökmünə məruz qoyulması isə Avropada narazılıqlar doğurur. Hətta vəziyyət o həddə çatır ki, Roma papası VI Pavel də özünün sadiq oğlu və davamçısı saydığı adamı lütf göstərməyə çağırır. 1975-ci ildə Avropanın 15 ölkəsi İspaniyadakı səfirlərini geri çağırır. Portuqaliyada İspaniya səfirliyinə hücum olur. Avropanın müxtəlif yerlərində Frankoya qarşı nümayişlər keçirilir. Bu durumda ağır parkinson xəstəliyindən əziyyət çəkən Franko xalqa müraciət edərək “mənə inanın, siyasətə baş qoşmayın!” çağırışları edir. Amma siyasət və xəstəlik onu yorğun salmışdı. Alınmırdı…

Franko yeni monarxın xeyrinə siyasi vəsiyyətnamə yazır və 1969-cu ildə könüllü şəkildə hakimiyyəti şahzadə Xuan Karlosa təhvil verir. Bu, monarxiyanın rəsmi surətdə bərpası anlamına gəlir. Fransisko uzun sürən xəstəlik həyatından sonra 20 noyabr 1975-ci ildə Madriddə dünyasını dəyişir. Ölümündən bir neçə saat əvvəl yazdığı vəsiyyətində isə ispanlara müraciət ünvanlayır, onlardan bağışlanılmasını istəyir və izah edir:

"Ömrümün ən son anına, axırıncı nəfəsimədək sevdiyim İspaniyaya xidmət etməkdən başqa istəyim olmayıb. Mənimlə birgə böyük entuziazmla vahid, azad İspaniya uğrunda sadiqliklə, mətanətlə işləyən hər kəsə öz təşəkkürümü bildirmək istəyirəm. Yaddan çıxarmayın ki, sivilizasiyanın və xristian İspaniyasının düşmənləri səngimək bilmir. İspaniyanın onun vahidlik mənbəyi rolunu oynayan regionlarının müxtəlifliyini, torpaqlarının birliyini qoruyun. İstərdim ki, son anlarımda Tanrının adını İspaniyanın adı ilə birləşdirim. Sizinlə qucaqlaşıb ölüm anımda sonuncu dəfə qışqırmaq istəyirəm: İspaniya! Yaşasın İspaniya!"

***R.AMİN***

# Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin nümayəndəsi ilə görüşüb



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov mayın 12-də Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşüb.**

Görüşdə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, sülh sazişi üzrə danışıqlarda, eləcə də regionda cari vəziyyət müzakirə olunub. Ceyhun Bayramov müzakirələr zamanı sülh sazişi üzrə danışıqlarda ölkəmizin mövqeyi və prioritetlərini, eləcə də gələcək gözləntilərini diqqətə çatdırıb. O, eyni zamanda, Ermənistanın sülh prosesinə və danışıqlara xələl gətirən təxribatçı addımları barədə qarşı tərəfə məlumat verib.

Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi regionda sülhün və sabitliyin təmin edilməsinin vacibliyini və bu istiqamətdə Rusiya tərəfinin hər cür dəstəyə hazır olduğunu bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.




# Proksi müharibələrə qarşı birgə mübarizə

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə 20-dən çox xarici ölkənin təhlükəsizlik və kəşfiyyat orqanlarının nümayəndələrinin təmsil olunduğu “Proksi şəbəkələrin destruktiv fəaliyyətinə qarşı birgə mübarizə” mövzusunda Bakı Təhlükəsizlik Forumu keçirilib.**

Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən bildirilib ki, giriş nitqi ilə tədbiri açıq elan edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev qonaqları səmimi salamlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib, ölkəmizin belə bir tədbirə ev sahibliyi etməsinin əhəmiyyətinə toxunaraq bu təşəbbüsün reallaşmasında göstərdiyi dəstəyə görə dövlət başçısına dərin təşəkkürünü bildirib.

General-polkovnik Əli Nağıyev yeni nəsil müharibə üsulu olan və birbaşa hərbi güc tətbiqini istisna edən proksi müharibələrin ölkələrin təhlükəsizliyinə nüfuz və ya təsir etmə vasitəsi olduğunu, proksi şəbəkələrin fəaliyyətinin bəzi terrorçu qruplar, radikal-ekstremist və separatçı qüvvələr tərəfindən dövlətlərdə mövcud sabitliyin pozulmasına yönəlmiş təxribat xarakterli əməllər - terror aktları, əhali arasında qorxu və vahimə yarada bilən digər cinayət hadisələri törətmək, insanlar arasında nifrət, düşmənçilik hisslərini aşılamaq, kibercinayətkarlıq və s. formada təzahür etdiyini nəzərə çatdırıb.

Proksi qrupların pozuculuq fəaliyyətinin doğurduğu təhdidlərlə mübarizədə ölkələrin səylərinin birləşdirilməsinin vacibliyinə diqqət çəkən general-polkovnik Əli Nağıyev Bakı Təhlükəsizlik Forumunun bunun üçün uğurlu başlanğıc olacağına, konfrans çərçivəsində aparılacaq müzakirələrin, veriləcək təkliflərin birgə əməkdaşlığın səmərəli təşkilinə əlverişli zəmin yaradacağına inamını ifadə edib.

Ardınca proksi şəbəkələrdən bəhs edən videoçarx nümayiş olunub, sonra xarici nümayəndə heyətlərinin rəhbərlərinin tədbirin mövzusu ətrafında geniş məruzələri, beynəlxalq təhlükəsizlik sisteminin üzləşdiyi mənfi təzahürlərlə bağlı çıxışları dinlənilib. Onlar müasir dövrün aktual problemlərindən olan proksi şəbəkələrin destruktiv fəaliyyətinə həsr olunmuş tədbirin beynəlxalq səviyyədə vacibliyindən söhbət açaraq, həmin mövzuda ilk dəfə keçirilən tədbirin təhlükəsizlik sahəsində dövlətlərarası münasibətlərin inkişafına mühüm töhfə verəcəyinə əminliklərini bildiriblər.

Sonda beynəlxalq konfransın bütün iştirakçılarının mövqeyini əks etdirən Bəyannamənin ilkin variantı rəy və təkliflərin alınması üçün tərəfdaş ölkələrə təqdim olunub, habelə Azərbaycan təhlükəsizlik orqanlarının fəxri və əbədi rəhbəri, mənalı ömrünün böyük hissəsini bu orqanlarda xidmətə həsr etmiş ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq təsis edilmiş müvafiq forumun gələcəkdə də keçirilməsi qərara alınıb.

***“Xalq qəzeti”***

# ABŞ məhkəməsi erməni təxribatçını cəzalandırdı



**Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarında (ABŞ) Kaliforniya Ali Məhkəməsi Los-Ancelesdə azərbaycanlılara hücum edən erməni təxribatçıya hökm oxuyub. Məhkəmə qərarına əsasən 2020-ci ilin iyul ayında Los-Anceles şəhərində yerləşən Azərbaycan Baş Konsulluğunun yaxınlığında dinc aksiya keçirən azərbaycanlılara hücum edən erməni cinayət məsuliyyətinə cəlb olunub.**

Qərara əsasən, təxribatçı erməni azərbaycanlılara vurduğu bütün ziyanın xərclərini ödəməlidir.

ABŞ məhkəməsinin məlum qərarı Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) tərəfindən də təqdirlə qarşılanıb. XİN mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə tviter səhifəsində yazıb: “2021-ci ilin iyununda Erik Akopyana hökm oxunduqdan sonra Kaliforniya Ali Məhkəməsinin 2020-ci ilin iyulunda Azərbaycan Baş Konsulluğunun qarşısında dinc etiraz aksiyası keçirən azərbaycanlılara nifrət zəminində hücum edən Hovhannes Sukiasyana da hökm çıxarılmasını alqışlayırıq”.

***

ABŞ məhkəməsi erməni təxribatına hüquqi müstəvidə ədalətli şəkildə cavab verməklə, həqiqətən də qanunların keşiyində dayandığını sübut etdi. Lakin məlum məhkəmə qərarı, təkcə ABŞ qanunlarının təntənəsi deyil, həm də Fransa üçün də utanc mənbəyi oldu.

Xatırladaq ki, bugünə qədər Fransada ermənilər Azərbaycan səfirliyinə, bu ölkələrdəki diaspor nümayəndələrinə qarşı ciddi zorakılıqlar sərgiləyib, təxribatlar törədiblər. Lakin Fransa məhkəməsi erməni təxribatları ilə bağlı hər hansı məhkəmə qərarı ortaya qoymayıb. Bu fakt onu söyləməyə əsas verir ki, Fransa Azərbaycanın maraqları ilə yanaşı, həm də öz qanunlarına hörmət qoymur. Əksinə, onların erməni təxribatçılarının ayaqları altında əzilməsini laqeydcəsinə seyr edir.

Ancaq rəsmi Paris unutmamalıdır ki, bu gün Fransadakı azərbaycanlıları hədəf seçən ermənilər Fransanın özü üçün daha təhlükəlidirlər. Və zamanı çatanda onlara açıq-aşkar himayədarlıq edən Fransanın özünü bir-birindən qanlı təxribatlara hədəf seçməkdə tərəddüd etməyəcəklər.

***Seymur ƏLİYEV***

# Gürcüstanın “Sakartvelos Respublika” qəzetində ulu öndər Heydər Əliyev haqqında məqalə dərc olunub

**Gürcüstanın nüfuzlu “Sakartvelos Respublika” qəzetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş məqalə dərc olunub.**

“Azərbaycan və Gürcüstan xalqlarının dostluğu dünyaya nümunədir” sərlövhəli məqalədə ulu öndər, fenomen şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti barədə oxuculara ətraflı məlumat verilib. Ümummilli liderin xatirəsinin təkcə Azərbaycanda deyil, Gürcüstanda da ehtiramla yad olunduğu qeyd edilib.

# Əfvetmə aksiyaları cəmiyyətdə humanist dəyərlərin möhkəmləndirir

**Tarixə möhürünü vurmuş böyük şəxsiyyətlər mənsub olduqları xalqların mənəvi birliyinə, milli və bəşəri dəyərlərin ictimai şüurda möhkəmlənməsinə xidmət edən mütərəqqi ideya-siyasi baxışları, səfərbəredici missiyaları ilə seçilmişlər. Siyasi fəaliyyətində insan amilini, hər bir fərdin qanuni mənafeyini önə çəkən belə dahi rəhbərlər yüksək mənəvi keyfiyyətləri – ədalət meyarını daim uca tutmaları ilə milyonların rəğbətini qazanmışlar.**



Bu kontekstdə əminliklə demək olar ki, XX əsrdə xalqımızın dünya siyasi arenasına bəxş etdiyi qüdrətli tarixi şəxsiyyət – ulu öndər Heydər Əliyev insanpərvər, ədalətli, mərhəmətli və nəcib şəxsiyyət olması ilə ümummilli lderlik zirvəsinə ucalmışdır. “Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə” – deyən böyük strateq ədaləti ədalətsizliklə bərpa etməyin yolverilməzliyini də özünəməxsus müdrikliklə vurğulamışdır. Ulu öndər Heydər Əliyev respublikaya siyasi rəhbərliyinin hər iki mərhələsində qanunçuluğun, hüquq qaydalarının cəmiyyətdə bərqərar olmasına çalışmaqla bərabər, insan hüquqlarının yüksək səviyyədə qorunmasına, ədalət meyarının ictimai həyatın bütün sahələrində ali dəyər kimi qəbuluna xidmət edən kompleks tədbirlər həyata keçirmişdir.

Hindistanın böyük dövlət xadimi Mahatma Qandinin sözüdür – “Bağışlamaq bacarığı güclülərin xüsusiyyətidir”. İnsan günahlarını bağışlamaq bütün zamanlarda qəlbin böyüklüyü, insan zəkasının kamilliyi, müdrikliyi kimi yüksək dəyərləndirilmişdir. Ulu öndər Heydər Əliyev də qətiyyətli, prinsipial, əzmkar rəhbər olmaqla yanaşı, yüksək daxili humanizmi ilə səhvini başa düşən, səmimi peşmançılıq hissi keçirən insanları bağışlamağı bacaran, insanları kin-küdurətdən, qisasçılıq, şəxsi ədavət kimi mənfi cəhətlərdən uzaq olmağa çağıran adil şəxsiyyət idi. Ümummilli lider məhz yüksək mənəvi keyfiyyətləri, hər bir fərdin maraqlarını önə çəkən mütərəqqi ideyaları ilə sağlığında daim səfərbəredici, birləşdirici lider kimi qəbul edilmiş, hər zaman ictimai dəstək almışdır.

Azərbaycan Perzidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi haqqında” Sərəncamında ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinə xüsusi toxunulur: “Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir”.

Prezident İlham Əliyevin “Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” 08 may 2023-cü il tarixli sərəncamı da reallaşdırılan anım tədbirlərinin davamı olaraq, ulu öndərin insan amilini uca tutan ideya-siyasi baxışlarının cəmiyyətə aşılanması və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Xatırladaq ki, Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olmuş Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi 2007-ci il mayın 8-də “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında” qərar qəbul etmişdir. Yüksək mərhəmət və humanizmi ulu öndər Heydər Əliyevin təkcə sosial-iqtisadi və siyasi deyil, insan hüquqlarının ali səviyyətə təminatına xidmət edən məhkəmə-hüquq islahatlarının da mütərəqqi mahiyyətində parlaq təcəssümünü tapır. Xatırlatmaq lazımdır ki, 1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev milli dövlətçiliyi potensial təhdidlərdən qorumaq, ictimai-siyasi sabitliyi, qanunçuluğu təmin etmək üçün ilkin mərhələrə qətiyyətli, prinsipial tədbirlərə əl atsa da, kompleks iqtisadi, siyasi və hüquqi islashatların reallaşdırılması mərhələsində əsasən liberal təmayülə üstünlük vermişdir. Təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümümxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasının müddəalarının üçdə birinin sırf insan hüquqları bağlı olması Heydər Əliyevin insan və şəxsiyyət amilini dövlət siyasətinin fövqündə saxladığını təsdiq edir.

Sivil, dünyəvi, demokratik dövlət quruculuğu prosesinin, ümumbəşəri dəyərlərin mahiyyətinə zidd olan ölüm hökmü üzərində 1993-cü ildən etibarən moratoriumun tətbiqi ulu öndər Heydər Əliyevin yürütdüyü hüquq islahatlarının humanist və insanpərvər mahiyyətini də nümayiş etdirir. Ümummilli liderin Milli Məclisə ünvanladığı 3 fevral 1998-ci il tarixli müraciət əsasında həmin il fevralın 10-da ölkədə ölüm hökmü tamamilə ləğv edilmiş, Azərbaycan yaxın Şərqdə bu tarixi qərarı verən ilk ölkə olmuşdur. Bu cəza növünün Azərbaycan Respublikası Cinayət Məcəlləsindən tamamilə çıxarılması da yüksək humanizm və insanpərvərlik nümunəsi kimi qeyd edilməlidir. Ümummilli lider Heydər Əliyev ölüm hökmünün ləğvi ilə bağlı tarixi müraciətində deyirdi: “Cinayət-hüquq siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər, o cümlədən cinayət məcəlləsinin ölüm cəzasını nəzərdə tutan iyirmi bir maddəsinin sanksiyalarından bu cəzanın çıxarılması, qadınlara, 65 yaşına çatmış kişilərə ölüm cəzasının tətbiqinin qadağan edilməsi, 1705 məhbusun əfv edilməsi, o cümlədən ölüm cəzasına məhkum edilmiş 12 şəxsin əfv olunaraq cəzalarını azadlıqdan məhrumetmə ilə əvəz edilməsi və amnistiya qaydasında 17 mindən artıq şəxsin müxtəlif cəzalardan azad edilməsi və onların yenidən cəmiyyətə qayıtması üçün şərait yaradılması ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun təzahürüdür”.

Konstitusiyamızın bir sıra müddəaları müstəqil, üçpilləli məhkəmə sisteminin yaradılmasına zəmin yaratmaqla yanaşı, cəza siyasətinin huimanistləşdirilməsini də təmin etmişdir. Konstitusiyanın 61-ci maddəsi (Hüquqi yardım almaq hüququ), 63-cü (Təqsirsizlik prezumpsiyası), 65-ci (Məhkəməyə təkrar müraciət hüququ) və digər bir sıra maddələrinin əhəmiyyəti bu baxımdan xüsusi vurğulana bilər. 65-ci maddədə qeyd olunur ki, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

1995-ci ilin may ayında “Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası”nın yaradılması, əfvetmə institutunun bərpası da Ulu Öndərin tarixi qərarlarından biri olaraq, respublikanın beynəlxalq nüfuzunun yüksəldilməsinə xidmət etmişdir. Əfv Məsələləri Komissiyasının tərkibinə ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının tanınmış təmsilçilərinin daxil edilməsi şəffaf, obyektiv və ədalətli qərarların qəbulu baxımından səmərəli nəticələr verir, vətəndaşların, habelə məhkum olunmuş şəxslərin əfvlə bağlı müraciət imkanlarını asanlaşdırır.

2001-ci il 18 iyul tarixli “Əfvetmə haqqında Əsasnamə”, habelə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 82-ci maddəsi (Əfvetmə) əfvlə bağlı qərarların qəbulu məsələlərini tənzimləyir və dövlətin cəza siyasətinin humanist mahiyyətini əks etdirir.

Xatırlatmaq yerinə düşər ki, 1995-2003-cü illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 7 amnistiya, 32 əfv sərəncamı imzalanmışdır. Bu amnistiya aktları, ümumilikdə, 77 mindən çox insana şamil edilmiş, 21 mindən çox məhkum cəzasının çəkilməmiş hissəsindən azad olunmuş, 32 əfv fərmanı nəticəsində 3100-dən çox məhkum bağışlanılmışdır. Ölüm hökmünün ləğvi, amnistiya və əfvetmə institutunun bərpası nəticəsində 2001-ci ilin yanvar ayında Avropa Şurasına tamhüquqlü üzv qəbul olunan Azərbaycan beynəlxalq miqyasda milli maraq və mənafelərinin təmini, təcavüzkar Ermənistanın ifşası baxımından əlverişli tribuna əldə etmişdir.

Ümummilli lider Heydər Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə xidmət edən islahatları çərçivəsində “İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrasının təmin edilməsi və hüquqi islahatların həyata keçirilməsinə dair tədbirlər haqqında” 1999-cu il 11 fevral tarixli, “Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi, məhkəmələrin, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında”, “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin istintaq təcridxanalarının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin tərkibinə verilməsi haqqında” 1999-cu il 9 oktyabr tarixli fərmanlarının, habelə 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Məcəllə cəzaların icrası, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini müəyyən edən mühüm sənəd kimi son dərəcə səmərəli olmuşdur.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatlarını son 20 ildə yeni dövrün aktual çağırışlarına adekvat şəkildə davam etdirən Prezident İlham Əliyev ölkədə cəza siyasətinin humanistləşdirilməsi məsələlərini xüsusi diqqət mərkəzində saxlayır. Bunun əyani təcəssümü kimi, dövlətimizin başçısının son 20 ildə 37 əfv sərəncamı imzalamasını xüsusi vurğulamaq lazımdır. Məhkumların bağışlanması, normal həyata dönüşü humanist addımlar kimi cəmiyyətdə yüksək qiymət alır.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” sərəncamı da məhkəmə-hüquq islahatlarınını mühüm rəkib hissəsi olaraq cəza siyasətinin humanistləşdirilməsinə xidmət etmişdir. Sərəncam əsasında Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmış, böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqi məhdudlaşdırılmış, qanunvericiliyə dəyişikliklər və elektron nəzarət tədbirləri (elektron qolbaq) təmin edilmişdir.

Ölkəmizdə insanpərvər və humanist ideyalarının bərqərar olmasında və ictimai şüurda möhkəmlənməsində dövlət başçısı İlham Əliyevlə yanaşı, onun ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vise-prezidenti, Heydər Əliyev Fonunun rəhbəri Mehriban xanım Əliyevanın da müstəsna töhfələri xüsusi qeyd olunmalıdır. Yüksək mərhəmət və humanizm məfkurəsindən çıxış edən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son 15 ildə qəbul edilmiş 4 amnistiya aktı 40 minə yaxın insana şamil edilmiş, bu tədbirlər cinayət törətmiş şəxslərin islah olunması və cəmiyyətə inteqrasiyası baxımından əhəmiyyətli olmuşdur. Azərbaycanın Birinci vitse-prezidenti üzərinə götürdüyü məsuliyyətli missiya ilə həm də insan hüquqlarının etibarlı hamisi, müdafiəçisi statusunda çıxış edir.

Prezident İlham Əliyevin “Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında” 08 may 2023-cü il tarixli sərəncamı isə şamil edildiyi şəxslərin əhatə dairəsinə görə müstəqil Azərbaycan tarixində ən böyük əfv aktıdır. Sərəncamla 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir. Əfv Sərəncamının qısa müddətdə, yüksək təşkilatçılıq əsasında icrasında Ədliyyə Nazirliyinin rəhbərliyinin reallaşdırdığı təşkilati-hüquqi tədbirlərin əhəmiyyətini də xüsusi vurğulamaq istərdik. Bu tədbirlər sərəncamın operativ, çevik və qanunamüvafiq surətdə həyata keçirilməsinə xidmət etməklə, məhkumların yaxınlarında razılıq hissi doğurmuşdur.

Əfv sərəncamları, amnistiya aktları məhkumların islah olunmasına xidmət etməklə yanaşı, mahiyyətcə cəmiyyəti humanistləşdirir, insan ləyaqətinə hörmət və ehtiramı təşviq edir, ümumbəşəri dəyərlərin üstünlüyünü önə çəkir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu humanizm ənənələrinin son 20 ildə uğurlu davamına təminat yaradan bu nəcib təşəbbüslər xalqımızın çoxəsrlik ənənələrindən irəli gələrək, ən ali dəyər olan insan həyatının etibarlı müdafiəsinə təminat yaradır. Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə və insan hüquqlarının etibarlı müdafiəsinə xidmət edən məhkəmə-hüquq islahatları davamlı səciyyə daşıyaraq, Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldir.

***Abbas RZAYEV,***
***Binəqədi Rayon Məhkəməsinin hakimi***

**Milli Məclisin plenar iclasında**



# İnsan alverinə qarşı mübarizə üzrə hesabat müzakirə olundu

**Mayın 12-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirildi. Parlamentin sədri bugünlərdə Ermənistan ordusunun cəbhədə törətdiyi təxribata münasbət bildirərək dedi ki, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistanın bu təxribatda əsas məqsədi hazırda aparılan sülh danışıqlarının pozulmasıdır.**

Sonra cari məsələlərin müzakirəsi başlandı. Deputatlar sabah qardaş Türkiyədə keçiriləcək prezident və parlament seçkilərinin uğurla başa çatmasını arzuladılar.

İclasda bəzi ermənipərəst qüvvələrin Azərbaycana qarşı qərəzli mövqeyindən də söhbət açıldı. Deputat Elşad Mirbəşir dedi ki, Fransa Xarici İşlər Nazirliyi Qarabağ ərazisini “anklav” adlandırıb və çəkinmədən Azərbaycan ərazilərini Ermənistan ərazisi kimi təqdim edib. O, sülh gündəliyinin aktual olduğu bir dövrdə Fransanın belə bir mövqedən çıxış etməsinin, bütövlükdə, region üçün təhlükə yaratdığını söylədi. Deputat Qüdrət Həsənquliyev isə təəssüflə bildirdi ki, Ermənistan 44 günlük savaşdan hələ də nəticə çıxarmayıb. Onlar yenə də münaqişəni uzatmaq, hansısa möcüzələrin baş verəcəyini gözləməkdədirlər. Çox təəssüf ki, Fransa da onlara dəstək verir.

Çıxış edənlər Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura səfər çərçivəsində bir sıra obyektlərin açılış, bəzilərinin isə təməlqoyma mərasimlərində iştirakından söhbət açdılar.

Deputat Sahib Alıyevin sözlərinə görə, Şuşada dövlət başçımızın ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı möhtəşəm çıxışında da vurğulandığı kimi, heç kəs bizi yolumuzdan döndərə bilməz: “İlk növbədə ona görə ki, güclü ordumuz var və bu ordu Prezidentimizin təbirincə desək, “gücünü paradda yox, döyüş meydanında göstərib”. Yaxşı olar ki, təkcə haylar deyil, güvəndikləri qüvvələr də müzəffər Ali Baş Komandanımızın bu sözlərindən düzgün nəticə çıxarsınlar”.

Gündəlikdəki birinci məsələni – “İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı”nı Daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov təqdim etdi. General diqqətə çatdırdı ki, Azərbaycanda insan alverinə qarşı mübarizəyə dövlət, hökumət və parlament səviyyəsində verilən böyük dəstək sayəsində 2022-ci ildə də sözügedən əməllərin profilaktikasının və cinayət təqibinin ən yüksək səviyyədə təşkilinə imkan yaradıb.

S.Əzimov “İnsan alverinə qarşı mübarizə üzrə 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq insan alverinə qarşı mübarizənin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən müvafiq dəyişikliklər, qurbanlarla işin təkmilləşdirilməsi, aparılan təbliğat, maarifləndirmə işləri barədə məlumat verdi. O, hesabat ilində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin də diqqət mərkəzində saxlanıldığını deyərək vurğuladı ki, ABŞ Dövlət Departamentinin 2022-ci ilin iyun ayında insan alverinə qarşı mübarizəyə dair yayımladığı hesabatda ölkəmizin fəaliyyəti alqışlanıb və respublikamız bir pillə irəliləyərək 2-ci yeri tutub.

Hesabat ilində həyata keçirilmiş müvafiq əməliyyat-axtarış tədbirlərinin nəticələrini diqqətə çatdıran nazirin birinci müavini 2022-ci ildə 157 insan alveri, 3 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə 44 qanunsuz hərəkət üzrə cinayətin qeydə alındığını bildirdi: “Bundan başqa insan alveri cinayəti törətdiklərinə görə, ikisi kişi, on üçü qadın olmaqla, 15 nəfər məhkəmə məsuliyyətinə təqdim edilib. Onların barəsində məhkəmələr tərəfindən ittiham hökmü çıxarılmış 12 nəfərindən 9-u 7 ildən 10 ilədək, bir nəfər 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Hesabat ilində 94 insan alveri qurbanı (93 qadın, 1 kişi) müəyyən edilib və zərərçəkmişlərin reabilitasiyası, reinteqrasiyası üçün zəruri tədbirlər görülüb”.

Müzakirələrdən sonra İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı səsə qoyularaq qəbul edildi.

Sonra S.Qafarova gündəlikdəki 3 məsələnin beynəlxalq müqavilələrin təsdiq edilməsi barədə qanunun layihələrinin olduğunu dedi. Müzakirəyə çıxarılmış sənədlərlə bağlı əlavə təklif və rəy olmadığından səsə qoyularaq qəbul edildi.

Müzakirəyə çıxarılan sənədlər qəbul edildikdən sonra növbəti 6 məsələnin mahiyyətcə eyni olduğunu deyən S.Qafarova qanun layihələrinin Prezidentin bir məktubu ilə daxil olduğunu bildirdi və müzakirələrdən sonra ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# İnflyasiya artımı yüksək deyil

**Dövlət Statistika Komitəsindən məlumatına əsasən, cari ilin yanvar-aprel aylarında Azərbaycanda istehlak qiymətləri indeksi 2022-ci ilin eyni dövrünə nisbətən 113,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 116,6 faiz, qeyri-ərzaq məhsulları üzrə 111,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,7 faiz təşkil edib.**



Aprel ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,3 faiz, 2022-ci ilin eyni ayına nisbətən 112,8 faiz təşkil edib. Ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,3 faizə, 2022-ci ilin aprel ayına nisbətən 115,1 faizə çatıb.

Qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,3 faiz, 2022-ci ilin aprel ayına nisbətən 111,3 faiz təşkil edib.

Aprel ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından bahalaşma əsasən yağlı boyalar, mebellər, məişət cihazları, minik avtomobilləri üçün ehtiyat hissələri, ucuzlaşma isə kəsilmiş taxtalar, mobil telefonların və yazı kağızlarının qiymətlərində müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

***“Xalq qəzeti”***



# Milli ədəbiyyatımızın dünya miqyaslı ədibi

**Yarım əsrdən artıqdır ki, bədii ədəbiyyatda yeni milli estetik düşüncənin inkişafını təmin etmiş "60-cılar" nəslinin öncüllərindən olan Elçin Əfəndiyevin yaradıcılığının orbitindən çıxa bilmirik. Görkəmli nasir və dramaturq, istedadlı ədəbiyyatşünas Elçin adi insan obrazlarını əsərlərinə qəhrəman seçərək oxucuların sevimlisinə çevirən, cəmiyyət proseslərini bədii tədqiqata cəlb edən sənətkar kimi tanınıb.**

İctimai mövqeyindən, tutduğu məsul vəzifələrdən asılı olmayaraq yazıçı bilmərrə rəsmiyyətə uyan məmur olmayıb, qələmə sədaqətini zərrəcə azaltmayıb, yazıçılıq missiyasının ondan ötrü daha vacib tale yazısı olduğunu unutmayıb. Özünün dediyi kimi: zaman adlı məhək daşının sınaqlarından "xətər-ətərsiz" çıxıb; oxucuların tanıdığı kimi: yüksək ziyalılıq mövqeyini, sirli-sehrli yazı manerasını qoruyub-saxlayıb. Bu səbəbdəndir ki, gəlib yetişdiyi 80 yaşında belə gənclik şövqü, müdriklik zəkası ilə ədəbi-bədii irsini daha da zənginləşdirməkdədir.

Elçin Əfəndiyev 13 may 1943-cü ildə Bakıda, böyük yazıçı-dramaturq İlyas Əfəndiyevin ailəsində dünyaya gəlib. Uşaqlıqdan qaynar ədəbi mühitin özəyində, kitabların əhatəsində olub. Bir tərəfdən milli ədəbiyyat, folklor, o biri tərəfdən isə dünya klassikası ilə dərindən tanışlıq onun gələcək yolunun müəyyənləşməsinə ciddi təsir edib. Bu barədə danışanda deyir ki, hələ yazıb-oxumağı bacarmırdım, amma özümdən cürbəcür əhvalatlar uydurub danışırdım.

...Ötən əsrin 90-cı illərin əvvəllərində ana televiziyamızın ədəbi-dram verilişləri baş redaksiyasında çalışırdım. Həmkarım Telman Nəzərli yazıçı Elçindən olduqca maraqlı müsahibə almışdı. Veriliş efirə gedəndən sonra həmkarıma "Maraqla baxdıq, gözəl veriliş hazırlamısan", – dedim. O isə cavabında bildirdi: "Burada mənim rolum cüzi idi. Verilişi baxımlı edən Elçinin şəxsiyyəti, səmimiyyəti, yazıçı məramı və peşəkar yazıçı söhbətləri oldu".

Kəskin ictimai-siyasi təbəddülatlar dövrü olan həmin vaxt o veriliş özünün dolğunluğu, bitkinliyi, dərinliyi və cazibəsi ilə tamaşaçı auditoriyasında da geniş əks-səda doğurdu. Elçinin açıqlama və qənaətləri bir daha sübut elədi ki, əsl ədəbiyyat, yüksək sənət çeşidli iddiaların, hay-küy dolu çarpışmaların, təmənnalı fəaliyyətlərin fövqündə dayanır, heç nə istedadlı bədii düşüncənin sabitqədəmliyini poza bilməz.

Az qala, bütün əsərlərində gözəlliyin heç də uzaqda deyil, eləcə yan-yörəmizdə olduğunu göstərən Elçinin gənclik dövrü bizim yeniyetməlik çağlarımıza təsadüf etdiyinə, ya nəyəsə görə, ondan söz düşəndə öncə gözlərimiz önündə məxsusi Abşeron mentallığının mücəssəməsi olan saf, məğrur Baladadaş və onun daşlara çırpılan ilk məhəbbəti canlanır. Ədəbiyyat nəhrində get-gedə daha dərinllikərə baş vuran, yazı yelkənini daha geniş açan Elçin "Ağ dəvə", "Ölüm hökmü", "Mahmud və Məryəm" kimi şah əsərləri ilə türk ədəbiyyatı tarixində layiqli yerini tutsa da, zənnimizcə, Baladadaş onun yaradıcılığına işıq tutan ilk çıraq, istəkli obrazdır. Yazıçının Abşeronun, Bakı kəndlərinin əlvan lövhələrini sərgiləyən neçə-neçə belə hekayə və povesti 60 ildən artıqdır ki, milli ədəbiyyatımızın təravətli, barlı-bərəkətli bir axarını təşkil edir.

Tamaşaçılar onun əhatəli filmoqrafiyasına da yaxşı bələddirlər. "Arxadan vurulan zərbə", "Dantenin yubileyi", "Üç zirvənin fatehi" kimi filmlər hər zaman maraqla baxılır.

Elçin ilk qələm təcrübələrindən sözünü istedad və cəsarətlə deyən gənc yazıçı kimi tanınıb. Hələ 16 yaşında ikən "Azərbaycan gəncləri" qəzetində ilk hekayəsi çıxıb, 22 yaşında "Min gecədən biri" adlı ilk kitabı işıq üzü görüb. Oxucular illərcə onun "Beş qəpiklik motosikl"inin, "Şuşaya duman gəlib"inin, "Bir görüşün tarixçəsi"nin, "Toyuğun diri qalması"nın,"Dolça"sının... təşnəsi olublar.

Xalq yazıçısı Mirzə İbrahimov Elçinin 1979-cu ildə nəşr edilmiş "Povestlər" kitabına yazdığı "Mənəvi saflığa çağırış" adlı ön sözündə onun zaman etibarı ilə yetirməsi sayıldığı sosializm realizmi prinsiplərindən müxtəlif ədəbi priyomlarla yan gedə bildiyini təqdir etmişdi.

Milli ədəbiyyatımızın böyük dostu və bədii sözün sərrafı ulu öndər Heydər Əliyev Elçin yaradıcılığının mövzu zənginliyini və genişəhatə dairəsini belə dəyərləndirmişdi: "Elçin yaradıcılığının çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindəndir. O, ictimai fəaliyyəti ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın mənəvi birlik və həmrəyliyi işinə yüksək dərəcədə xidmət etmişdir".

Akademik Məmməd Arif "Hazırla keçmişi, ayıqlıqla yuxunu, həqiqətlə xəyalı, real hadisələrlə nağılı... daxili dialoqlardan... dramaturji səhnələrdən, mozaik parçalardan, mübaliğə... üsulundan istifadə etmək təsvirlərinin emosional qüvvəsi" ilə seçilən sənətkar kimi dəyərləndirmişdi. Professor Məmməd Cəfər yazıçıda xeyli başqa xüsusiyyətlər aşkar etmişdi: "Elçində bədii dərk duyğusu güclü və cəlbedicidir... Elçin varlığı, hadisə və insan səciyyəsini canlandırmaqda bir-birini tamamlayan bədii nüfuz üsullarından istifadə edən tərəfləri göstərir".

Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev Elçin yaradıcılığının daha alt qatlarda yatan xüsusiyyətlərə nəzər salaraq, onu "rəmzdən, bədii-fəlsəfi şərtilikdən, kəskin məcazdan istifadə edən, psixoloji əhval-ruhiyyəni detalla əyaniləşdirən mizanlar və cizgilər axtaran, onları görümlü, baxımlı obrazlara çevirən, epitetlər tapan" yazıçı kimi səciyyələndirmişdi. Ədəbi tənqidinin ümumiləşdirdiyi kimi, Elçinin nəsri və dramaturgiyası xalq yaradıcılığı nümunələrindən, folklor şüurundan, etnik-milli təfəkkür tərzindən yerli-yerində istifadə edilməsi, onları ədəbiyyata gətirilərək gələcək nəsillərə ötürülməsi ilə də diqqət çəkir. Bu baxımdan yazıçı dünənlə bugün arasında mənəviyyat ötürücüsü, körpü rolunu oynayır.

Səksənində "səksənməyən" Elçin Əfəndiyev həm də filologiya elmləri doktoru, professordur. "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. Dünyanın müxtəlif dillərində sayı 100-ü ötən kitabı nəşr olunub. Onun əsərləri ingilis, rus, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, fars, çin, çex, slovak, polyak, xorvat, gürcü, litva, moldovan, türkmən, özbək, qazax, tacik, serb və başqa dillərə tərcümə edilib. Kitablarının ümumi tirajı 5 milyondan çoxdur.

Yazıçı dünyanın bir çox ölkəsində müxtəlif elmi, ədəbi, ictimai, siyasi konfrans, simpozium, qurultay, görüş, rəsmi dövlət danışıqlarında iştirak edib. Azərbaycan parlamentinin deputatı olub. Müstəqillik dövründə aldığı "Xalq yazıçısı" adı, "İstiqlal", "Şərəf" və "Şöhrət" ordenləri, nəhayət, son layiq görüldüyü Prezidentin Fəxri Diplomu onun həyat və fəaliyyətinə, yaradıcılığına verilən yüksək qiymətlərdir.

Elçin bu gün də yorulmadan çalışmaqda, yeni maraqlı bədii əsərlər, çağdaş ədəbi prosesə rəng qatan məqalələr, görkəmli şəxsiyyətlər haqqında xatirə-esselər yazmaqdadır. Elə bir neçə gün öncə məxsusi olaraq bizim "Xalq qəzeti" üçün Heydər Əliyev şəxsiyyətinin fenomenallığı haqqında duyğu və düşüncələrini qələmə almışdı. Həmin yazıdan bir məqamı xatırlatmaq istərdik: "Yadımdadır, 1992-ci ildə Heydər Əliyev haqqında yazdığım oçerkdə mən insanların dönüklüyü kontekstində onu Kral Lirə bənzətmişdim, çünki həmin dönüklüyün və naxələfliyin yaratdığı pərişanlığın miqyasını, həqiqətən, Şekspir qələminə layiq bir səviyyədə hiss edirdim (indi o zamanın televiziya çıxışlarını, qəzet yazılarını, Ali Sovetin məşhur iclaslarını xatırlayanda eyni hissləri keçirirəm!), amma gərdişin hər üzünü görmüş qoca tarix mənim bənzətməmə öz düzəlişini etdi, Honerilya və Reqana dönüklüyünün, naxələfliyinin doğurduğu pərişanlığı məğlub etdi, Kordeliya məhəbbətinin və ehtiramının miqyası qalib çıxdı. Məhz Kordeliya məhəbbəti və ehtiramı ümumxalq məhəbbətinə və ehtiramına çevrilərək Heydər Əliyevi Naxçıvan ucqarlığından (və sürgünündən!) həmin xalqın Prezident kürsüsünə çəkib gətirdi".

Bəli, bu, Elçin Əfəndiyev yanaşmasıdır, onun orijinal və obrazlı baxış bucağıdır. Elə yazıçının fərdiliyi də görünən dağı, zirvəni şəffaf prizmadan keçirib rəngarəngliyi ilə təqdim edə bilməsindədir.

2 il əvvəl Şuşada bərpa olunan Vaqif Poeziya Günlərində Elçinin çıxışını hələ də qürurla xatırlayırıq: "Mən 40 il bundan əvvəl də burada keçirilən bu unudulmaz Vaqif poeziya bayramının iştirakçısı olmuşam. Bu gün mənim içimdəki Zəfər sevinci, fərəh və qürur hissi ilə bərabər, güclü bir təəssüf də var. Mən olduqca çox təəssüf edirəm ki, ulu öndər Heydər Əliyev bu günü görmədi, bütün varlığı ilə Şuşa sevincini yaşamadı. Ürəyi Şuşa ağrısı ilə sızlayan bir çox yazıçı və şairlər də, bir çox qarabağlı insanlar, o cümlədən İlyas Əfəndiyev də bu sevinci yaşaya bilmədilər... Mən inanıram, qətiyyən şübhə etmirəm ki, ulu öndər də, bu gün burada yeri görünən o yazıçı və şairlər də elə bu dəm yuxarıdan bizə baxırlar və hər şeyi görürlər".

Bax, beləcə, milliliyi, böyük vətənpərvərliyi ilə seçilən Xalq yazıçısı Elçin Əfəndiyevin, eyni zamanda, dünya miqyaslı tanınmış yazıçı olması şübhəsizdir. Bu, onun yaradıcılığı haqqında ölkəmizin hüdudlarından kənarda olan dəyərləndirmələrdən də aşkar görünür. Professor Abbas Zamanov on illər öncə bu gerçəyi görmüş və belə ifadə etmişdi: "Elçin Azərbaycan ədəbiyyatını yalnız respublika ölçüsündə deyil, dünya ölçüsündə araşdırır".

**Əli NƏCƏFXANLI,**
**AYB-nin üzvü**

Əzizim Elçin. Müstəqil dövlət quruculuğunda bu qədər fəal iştirak etmək kimi çətin bir xoşbəxtlik sənin heç də hər müasirinə nəsib olmayıb. Belə günlərdə doğma insanlar nə arzu edirlərsə, sənə, əziz dostum və qardaşım, onların hamısını arzulayıram.

**Oljas SÜLEYMENOV,**
**qazax şairi**

Çox hörmətli Elçin! "Parisdə avtomobil qəzası" kitabınıza heyran qalmışam. Sizin yumorunuz, sizin fantastik notlarınız və lirik verginiz mənim çox xoşuma gəlir. "Mahmud və Məryəm" çox sevdiyim və dəfələrlə oxuduğum kitablardan birini - "Min bir gecən"i mənim yadıma saldı. Sizin bu əsərinizdə mən Şərqin bütün gözəlliyini, qəddarlığını və ehtirasını tapdım.

**Ümmülbanu, yazıçı**

Elçin dünya ədəbiyyatı dəyərlərini, bu sahədəki təcrübəni mükəmməl şəkildə öz yaradıcılıq laboratoriyasından uğurla keçirən çox maraqlı bir yazıçıdır… Rejissor Devid Perri "Şekspir" pyesini oxuyub, ona valeh olmuşdu. Onun quruluşunda əsər Londonun Avanqrad teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu.

**İan PİERTDİ,**
**ingilis ədəbiyyatşünası**

Elçin möcüzələri sevir, o zərif və mehriban nağılçıdır, o kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...

**Lev ANNİNSKİ,**
**rus tənqidçisi**

Alman dilində Elçinin "Mahmud və Məryəm" və "Ağ dəvə" romanlarını oxumuşam. Onun "Ölüm hökmü" romanını isə türk dilində oxumuşam. Məncə, bu roman dünya miqyaslı bir əsərdir. Elçin mənim çox dəyərləndirdiyim azsaylı müasir yazıçılardan biridir.

**Henrix FİŞER,**
**alman şərqşünası**

Elçin çağdaş türk ədəbiyyatının böyük nümayəndəsidir. Onun yaradıcılığı sübut edir ki, sovet rejimi dönəmində də böyük türk ədəbiyyatının sanballı nümunələrini yaratmaq mümkün olub. Elçinin istedadı rejimin tələblərini üstələyə bilib, insanların daxili aləminə ideolojidən kənar olan gur işıq saçmağı bacarıb...

**Professor Mətin Turan**

Böyük nasir və dramaturq, ədəbiyyatşünas və tənqidçi Elçin müasir həyatın, real gerçəklikdəki hadisələrin, sarsıntıların və ümumiyyətlə, bütün vaqeələrin mahir müşahidəçisi olmaqla bərabər, həm də keçmiş zamanların, dünyanın ilk baxışdan bəlkə də paradoksal görünən əzəli problemlərinin mahir salnaməçisidir.

**Dmitri BALAN,**
**rumın ədəbiyyatşünası**

Elçin güclü düşüncələrin, incə duyğuların, sarsılmaz sevgilərin yazarıdır… Elçini oxumaq Azərbaycan xalqını yaxından tanımaq, Azərbaycanın uzun illər boyu milli-mənəvi dəyərlər və istiqlal uğrunda apardığı müqəddəs mücadiləni öyrənməkdir.

**Əbdüllətif BƏNDƏROĞLU,**
**İraq türkman şairi**

# Hara tələsirsən, a zalım qızı?

**Azyaşlı övladının qolundan tutub yolu nəzərdə tutulmayan, piyada zolağının olmadığı yerdə, yaxud svetaforun qırmızı işığında keçməyə çalışan gənc anaları görmüsünüz. Biz həmin an, təbii ki, onların üzləşə biləcəyi təhlükəyə görə narahat oluruq. Bəs həmin ananın qanunazidd davranışı, qaydaları pozması ilə uşağına hansı örnəyi verdiyi barədə necə, düşünürükmü?**

Bəli, yol mədəniyyəti ümumi mədəniyyətin tərkib hissəsi olmaqla hər bir xalqın mentalitetinə, milli-sakral dəyərlərinə, həyat tərzinə söykənir. İstər ölkə daxilində, istərsə də xaricdə azərbaycanlı gənclərin ictimai nəqliyyatda yaşlı insanlara, xüsusilə də, qadınlara oturmaq üçün yerini verməsi artıq vərdiş halını almış təqdirolunası mədəni davranışdır. İnsanın sivil yaşayış qaydaları kimi, yol mədəniyyəti də, ilk növbədə, ailədə formalaşmalıdır. Valideynin göstərdiyi yaxşı nümunə ən təsirli və unudulmaz təşviqat üsuludur. Fikrimizcə, yol mədəniyyəti dedikdə, bu kateqoriyaya sadəcə sərnişin-sürücü, piyada-sürücü, sürücü-sürücü, sürücü-piyada-yol polisi əməkdaşı münasibətləri deyil, həmçinin piyadalararası münasibətləri də daxil etmək lazımdır.

Sizə şahidi və iştirakçısı olduğum bir hadisəni danışım. Dayanacaqda avtobus gözləyirdim, orta yaşlı kişi çəkdiyi siqaretin kötüyünü təmizlik işçilərinin küncə yığdığı kağız topasının üstünə atdı. Az sonra kağızlar alışdı və tüstü dumanı ətrafa yayılmağa başladı. Tez əlimdəki yarımlitrlik butılkada qalmış suyu kağızların üstünə səpələsəm də, faydası olmadı. Bu mənzərəni yaxınlıqdakı marketin içərisindən görən cavan satıcı köməyə gəldi və böyük su balonunu "tonqalın" üstünə boşaltdı. Həmin siqaret alidəçisinin hərəkətinə məsuliyyətsizlik deyəcəksiniz. Bizə görə, bu hərəkətin adı mədəniyyətsizlikdir! Azərbaycanda, eləcə də dünyanın müxtəlif ölkələrində baş verən meşə yanğınlarının bir səbəbi də təbiətin qoynunda "piknik" təşkil edənlərin talaya, quru otluğa tulladıqları siqaret kötükləri deyilmi?

Mövzudan uzaqlaşmadan bildirək ki, yol mədəniyyətinin piyadalara aid payını heç unutmaq olmaz. Çünki, burada nəzəri cəlb edən birinci problem piyadaların yeraltı və yerüstü keçidlərdən istifadəyə meyilli olmamasıdır. Yolun piyada keçidi üçün nəzərdə tutulmayan hissəsində əlində zənbil, bundan daha təhlükəlisi, azyaşlı övlad(lar)ının qolundan yapışıb qaça-qaça keçməyə çalışan cavan, qoca, qadın və kişiləri məgər azmı görürük? Niyə belə edirlər? Adətən, sualın standart cavabı belə olur: - Tələsirdim. Qayda pozucusu ardınca tələsmənin səbəbini də uydurur. Həmin piyadaların cərimədən yayınmağa çalışmalarına haqq qazandırmasaq da, onları anlamaq olar. Bəs, belə məsuliyyətsiz yol subyektləri təhlükədən necə, hər dəfə yayına biləcəklərmi?

Axı, hara tələsirik? Türkiyəli qardaşlarımızın təbirincə desək, "trafik canavarı" ilə görüşəmi? Həyatını riskə atmaqla, ekstrimdən zövq almaqla yaşayanları bir kənara qoyaq, bəs normal təhsili olan, sivil yaşayış tərzinə malik insanları buna vadar edən nədir? Yenə də dolanıb mədəniyyətin üzərinə gələcəyimiz şübhəsizdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 153.1-1 maddəsinə əsasən, yol hərəkəti qaydasını pozan piyadaya 20 manat məbləğində cərimə yazılır. Dünyanın əksər ölkələrində eyni qanun pozuntusuna görə cərimənin həcmi bundan qat-qat çoxdur və bu zaman piyadaların təhlükəsizliyi ön plana çəkilir.

Bakı şəhər Dövlət Yol polisi Baş İdarəsinin məlumatına əsasən, 2022-ci ildə paytaxtın yollarında qeydə alınmış nəqliyyat qəzalarının 58 faizi piyadaların avtomobillə vurulması nəticəsində baş verən hadisələrdir. Təəssüflər olsun ki, bir çoxu ölümlə nəticələnən həmin 58 faiz qəzanın bəlkə də böyük əksəriyyəti məhz piyadaların günahı ucbatından baş verir. Bu statistikanın üzərində düşünməyə dəyər.

**Aybəniz SƏFƏROVA,**
**BDU-nun jurnalistika fakültəsinin**
**II kurs tələbəsi**

*Ekspert rəyi*



**İlqar HÜSEYNLİ,**
**sosioloq:**

Yol subyektləri sayılan piyada və sürücülərin davranışı bir-birilə sıx bağlıdır. Məsələyə məhz piyada-sürücü münasibətləri kontekstindən yanaşsaq, görərik ki, yol hərəkəti qaydalarının pozulmasında hər iki tərəfin payı var. Paytaxt sakinlərinin yaxşı bildiyi bir misal: piyadalar səkidə yolun sağı ilə hərəkət etməlidir. Amma bir çox hallarda onların yolun hərəkət zolağına çıxdığını, nəqliyyat vasitələrinə maneçilik törətdiyini və bununla da aşkar qəza vəziyyəti yaratdığını görürük. Bəzi piyadaların yolu işıqforun qırmızı işığında keçməsi hallarını hələ də müşahidə edirik. Magistral yolda nəqliyyat vasitəsinin olmadığını görən piyada yüksək sürət həddini nəzərə almır və yolun qarşı tərəfinə adlamağa çalışır. Təəssüf ki, piyadaların məsuliyyətsizliyi ucbatından belə hallar çox vaxt qəza və ölümlə nəticələnir. Bəli, piyadaların yaxınlıqdakı yeraltı, yaxud yerüstü keçidlərdən istifadə etməməsi daha çox rastlaşdığımız problemdir. Metronun "İnşaatçılar" stansiyasının giriş-çıxışlarında gün ərzində müşahidələr aparsaq görərik ki, piyadalar daha çox yerin üstü ilə birbaşa prospektin o üzünə keçməyə üstünlük verirlər. Amma əgər 10 il əvvəllə müqayisə etsək, yerüstü keçidlərdən daha çox istifadəni görərik. Eyni zamanda işıqforun qırmızı işığında da piyadaların səbirlə gözlədiyini müşahidə edirik. Çox yaxşı olardı ki, bununla bağlı təbliğat və təşviqat işləri daha da gücləndirilsin, piyadalarımız isə hər zaman yol hərəkəti qaydalarına riayət etsinlər.

*Turizm meridianı*



# Göygöldə möcüzəli yeraltı “şəhər”

## Belə alman abidələri xarici turistlər üçün cəlbedici ünvanlardır

**“Forerin evi” taxtadan, alman memarlıq üslubuna xas elementləri olan yaraşıqlı bir binadır. İlk baxışda küçədəki digər tikililərdən o qədər də seçilmir. Çünki eyvanları oyma sənəti ilə işlənmiş, taxta darvazaların yuxarı hissəsində sahibinin adı həkk olunmuş bu cür evlər Göygöl rayonunda az deyil. Konkret bu evə gəldikdə isə o vaxt alman Forer qardaşlarının malikanəsi olub.**

Qısaca məlumat verim ki, Forerin adı bu rayonda şərabçılığın tarixi və inkişafı ilə bağlıdır. 1850-ci illərdə Forer soyadlı bir nəfər Helenendorfdakı (Göygöl şəhərinin keçmiş adı) həyətində üzüm becərib, şərab çəkirmiş. Deyilənə görə, içkiyə də meylli adam imiş. Yadımdadır, uzun illər rayon memarlıq və tikinti şöbəsinə rəhbərlik etmiş, Göygölün tarixini yaxşı bilən Fikrət İsmayılov deyirdi ki, XIX əsrdə bir qrup avropalı rayonda qonaq olarkən həmin Forer haqqında onlara məlumat verirlər. Qonaqlar da onu axtarıb tapırlar. Forer onları içkiyə qonaq edir və şərab çox xoşlarına gəlir.

Qonaqlar həmin şərabdan alıb Avropaya aparırlar. Forerin şərabının şöhrəti hər yerə yayılır. Forer artıq xaricdə tanınır və onun kustar üsulla çəkdiyi şərab bir brendə çevrilir. Müştərisi çoxalan Forer isə həvəslənərək yeni boş torpaq sahələri alır və üzümlüklər salır. Sonradan isə 4 oğlunu da bu işə cəlb etməklə Avropada məşhurlaşan “Forer qardaşları” səhmdar cəmiyyəti yaradır. Yeri gəlmişkən qeyd edim ki, SSRİ dönəmində dünyanın 60-dan çox ölkəsinə özünün məhsullarını satan o zamankı Xanlar Şərab Zavodunun (indiki “Göygöl Şərab Zavodu”ASC) əsasını da alman Forer qardaşları qoyublar.

– Bilirsiniz, Göygöldə alman irsinin nümunələrini addımbaşı görmək mümkündür. Lakin “bu şəhəri almanlar salıb” fikri ilə heç cür razılaşmıram, – V.Hüseynov dediklərini əsaslandırmağa çalışır: “Onlar 18-ci əsrin 20-ci illərində bu yerlərə köçürülüblər. Nədir, burada insan yaşamırdı? Sözün deyilişinə fikir vermək lazımdır. Bəli, almanlar Göygöldə çox iş görüblər, şərabçılığın bünövrəsini qoyublar, unukal tikililəri olub, öz adət-ənənələrini yaşadıblar”.

Təbii ki, icra hakimiyyəti nümayəndəsinin dediklərində müəyyən həqiqətlər var. Məsələn, 1941-ci ildə Mikoyanın təşəbbüsü, Stalinin göstərişi ilə burada yaşayan almanlar Sibirə və Qazaxıstana sürgün edildilər. Bir qədər keçmiş yerli sakinlər gördülər ki, ermənilər yavaş-yavaş həmin alman evlərini zəbt etməyə başlayıblar. Halbuki o dövrədək Göygöldə bir nəfər də olsun erməni yox idi. Sonradan ermənilərin sayı o qədər artdı ki, onlar uzun illər rayonda rəhbər vəzifələr tutdular, hətta Qasparyan adlı birisi vəzifəcə birinci şəxs oldu.

...Rayonun sonuncu alman sakininin ev muzeyi də məndə qəribə hisslər oyatdı. Bu, Viktor Klaynın evi idi. Soruşa bilərsiniz ki, almanların hamısını 1941-ci ildə sürgün etdikləri halda Klayn bizim günlərə kimi bu şəhərdə necə qalmışdı? Məsələ burasındadır ki, milliyyəti qarışıq almanlara toxunmurdular, sürgün etmirdilər. Viktorun anası alman, atası polyak idi. Elə Stalin repressiyasından sağ qurtarmasının səbəbi də atasının milli mənşəyi idi.

“Viktorun evi” necə var, eləcə də saxlanılıb. Qədim əşyalara, məişət qablarına, az qala, 150 yaşı olan, kökdən düşmüş alman istehsalı olan pianinoya, ibadət otağına, şərab çəlləklərinə, qurğularına heyranlıqla baxdım. Dedilər ölümündən bir qədər qabaq öz vəsiyyəti ilə buranı Cənubi Qafqaz Almanlarının Mədəniyyət Mərkəzinə çevirmişik. Ev Mədəniyyət Nazirliyinin balansındadır.

1854-cü ildə almanlar tərəfindən inşa edilmiş “Lüteran” alman kilsəsində də olduq. Xeyli müddətdir ki, burada rayonun tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Amma görünür, bu yer muzey üçün müvəqqətidir. Çünki son dövrlərə kimi rayon polis idarəsinin yerləşdiyi digər tarixi memarlıq binası həm muzey, həm də digər eksponatlar nümayiş etdirmək üçün daha əlverişlidir. Həm də 2017-ci ildə Mədəniyyət Nazirliyinin balansına verilmiş Heydər Əliyev, 22 ünvanda yerləşən bu binanın bir hissəsində tarix-diyarşünaslıq muzeyi adı altında təmir işləri aparılmışdır. Baxdığım həmin hissədə bu gün alman irsi nümayiş etdirilir. Halbuki burada ərazi böyükdür, qarşısında geniş həyəti də var. Yəni açıq səma altında muzey də yaratmaq olar.

Yeri gəlmişkən, aparılmış arxeoloji tədqiqatlar zamanı rayon ərazisində eramızdan əvvəl ikinci minilliyin sonu – birinci minilliyin əvvəllərinə aid yaşayış məskənləri, kurqanlar və digər memarlıq abidələri aşkar edilmişdir. Hər yeri təmir olunduqdan sonra kilsədəki muzey eksponatlarını da bura gətirməklə həm alman irsini, rayonun qədim tarixini, orta əsrlər və müasir dövrünü, eləcə də Böyük Vətən müharibəsi dövrünü özündə əks etdirən ekspozisiya zallarının yaradılması və beləliklə də Tarix-diyarşünaslıq Muzeyinin bir ünvanda yerləşməsinə imkan yaranar. “Lüteran” alman kilsəsində isə Alman Mədəniyyət Mərkəzinin yaradılması daha münasibdir. Burada xarici ölkələrdən gələn turistləri rayonun tarixi ilə daha yaxından tanış etmək olar.

Onu da qeyd edək ki, Mədəniyyət Nazirliyi tərəfindən rayon ərazisində qeydiyyata alınmış 33 tarixi abidəni turist marşrutuna daxil etməklə turizm sahəsinin zənginləşməsinə, eyni zamanda, digər iqtisadi sahələrin də inkişafına nail olmaq mümkündür. Elə yuxarıda təsvir etdiyimiz, “yeraltı şəhər” adlandırdığımız yerin turist marşrutuna salınması rayona xeyli valyuta qazandıra bilər? Almanlar öz keçmişinə hörmətlə yanaşan, onunla qürurlanan, əcdadlarının qoyub getdikləri irslə yaxından tanış olmağa can atan xalqdır. Niyə bu imkandan istifadə etməyək?

Məlumat üçün bildirim ki, ölkə prezidentinin tapşırığına əsasən, bölgənin turizm mərkəzinə çevrilməsi istiqamətində rayonda ardıcıl iş aparılır. Bu sahənin inkişaf perspektivlərinin müəyyən edilməsi üçün işçi qrupu yaradılmış, fəaliyyət planı müəyyənləşdirilmiş və digər işlər həyata keçirilməkdədir. Daha çox yerli və xarici turist cəlb etmək üçün “Milli Yaylaq Festivalı”, Yeni ilin gəlişi ilə əlaqədar “Qış nağılı” kimi tədbirlər keçirilmişdir. Müxtəlif maraqlı işlərin həyata keçirilməsi də nəzərdə tutulur.

Daha vacib bir məsələ. İşğaldan azad edilmiş Kəlbəcərə və Laçına gedən bir yolun da Göygöl rayonu ərazisindən keçməsini nəzərə alsaq, yuxarıda sadaladığımız işlər də həyata keçdikdən sonra həmin istiqamət üzrə hərəkət edən turistlərə bölgənin zəngin tarixini nümayiş etdirmək və onların vaxtının səmərəli keçməsinə imkan yaranmış olar.

Mədəniyyət Nazirliyinin yeni rəhbərliyi tarixi-memarlıq abidələrinin qorunub saxlanması, mədəni irsin təbligi və beləliklə də ölkəyə turist axınının güclənməsi istiqamətində müəyyən işlər görməyə başlayıb. Ümid etmək olar ki, Göygöl rayonunda yuxarıda qeyd etdiyimiz məsələlər – tarix-düyarşünaslıq muzeyinin hərtərəfli təmirdən sonra bir ünvana köçürülməsi, kilsədə Alman Mədəniyyət Mərkəzinin yaradılması, alman izlərini qoruyub saxlayan zirzəminin turizm marşrutuna daxil edilməsi üçün müvafiq layihələrin hazırlanıb həyata keçirilməsi rayonda turizmin inkişafına töhfəsini verəcəkdir.

Göygöl Azərbaycanın sirli-soraqlı, qədim tarixi olan bölgələrindəndir. Burada turizm marşrutlarını tədricən şaxələndirmək və həmin istiqmətlərdə müəyyən işlər aparmaq çox vacibdir. Qəzetimizdə vaxtaşırı bu barədə digər maraqlı yazılar veriləcək.





...Forerin evinin arxadakı həyətinə, oradan da eyvanlı ikimərtəbəli binalardan birinin zirzəmisinə düşürük. Dəmir pilləkənlərlə aşağı düşdükcə hərarətin azaldığını hiss edirik. Sonra qarşımıza uzun bir tunel çıxır, daha sonra sağa-sola yollar ayrılır. Hansı yolun hara getdiyini ayırd etmək çətindir. Paralel istiqamətdə daha bir tunel, sonra daha bir neçə müxtəlif otaqlar... Sanki, bir labirintə düşmüşəm və düşünürəm ki, mənə Göygölün tarixi memarlıq abidələrinin daha yaxından tanıdılmasında böyük köməklik göstərən rayon icra hakimiyyətinin baş məsləhətçisi Vüqar Hüseynov, regional mədəniyyət idarəsinin rayon üzrə nümayəndəsi Nurəddin Babayev (BDU-nun jurnalistika fakültəsinin professoru, unudulmaz müəllimimiz Nurəddin Babayevin nəvəsi), Heydər Əliyev Mərkəzinin direktoru Araz Mehdiyev, Gənclərin İnkişaf və Karyera Mərkəzinin rayon nümayəndəsi Raul Abbaszadə yaxşı ki, buradadırlar, geri qayıdanda da yolu onlar göstərirlər.

**– Bura ki, əməlli-başlı bir şəhərdir, yeraltı şəhər, deyə heyrətimi gizlədə bilmirəm.**

– Heç sakinlərin böyük əksəriyyəti bilmir ki, yaşadıqları şəhərdə yaraltı bir “şəhər” də var, – deyə Vüqar Hüseynov söhbətə aydınlıq gətirir, rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev eşidən kimi bura gəldi. Qapılar bağlı, içəri də keçmək mümkün deyildi. Çünki tullantılar, torpaq qalağı girişi tutmuşdu, həm də içəri qaranlıq idi. Dərhal göstəriş verdi, böyük bir iş başlandı. Buradan onlarla maşın tör-töküntü çıxarıldı, səliqə-səhman yaradıldı, işıq xətləri çəkildi...

Hiss etdim ki, həm Vüqar Hüseynov, həm də bu gənc kadrların hər biri doğma rayonun, Göygöl şəhərinin tarixini dünyaya tanıtmaq üçün başlanan işin, yeni turizm layihəsinin böyük fayda verəcəyinə əmindirlər.



**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri,**

**Göygöl rayonu**

*Həmkarımızın xatirəsi*

**Mayın 12-də “Xalq qəzeti” redaksiyasında Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin təşkilatçılığı ilə mərhum tədqiqatçı, jurnalist, yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Ənvər Çingizoğlunun vəfatından sonra işıq üzü görmüş, çoxillik tədqiqatlarının nəticəsi olan “Qarabağ ruhaniləri” kitabının təqdimatı keçirilib.**

# Ənvər Çingizoğlunun “Qarabağ ruhaniləri” kitabının işığında





“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov qeyd edib ki, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə işıq üzü görmüş bu kitab milli tariximizin mühüm səhifələrindən olan Qarabağ din xadimlərinin və inanc adamlarının yaradıcılığının dünyaya tanıdılması baxımından qiymətli nəşrdir. Natiq qeyd edib ki, bu kitabın indi – İkinci Qarabağ müharibəsindəki tarixi Qələbədən sonra başdan-başa yenidən qurulan və bərpa edilən Qarabağda gedən quruculuq işləri və mədəni bərpa layihələri ilə üst-üstə düşməsi də təsadüfi deyil.

Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu qeyd edib ki, bu qəbildən olan tədbirlərin keçirilməsi bir tərəfdən dünyasını dəyişmiş həmkarlarımızın xatirəsinin anılması, ehtiramla yad edilməsidirsə, digər tərəfdən də gərgin axtarışların nəticəsi olan dəyərli tarixi materialların təbliği baxımından xüsusi önəm kəsb edir. O əlavə edib ki, biz “Xalq qəzeti” redaksiyası olaraq, mətbuatımızın inkişafına, milli-mənəvi dəyərlərimizin təbliğinə töhfələr vermiş istənilən kitabın təbliğində maraqlıyıq.

Mənəvi Dəyərlərin Təbliği Fondunun sədr müavinin Hatəm Gülməmmədov, Ahıl Jurnalistlər Məclisi sədrinin müavini Əminə Yusifqızı, məclisin üzvlərindən Tahir Talıblı, Valeh Mirzə, Akif Cabbarlı, Vasif Quliyev, Mübariz Süleymanlı, kitabın elmi redaktoru, dosent Şəhla Nuruzadə, tarixçi alim Nazim Qafuroğlu, rəssam Rafael Gülməmmədov, Ənvər Çingizoğlunun bacısı Arəstə Ağakişiyeva, qardaşı Tapdıq Əzimov, Şuşa sakini, keçmiş hərbçi Fəxrəddin Səfərov və digər natiqlər Ənvər Çingizoğlu yaradıcılığının bədii və elmi məziyyətlərindən söz açmış, onun çoxsaylı tədqiqat əsərlərindən, yorulmaz fəaliyyətindən danışmış, doğulub böyüdüyü Füzuli rayonunda xatirəsinin əbədiləşdirilməsini təklif etmişlər.

Xatırladaq ki, ötən il 60 yaşı tamam olmuş Ənvər Çingiz oğlu Fərəcov 1990-cı ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirmişdi. Bir müddət Füzuli rayonundakı “Araz” qəzetində ədəbi işçi, 1994–2014-cü illərdə Azərbaycan Televiziyası və Radiosunda müxtəlif vəzifələrdə işləmişdi. 2014-cü ildən “Azərbaycantelefilm” Yaradıcılıq Birliyində baş redaktorun müavini olub, eyni zamanda “Soy” dərgisinin baş redaktoru kimi fəaliyyət göstərirdi.

İstedadlı və çalışqan soydaşımız ömrünün 30 ilə yaxın bir dövrünü Azərbaycan xalqının folklor və etnoqrafiyasının araşdırılmasına həsr etmişdi. Həmçinin ölkəmizin xanlıqlar dövrü, Cənubi Azərbaycan tarixi, eləcə də Qarabağ elinin məşhur simaları ilə bağlı tədqiqatlar aparmış, bir sıra məşhur soyların şəcərəsini öyrənmişdi. Həmin istiqamətdəki araşdırmalarının nəticələri onlarla kitab vasitəsilə ictimaiyyətə çatdırılmışdır. Tərtib etdiyi “Məhəmməd bəy Aşiqin şeirləri”, “Rzaqulu bəy Vəzirovun əsərləri”, “Qarabağ 1918–1920-ci illərdə”, “Bayram xan Baharlı. Əsərləri” , “Məhəmməd Rəfi Ənsari. Dəstur ül-müluk” , “Mirzə Rza xan Ərfə. Xatirat” və başqa kitabları ölkəmizdə və xaricdə maraqla qarşılanmışdır.

Televiziya tamaşaçıları onun senarisi əsasında çəkilmiş “Avşarlar”, “Xurşidbanu Natəvan”, “Zəngəzur qartalı”, “Nəvvab”, “Sarı simin sızıltısı” , “Kəminə” və başqa sənədli filmləri də maraqla izləmişlər.

... Tədbir keçirilən zalda – onun fotosunun önünə qızıl güllərin ən ətirlisi olan Qırxyarpaq güllər də düzülmüşdü. Redaksiyadan Qarabağın ətri gəlirdi.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”,**
**Foto Səbuhi MƏMMƏDOVUNDUR**

# Ermənistan ordumuzun Kəlbəcərdəki bir neçə mövqeyinə zərbə PUA-ları tətbiq edib

**Mayın 11-i və 12-də Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonundakı bölmələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bir neçə mövqeyinə qarşı müxtəlif istiqamətlərdən zərbə PUA-ları tətbiq edilib.**





Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən hava hədəfləri vaxtında aşkar edilib və radioelektron mübarizə vasitələrinin tətbiqi nəticəsində onlar hədəfə çatmadan zərərsizləşdirilib.

Təqdim olunan foto materiallarda zərbə PUA-larının qalıqları əks olunur.

# Türkiyə: Seçkilərə bir gün qalır

**Sabah qardaş Türkiyədə bu ölkənin gələcək taleyində dərin iz qoyacaq ümumi seçkilər keçiriləcək. Seçicilər öz vətəndaşlıq borclarını yerinə yetirərək qarşıdakı beş il müddətə dövlət başçısını və parlamentin yeni tərkibini seçəcəklər. Seçkilərin yüksək seçici fəallığı şəraitində keçəcəyi gözlənilir.**



Bütün dünya indi Türkiyədə keçiriləcək 14 may seçkilərinin nəticələrini böyük səbirsizliklə gözləyir. Seçkilərdən gözləntilər çoxdur. Qərbin bəzi siyasi dairələri hətta seçicilərin mövqelərinə açıq-aşkar təsir göstərməyi özlərinə rəva bilirlər. Rəsmi Ankara isə buna təpki ilə cavab verir.

Ümumən Türkiyədə prezident seçkiləri beş ildən bir keçirilir. 2018-ci ildə baş tutmuş seçkilərdə hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan böyük səs çoxluğu ilə siyasi rəqibi, ana müxalifət partiyası sayılan CHP-nin o vaxtkı vahid namizədi Məhərrəm İncə üzərində qələbə qazanmışdı.

M.İncə bu dəfə də seçkilərə qatılmışdı. Ötən ilin sonunda ayrıca Məmləkət Partiyası yaradaraq, yenidən prezidentliyə iddiasını ortaya qoymuşdu. Lakin iki gün əvvəl namizədliyini gözlənilmədən geri götürdü. Bu, aydın səmada şimşək çaxması təsiri yaratdı və böyük sensasiyaya səbəb oldu. Nəticədə çox sayda şayiələr yayıldı.

Dünən M.İncə NTV telekanalına müsahibəsində “qəfil qərar”ını şərh edərək belə deyib: "Mən 40 ildən çoxdur ki, siyasətdəyəm, amma bu illər ərzində son 45 gündə baş verənlərə bənzər bir şey görməmişdim. Hansısa saxta çeklər, qurama videolar yayılır. Şəklim İsrailin hansısa pornosaytında yerləşdirilir. Nə polis, nə də prokuror araşdırma aparmır. Bu, böhtandır”.

Bir çox təhlilçilər hesab edirlər ki, M.İncənin prezidentliyə namizədliyini geri götürməsi heç də müxalifətin vahid namizədi Kamal Kılıçdaroğluna kömək etməyəcək. Məsələn, “Hürriyyət" qəzeti yazıb ki, etibarlı şirkətlərin apardığı sorğulara görə, K.Kılıçdaroğlu 47 faizdən çox səs toplaya bilməyəcək. Seçkilər ilk turda başa çatacaq, R.T.Ərdoğan 50 faizdən bir qədər çox səslə qalib gələcək.

Xatırladaq ki, bu, Türkiyədə kifayət qədər nüfuzlu və populyar olan “Hürriyyət” qəzetinin mövqeyidir. Əks mövqelərdə duranlar da az deyil. Bütün hallarda biz Türkiyənin sabitlik və əmin-amanlıq şəraində öz inkişaf və tərəqqi yolunu davam etdirməsini arzulayırıq. Ölkə qazanarsa, bundan bütün türk dünyası faydalanacaq.

Beləliklə, M.İncənin namizədliyini geri götürməsindən sonra Türkiyədə mayın 14-də keçiriləcək prezident seçkilərində mübarizə aparacaq namizədlərin sayı 3-ə düşüb. Bunlar yuxarıda adlarını çəkdiyimiz AKP və CHP liderlərindən başqa, “Ata İttifaqı”nın namizədi Sinan Oğandır.

Türkiyə son günlər olduqca qaynar siyasi həyat yaşayır. Prezidentliyə namizədlərin təbliğat və təşviqat avtobusları musiqinin müşayiəti ilə kəndbəkənd, şəhərbəşəhər, bütün Türkiyəni dolaşır. Seçicilərlə görüşlərdə çoxlu vədlər verilir. Prezidentliyə namizədlər və onların tərəfdarları bu yolla seçicilərin rəğbətini qazanmağa çalışırlar.

Bu gün axşam saat 6-dan etibarən Türkiyədə təbliğat və təşviqat kampaniyası dayandırılacaq. Seçkilərlə bağlı mövcud qanunvericiliklə, həmçinin, səsvermədən 10 gün sonra da seçkilərin nəticələri ilə əlaqədar rəy sorğuları keçirməyə, bu və ya digər namizədin lehinə, yaxud əleyhinə şüarlar irəli sürməyə icazə verilmir.

Bu gün prezidentliyə namizədlər Türkiyənin ictimai televiziyası—TRT telekanalında son dəfə xalqa müraciət edəcəklər. Onların proqamları təxminən bəllidir. Bəzi məqamları yada salmağa ehtiyac duyuruq.

Böyük ehtimalla AKP lideri R.T.Ərdoğan nitqində son iki onillikdə başçılıq etdiyi iqtidarın qazandığı uğurlardan bəhs edəcək, partiyasının irəli sürdüyü “Türkiyə əsri” ideallarının icra olunması üçün dövlətin və millətin bir yerdə olmasının vacibliyindən söz açacaq. Onun əsas proqramı “Güvən və sabitlik” şüarı üzərində qurulub.

“Millət İttifaqı”nın namizədi K.Kılıçdaroğlunun ölkədə korrupsiyaya qarşı mübarizə aparmaq niyyətində olduğundan, Avropa İttifaqına üzvlük ilə əlaqədar müzakirələrin yenidən gündəmə gətiriləcəyindən, NATO ilə əlaqələrin yaxşılaşdırılmasının əhəmiyyətindən söz açacağı gözlənilir.

O ki qaldı, ATA ittifaqının prezidentliyə namizədi Sinan Oğana, onun TRT telekanalında nədən bəhs edəcəyi də bəllidir. Azərbaycan əsilli bu siyasətçi seçkiqabağı kampaniyasını əsasən qaçqınların öz ölkələrinə geri qayıtmaları tələbi üzərində qurub. Türkiyədə hazırda Suriya, İraq, digər ərəb və Afrika ölkələrindən olan 13 milyona yaxın miqrant məskunlaşıb. S.Oğan hesab edir ki, vətəndaşlığı olmayan əcnəbilər ölkənin ictimai-siyasi həyatında sabitliyin bərqərar olunması üçün təhlükədirlər.

Sonda xatırladaq ki, namizədlərdən heç biri 50 faiz plyus bir səs toplaya bilməzsə, iki həftədən sonra, yeni mayın 28-də prezident seçkilərinin ikinci turu keçiriləcək.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*

**Atamoğlan MƏMMƏDLİ,**
**Bakı Dövlət Universitetinin professoru, politoloq:**



Türkiyə yüksək seçki mədəniyyəti ənənələrinə sahib olan sivil, demokratik ölkədir. Zərrə qədər şübhə etmirəm ki, 14 may seçkiləri qardaş ölkədə yüksək seçici fəallığı şəraitində keçəcək.

Beş il bundan əvvəl keçirilən seçkilərdə seçici fəallığı 85 faizdən yüksək olub. Builki seçkilərdə rəqabət mühitinin daha yüksək olduğunu nəzərə alsaq, səsvermədə seçicilərin böyük hissəsinin fəal iştirakını ehtimal etmək mümkündür.

Bu seçkilərin təkcə Türkiyə üçün deyil, bütün region dövlətləri, eləcə də türkdilli xalqlar üçün böyük əhəmiyyəti var. Bu gün dünyanın yeni düzəni formalaşır. Bu proses artıq həlledici mərhələyə qədəm qoyub. Fikrimcə, çox şey Rusiya-Ukrayna müharibəsinin nəticəsindən asılıdır. Türkiyənin güclü və qüdrətli olması son dərəcə vacibdir.

Rəsmi Ankaranın düşmənləri qardaş ölkənin zəif və gücsüz olmasını arzulayır. Lakin türklər dostlarının və düşmənlərinin kimlər olduğunu yaxşı bilirlər. Əminəm ki, müdrik və yenilməz türk xalqı prezidentliyə ən layiqli namizədə səs verəcək. Bu taleyüklü tarixi məqamda yanlışlığa yol vermək olmaz.

Seçkilərlə bağlı bəzi statistik rəqəmləri də oxucuların diqqətinə çatdırmaq istəyirəm. Hazırda Türkiyədə 64,1 milyon seçici qeydə alınıb. Onlardan 32,3 milyon nəfəri qadın, 31,8 milyon nəfər kişilərdir. Ölkədə bir milyona yaxın əlil seçici var. Seçicilərin 3,2 milyon nəfəri isə yaşı 75-i ötən insanlardır. Səsvermə günü əlil və ahıl seçicilərin öz vətəndaşlıq borclarını yerinə yetirmələri üçün uyğun şərait yaradılacaq.

Xarici ölkələrdə yaşayan Türkiyə vətəndaşları üçün dünyanın 74 ölkəsində səsvermə məntəqləri təşkil olunub və həmin dövlətlərdə səsvermə mayın 9-da başa çatdırılıb. Bülletenlərin böyük əksəriyyəti Türkiyəyə gətirilərək Yüksək Seçki Şurasına (MSK) təhvil verilib.

Türkiyədə səsvermə məntəqələri mayın 14-də səhər saat 8-də açılacaq və axşam saat 17-də prosedur başa çatacaq. Hər bir səsvermə məntəqəsi 360-dan 400-ə qədər seçicinin səs verməsi üçün nəzərdə tutulub. Buna görə də orada bir qayda olaraq səsvermə zamanı böyük növbələr yaranmır.

Ölkədə saat 6-dan gecə saatlarına qədər spirtli içkilərin satışı qadağan edilib. Qeyd etmək lazımdır ki,, seçkilərin ertəsi günü mayın 15-də də məktəblər bağlı olacaq.

**Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) may ayının ilk günlərində yaydığı hesabata əsasən, bu təşkilatın apreldə neft hasilatı mart ayı ilə müqayisədə sutkada 191 min barel azalaraq gündəlik 28,6 milyon barelə enib. Hesabatda daha sonra ikinci dərəcəli mənbələrin məlumatına istinad olunaraq, cari ilin aprel ayında 13 OPEC ölkəsinin ümumi neft hasilatının sutkada orta hesabla 28,6 milyon barel təşkil etdiyi, bunun isə əvvəlki ayla müqayisədə sutkada 191 min barel az olduğu bildirilib. Neft hasilatı əsasən Səudiyyə Ərəbistanı, Anqola və İranda artıb, İraq və Nigeriyada isə azalıb.**

# OPEC apreldə sazişi 202 faiz yerinə yetirib

OPEC-in 13 ölkəsindən 10-u OPEC+ sazişi çərçivəsində aprel ayında hasilatı 2022-ci ilin avqust ayındakı hədəf səviyyəsindən gündəlik 1,273 milyon barel azaltmaqla bağlı öhdəliyə malik idi. Amma faktiki olaraq bu rəqəm son nəticədə 2,573 milyon barel təşkil etdi. Beləliklə, OPEC hasilatı planlaşdırıldığından sutkada 1,3 milyon barel çox azaldaraq sazişi 202 faiz yerinə yetirdi.

Qurumun may ayı hesabatında, həmçinin OPEC-in 2023-cü ildə ABŞ-ın neft hasilatı ilə bağlı proqnozunu əvvəlki təxmin səviyyəsində saxladığı deyilir. Aprel ayından əvvəlki hesabatda olduğu kimi, may hesabatında da göstəricinin sutkada



0,69 milyon barel artaraq 12,57 milyon barelə çatacağı gözlənilir. Hesabatda hasilat proqnozu qazma və quyuların tamamlanmasının yüksək səviyyəsi ilə izah olunur.

OPEC-in məlumatına görə, 2021-ci ildə ABŞ-da neft hasilatı sutkada 11,25 milyon barel, 2022-ci ildə isə 11,89 milyon barel təşkil edib. Təşkilatın hesabatında, eyni zamanda, OPEC-in 2023-cü ildə qlobal neft tələbinin gündəlik 2,3 milyon barel artacağı proqnozlaşdırılır.

Hesabatda daha sonra deyilir: “2023-cü il üçün qlobal neft tələbatının artımı əvvəlki ayın qiymətləndirməsi ilə eynidir və gündəlik 2,3 milyon barel təşkil edir. Həmçinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrində artım 0,07 milyon barel, İƏİT-ə daxil olmayan ölkələrdə isə təxminən 2,3 milyon barel olacaq”. Beləliklə, 2023-cü ildə ümumi qlobal neft tələbatı sutkada 101,9 milyon barelə çatacaq.

Xatırladaq ki, bu proqnoz bir çox qeyri-müəyyənliklərdən, o cümlədən qlobal iqtisadiyyatın inkişafından və davam edən geosiyasi gərginlikdən asılıdır.

Sonda qeyd edək ki, OPEC neft ixrac edən ölkələr tərəfindən neftin qiymətinin tənzimlənməsi məqsədi ilə 1960-cı ildə Bağdadda keçirilən konfransda yaradılıb. Əvvəlcə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela təşkilata daxil olub. Bu 5 ölkəyə sonradan Qətər, İndoneziya, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola və Ekvatorial Qvineya da qoşulub.

Təşkilatın qərargahı 1965-ci ildən Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Hazırda OPEC-in 13 üzvü var. Qeyri-OPEC ölkələri (Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudan) təşkilatla “OPEC plus” formatında sıx əməkdaşlıq edir. “OPEC plus” əməkdaşlığının əsas məqsədi dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.

Azərbaycanın OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə aktivləşib. Dünya enerji bazarında neftin qiymətinin tənzimlənməsi məqsədilə 2016-cı il aprelin 17-də Qətərin paytaxtı Dohada OPEC-ə üzv və qeyri-OPEC neft hasil edən ölkələrin təmsilçilərinin toplantısı olub. Doha sammitində neft ixrac edən ölkələrin OPEC təşkilatının əksər üzvləri, habelə Azərbaycan və Rusiyanın nümayəndələri də iştirak ediblər.

Keçən il yanvarın 4-də OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 24-cü iclası keçirilib. İclasda qlobal neft bazarında sabitliyə və balansa dəstək məqsədilə gündəlik neft hasilatının fevral ayında 400 min barel artırılmasına dair qəbul edilmiş qərara Azərbaycan da razılıq verib.

Yeni “Əməkdaşlıq Bəyannaməsi” Azərbaycanda gündəlik xam neft hasilatının 2022-ci ilin fevralında daha 7 min barrel artırılaraq 668 min barrelə çatdırılmasını, ixtisarla bağlı öhdəliyin isə 50 min barrel həcmində olmasını nəzərdə tutur.

Onu da qeyd edək ki, ötən ilin fevral ayında OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 25-ci iclasında qlobal neft bazarında balansın təmin olunması məqsədilə gündəlik neft hasilatının 400 min barrel artırılması planının martda davamına dair qərar imzalanıb. Yeni razılaşma Azərbaycanda gündəlik xam neft hasilatının 2022-ci ilin martında daha 7 min barrel artırılaraq 675 min barrelə çatdırılmasını, ixtisarla bağlı öhdəliyin isə 43 min barrel həcmində olmasını nəzərdə tutub.

Keçən ilin oktyabr ayında OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin Vyanada keçirilən 33-cü iclasında 2022-ci ilin noyabrından gündəlik xam neft hasilatının 2 milyon barel azadılması ilə bağlı qəbul edilmiş qərara Azərbaycan da razılıq verib. Yeni qərara əsasən, Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barrel təşkil edir. Beləliklə, “OPEC plus” razılaşması 2022-ci ilin noyabrından etibarən ölkəmizdə gündəlik xam neft hasilatının avqust ayındakı səviyyədən, yəni 717 min barreldən azaldılaraq 684 min barrel həcmində saxlanılmasını nəzərdə tutur.

Cari ilin əvvəlində isə OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin onlayn formatda keçirilən 34-cü iclasında 2022-ci ilin oktyabrında qəbul edilmiş qərarın qüvvədə saxlanılmasına Azərbaycan da razılıq verib. Beləliklə, “Əməkdaşlıq Bəyannaməsi”nin iştirakçı ölkələrinin cari ilin avqust ayındakı kvotalarına nəzərən müəyyənləşdirilmiş öhdəlikləri sabit saxlanılır. Azərbaycanın da ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barrel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min barrel həcmində olmaqla dəyişməz qalır.

***“Xalq qəzeti”***

# Baxmut uğrunda döyüşlər şiddətlənib

**Ukraynada dünən gün ərzində cəbhənin bir çox istiqamətlərində ağır silahlı qarşıdurmalar davam edib. Ən qızğın döyüşlər isə Donetsk vilayətinin şərqində yerləşən Baxmut şəhərində baş verib. Bu barədə məlumatı UNİAN agentliyi yayıb.**



Rusiya səkkiz aydan çoxdur ki, bu şəhəri nəyin bahasına olursa-olsun ələ keçirməyə can atır. Ukrayna hərbçiləri isə buranı fədakarcasına müdafiə edirlər. Baxmut uğrunda qanlı döyüşlərdə hər iki tərəfdən minlərlə hərbçi həlak olub. Şəhər demək olar ki, yerlə-yeksan olunub. Orada bir dənə də olsun salamat bina yoxdur.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının cəbhədəki son durumla bağlı gündəlik operativ məlumat bülletenində bildirilir ki, dünən Rusiya ordusunun Baxmut istiqamətindəki hücum cəhdləri uğursuz olub. Həmçinin Rusiya qoşunlarının Avdiyivka şəhəri istiqamətində hücumunun da qarşısı alınıb. Bundan başqa Marinka şəhəri istiqamətində də uğur qazana bilməyiblər.

Baş Qərargahın yaydığı məlumata görə, Rusiya son sutkada Ukrayna ərazisinə raket sistemlərindən 53 zərbə endirib: “Mülki əhali arasında xəsarət alanlar var. Bundan başqa, xeyli sayda fərdi yaşayış binası, mülki infrastruktur dağılıb və zədələnib”.

Xəbərdə həmçinin bildirilir ki, ötən sutka ərzində Ukraynanın Hərbi Hava Qüvvələri Rusiya Ordusunun şəxsi heyəti və hərbi texnikasının cəmləşdiyi 4 əraziyə zərbələr endirib. Qarşı tərəfin 5 müxtəlif tipli PUA-sı məhv edilib. Raket qoşunları və artilleriya bölmələri isə rəqibin 1 zenit-raket kompleksini, 1 yanacaq-sürtkü materialları anbarını, atəş mövqeyində olan 2 artilleriya qurğusunu, həmçinin radioelektron döyüş məntəqəsini vurub.

Rusiya Silahlı Qüvvələrinin məlumatında isə deyilir ki, dünən sutka ərzində cəbhənin şimal və cənub istiqamətlərində Ukrayna Ordusunun mövqeləri havadan və ağır artilleriya qurğularından aramsız atəşə tutulub. Nəticədə xeyli texnika sıradan çıxarılıb. Ölən və yaralananların olduğu bildirilir.

Qeyd etmək lazımdır ki, bəzi siyasi mənbələrin iddialarının əksinə olaraq, Qərbin Ukraynaya hərbi dəstəyi azalmayıb. Belə ki, bir çox Avropa dövlətləri hərbi yardımları davam etdirir. Məsələn, Çexiyanın yaxın vaxtlarda ukraynalı hərbçilərə iki ədəd “Kub” hava hücumundan müdafiə (HHM) sistemi verəcəyi barədə xəbər yayılıb.

Çexiya radiosu ölkə Prezidenti Petr Pavelə istinadən məlumat yayıb ki, Çexiya Ukrayna hərbçilərinin idarəetməsində böyük təcrübəyə malik olduğu hava hücumundan müdafiə komplekslərini Ukraynaya hədiyyə edəcək. Ukrayna müdafiə sistemləri üçün raketlər də alacaq.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer RBB radiostansiyasına müsahibəsində bildirib ki, “Ukraynada baş verən hadisələr uzunmüddətli perspektivdə Avropada təhlükəsizliklə bağlı nizamın məhvinə gətirib çıxarıb”.

Onun sözlərinə görə, hətta, Ukraynada münaqişənin sona çatması belə köhnə təhlükəsizlik fəlsəfəsinə qayıtmaq demək deyil: “Yeni vəziyyət yaranacaq: bir tərəfdən Avropa, digər tərəfdən Rusiya bir-birindən müdafiə olunmağa çalışacaq”.

Almaniya Prezidentinin fikrincə, ümumi təhlükəsizlik fəlsəfəsi uzunmüddətli perspektivdə ümumi anlayış olmaqdan çıxacaq: “Təəssüf ki, bu, Ukraynadakı münaqişənin nəticəsidir”.

Sonda bildirək ki, Ukraynada 400 gündən çox davam edən müharibədə hər iki tərəfdən on minlərlə hərbçi, eləcə də dinc sakinlər həlak olub. Bu qanlı silahlı qarşıdurmanın nə vaxt bitəcəyi isə bəlli deyil.

***M.HACIXANLI,***
***“Xalq qəzeti”***

Şəhidlər ölməz

# Ağstafalı şəhid son mənzilə yola salındı

**– Övladlarımın yaşca ən kiçiyi idi. Hamısı mənim balamdır, əzizlərimdir, amma nə gizlədim, sanki onunla nəfəs alirdım. Deyirdi ordudan başqa heç yerdə qulluq etmək, işləmək fikrim yoxdur. Mən yalnız hərbçi peşəsini seçmişəm. Özü də bir gün əvvəl danışmışdıq. Dedi ki, sabah, yəni mayın 12-də evə gələcəyəm. Özünü gözləyirdik, tabutu gəldi…**

Şəhid Orxan Novruzalizadənin atası Elxan Novruzəliyev bu sözləri deyib üzünü yana çevirərək hönkürdü. Toxdaqlığını saxlamaq istəyirdi, bacarmadı. Səsi titrəsə də, ətrafına toplaşanlara baxmadan astadan "Vətən sağ olsun!" – deyə bildi.



…Əvvəlcə Ağstafanın Vurğun qəsəbəsində, doğma evində vida mərasimi keçirildi. Sonra da doğulub boya-başa çatdığı həmin qəsəbənin qəbiristanlığında dəfn olundu.

Dəfn mərasimində rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, Müdafiə Nazirliyinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin döyüş yoldaşları, ictimaiyyət nümayəndələri iştirak etdilər.İcra hakimiyyətinin başçısı üçrəngli Azərbaycan Bayrağını şəhidin atası



Elxan Novruzəliyevə təqdim etdi.

Qeyd edək ki, hələ 25 yaşı tamam olmamış Orxan Novruzalizadənin özündən başqa daha bir qardaşı, iki bacısı var. O, evin sonbeşiyi idi. Zəhmətkeş bir ailədə böyümüşdü. Orxanı tanıyan hər kəs ona sakit təbiətinə, vətənsevər, layaqətli bir gənc olduğuna görə dərin rəğbət bəsləyirdi.

Məlumat üçün bildirək ki, Orxan Novruzalizadə 44 günlük Vətən müharibəsinin də iştirakçısı idi və "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdi. Srağagün, mayın 11-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində törətdiyi növbəti təxribat zamanı xidməti döyüş tapşırığını şərəflə yerinə yetirərkən şəhid olmuşdur. Allah rəhmət eləsin!

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***
**Ağstafa**

# İsveçli səyyahlar Qarabağ və Şərqi Zəngəzurda

## *Şəhər və kəndlərin vəhşiliklə dağıdılması məyusedicidir*

**Bu günlərdə Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına – Qarabağ və Şərqi Zəngəzura səfər edən İsveçin beynəlxalq səyahətçilər elitasının cəmləşdiyi "Klub 100" təşkilatının, 30 nəfərdən çox heyəti Füzuli, Xocavənd və Ağdam rayonlarında olublar.**



Uzun illər işğal altında qalan torpaqlarımızda dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini və mədəni abidələrə baxış keçirilib. Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşiliklər, şəhərlərin, kəndlərin xarabalığa çevrilməsi xarici səyyahları dəhşətə gətirib. Bununla yanaşı, onlar torpaqlarımızın işğaldan azad olunmasından sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə də yaxından tanış olublar.

Ermənistan işğalından azad olunmuş Ağdam şəhərinə səfər edən isveçli səyyah **Ulla Gytel** ölkənin hər hansı bir hissəsinin bu şəkildə məhv edilməsinin, həqiqətən, kədərli olduğunu bildirib. Qeyd edib ki, insanların əraziləri yenidən qurmağa çalışmaları və minalardan təmizləmələri sevindirici haldır. Səyyah bu prosesin çox çətin olduğunu deyib.

Füzuli rayonunda olan səyyah **Stig Lindgren** isə Qarabağda görülən işlər, minaları təmizləmək üçün ANAMA əməkdaşlarının özlərini riskə atmalarının fədakarlıq olduğunu bildirib: "Mən Birləşmiş Millətlər Təşkilatının Livanın cənub ərazisində mina əleyhinə proqramında iştirak etmişəm. Orada dörd əməkdaşımız həlak olub və buna görə bizə Nobel Sülh Mükafatı təqdim olunub. ANAMA əməkdaşlarının fəaliyyətinə görə onlara da bu mükafat verilməlidir".

Səyyah qeyd edib ki, Qarabağda gördükləri, xüsusilə mina ilə bağlı təhlükəni bacardıqları qədər dünya ictimaiyyətinə çatdıracaqlar.

Xocavəndə səfəri edən **Lena Fihr** isə Qarabağda şəhər və kəndlərin bu qədər vəhşiliklə dağıdılmasının onları çox məyus etdiyini bildirib. Deyib ki, dağıdılmış evlərin kərpicləri niyə çıxarılaraq aparılıb, başa düşmür. Burada hər yerdə şahidi olduqları dağıdılmış evlər və abidələr onları çox kədərləndirir. Səyyah onu da vurğulayıb ki, təhlükəsiz əraziləri tapmaq çətin olduğu üçün bəzi yerlərə səfər etməyə icazə yoxdur. Lakin bu ərazilərin gözəl təbiəti və mənzərələri var.

Qeyd edək ki, "Klub 100"un İdarə Heyətində təmsil olunan **Bengt Hildebrandın** rəhbərliyi altında regional klubun üzvlərinin 3 gün ərzində avtomobil yolu ilə Füzuli – Xocavənd – Ağdam – Tərtər – Kəlbəcər – Laçın –Zəngilan – (Xudafərin) xətti üzrə hərəkəti nəzərdə tutulub. İşğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması üçün bu səfərin müstəsna əhəmiyyəti var.

Xatırladaq ki, dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin – ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels" Klubunun geniş tərkibdə heyətlərinin ötən 2 ildə 6 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, biri isə 2023-cü ildə baş tutub. İsveçdən olan səfər isə sayca 7-cidir. Bu səfərlər çərçivəsində dünyada tanınan 200-dən çox səyyah Qarabağ və Şərqi Zəngəzurla yerində tanış olub.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ

## *Layihələr üzrə konseptual təkliflərin hazırlanması məqsədilə*

# MÜSABİQƏ ELAN EDİR

İşğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işlərində memarların iştirakını təmin etmək, həmçinin layihələrin icrası zamanı yaradıcı yanaşmaların tətbiqinə şərait yaratmaq məqsədilə Qarabağ İqtisadi Rayonunda Bərpa Tikinti və İdarəetmə Xidməti tərəfindən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin köməyi ilə aşağıdakı layihələr üzrə konseptual təkliflərin cəlb edilməsi həyata keçirilir.

**Layihələrin adları:**

Füzuli şəhərinin giriş kompleksinin (şəhərə giriş) konseptual həllinin hazırlanması.

Ağdam şəhərinin giriş kompleksinin (şəhərə giriş) konseptual həllinin hazırlanması.

Hadrut qəsəbəsinin giriş kompleksinin (qəsəbəyə giriş) konseptual həllinin hazırlanması.

Ağdam şəhərində Şəhidlər xiyabanının və memorial kompleksinin konseptual həllinin hazırlanması.

Konseptual təkliflərin hazırlanması üçün əsas – layihə tapşırığı.

Təşkilati –hüquqi sənədlərin təqdim edilməsi üçün son tarix və saat - 19 may 2023-cü il saat 18.00-dır.

Konseptual təkliflərin təqdim edilməsi üçün son tarix və saat - 5 iyun 2023-cü il saat 18.00-dır.

İştirak etmək istəyən layihəçilər tərəfindən aşağıdakı sənədlərin və məlumatların hər iki elektron ünvana (**a.babayeva@qbti.gov.az, office@arxkom.gov.az**) göndərilməsi xahiş olunur.

Təqdim olunan sənədlər və məlumatlar qəbul edildikdə iştirakçıya bu barədə bildirişlə birlikdə layihə tapşırığı və zəruri məlumatlar təqdim edilir.

Qeyd-müxtəlif elanlar üzrə təklif vermək üçün sənədlərin və məlumatların bir dəfə təqdim edilməsi və qəbul olunması kifayətdir.

**Təşkilati-hüquqi sənədlər:**

1) Təşkilati strukturu, nizamnaməsi və kommersiya hüquqi şəxslərin reyestrindən çıxarış sənədi.

2) Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq edilən bina və qurğuların layihələndirilməsinə icazə verən lisenziya.

**Potensialın təsdiqi:**

1) Analoji işlərdə təcrübəsinin təsviri (ümumiləşdirilmiş məlumat, müqavilələr, referans məktubları və s.).

2) Şirkətin icra etdiyi layihələrin əks olunduğu portfolio.

3) İşin tam həcmdə (işçi layihəsi səviyyəsində) icrası üçün hər bir əməkdaşın öhdəsinə düşən vəzifə və tapşırığı göstərməklə təklif olunan əməkdaşlar qrupunun tərkibi (layihə rəhbəri, memar, konstruktor, elektrik, su, kanalizasiya və s. sahələr üzrə mütəxəssislər).

4) İşin tam həcmdə (işçi layihəsi səviyyəsində) icrası üçün qrupun tərkibinə daxil olan mütəxəssislərin tərcümeyi-halı (CV), həmçinin bu mütəxəssislərin əmək müqaviləsi bildirişi və ya bu layihəyə cəlb olunacağı barədə niyyət razılaşması.

Layihələrin təqdim edilmə forması- 1 ədəd A3 ölçülü .pdf formatlı təqdimat faylı.

Layihə təkliflərinin daxili qiymətləndirilməsinin nəticəsi kimi yalnız ilkin müsbət rəy almış təkliflərin müəllifləri ilə əlaqə yaradılacaq.

Bütün iştirakçıların müəllif hüquqlarının qorunmasına zəmanət verilir.

# "Gilan Qəbələ Aqrotexservis" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da Qəbələ rayonu, Hacallı kəndi, "Gilan Qəbələ Aqrotexservis" ASC müəssisəsinin ərazisində növbəti illik ümumi yığıncaq keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2022-ci il üçün maliyyə hesabatı.

**2.** ASC-nin təşkilati-hüquqi formasının dəyişdirilərək MMC-yə çevrilməsi.

**3.** Digər cari məsələlər.

Səhmdarlar illik ümumi yığıncağın gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış ola bilərlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, hər bir səhmdar ümumi yığıncaqda iştirak hüququnu özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Sonuncu halda nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyənləşdirilmiş formada tərtib olunmuş etibarnamə ilə təsdiq edilməlidir.

# "Loğman" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "Loğman" ASC səhmdarlarının növbəti ümumi yığıncağı Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2022-ci il üçün maliyyə hesabatı.

**2.** Cari məsələlər.

***İdarə heyəti***

# B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 11 may 2023-cü il tarixli nömrəsində dərc edilmiş Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Gəncə şəhərində yolların əsaslı təmiri işlərinin satın alınması üçün 2-ci açıq tender elanında tarixlər aşağıdakı kimi oxunmalıdır:

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 iyun 2023-cü il saat 18.00-a, bank təminatını və tender təklifini isə 14 iyun 2023-cü il saat 12.00-a qədər Gəncə şəhəri, Heydər Əliyev meydanı, inzibati binada 410-cu otağa təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaq¬dır.

İddiaçıların tender təklifləri 16 iyun 2023-cü il saat 12.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

***Tender komissiyası***

# "Sabunçu Əyrici"ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11. 00-da "Sabunçu Əyrici"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** "Sabunçu Əyrici" ASC-nin idarəetmə orqanlarının 2022-ci il üçün maliyyə- təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

**2.** İqtisadiyyat nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məktubunun müzakirəsi.

**3.** Təsisçilərin tərkibində baş vermiş dəyişikliklərlə əlaqədar nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi.

**4.** Cəmiyyətə məxsus köhnə və dağılmış fəhlə yeməkxanasının bərpa edilməsinin müzakirəsi.

**5.** Digər məsələlər.

İclas onlayn qaydada keçiriləcəkdir.

2023-cü il iyunun 30-da ümumi yığıcaqda iştirak etməyi təsdiqləmək üçün saat 10.00 -dək şəxsiyyəti təsdiq edən sənədin surətini 050-453-94-61 nömrəli mobil telefona "WhatsApp " nömrəsi vasitəsi ilə göndərmək xahiş olunur. Saat 10. 30-dək (yəni iclasın başlanmasına 30 dəqiqə qalmış ) "ZOOM" proqramı vasitəsilə keçirilən ümumi yığıncağa qoşulmaq və iştirak etmək üçün"WhatsApp "vasitəsilə "Sabunçu Əyrici"ASC onlayn qrupa daxil olaraq qrupun təşkilatçısı kimi ümumi yığıncağın adından paylaşdığımız linkə daxil olmalıdır.

***İdarə heyəti***

# "Material Təchizat" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "Material Təchizat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Sabunçu rayonu, Zabrat 1 qəsəbəsi, Oktyabr küçəsi 16 nömrəli ünvanda keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** 2022 - ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

**2.** Təşkilati məsələ (direktorlar şurasının idarə heyətinin və təftiş komissiyasının seçilməsi).

**3.** Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***İdarə heyəti***

# "Çörək Nəqliyyat "ASC səhmdarlarının nəzərinə!

20 iyun 2023-cü il saat 12.00-da Bakı, Qara Qarayev prospektində yerləşən "Sevinc " yay kinoteatrının binasında"Çörək Nəqliyyat "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Cəmiyyətin 2022-ci il üçün hesabatı.

***İdarə heyəti***

# "İsmayıllı Quşçuluq "ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11. 00-da "İsmayıllı Quşçuluq "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2022-ci il üçün maliyyə fəaliyyətinin yekunları üzrə illik balansının təsdiqi və dividendlərin verilməsi.

**2.** İdarə heyəti üzvlərinin və onun sədrinin seçilməsi.

**3.** İdarə heyətinin yeni seçilmiş sədrinə xüsusi əqdlərin bağlanılması üçün səlahiyyətin verilməsi.

Yığıncaq onlayn qaydada keçiriləcəkdir.

(Zoom) linklə bağlı məlumat almaq üçün əlaqə telefonu- 051-484-93-60.

Əlaqə telefonu- +99420 285 11 00.

Ünvan- AZ-3100, İsmayıllı şəhəri, M.Müşfiq küçəsi 1.

***İdarə heyəti***

# "Güzgü-Furnitur" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2023-cü il saat 9.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2022-ci ilin maliyyə -təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon- 055-379-94-04.

Ünvan - Bakı, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 3.

***Müşahidə şurası***

# "Loğman" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "Loğman" ASC səhmdarlarının növbəti ümumi yığıncağı Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2022-ci il üçün maliyyə hesabatı.

**2.** Cari məsələlər.

***İdarə heyəti***

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 99 (30215) 13 may 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

## Robot insanı tam əvəz edəcəkmi?

**Bəzi ekspertlər süni zəkanın inkişafı ilə robotların bir çox sahələrdə insan əməyini əvəz edəcəyi barədə məlumat verirlər.**



Mütəxəssislər isə hələ də süni intellektin edə bilmədiyi şeylərin olduğunu vurğulayırlar. Bildirirlər ki, bəzi yaradıcı sahələrdə yeni fikirlər irəli sürülməli və qeyri-adi işlər ortaya qoyulmalıdır. Lakin, alimlər emosional zəka və yaradıcı düşüncə kimi insana xas xüsusiyyətlərin süni ağıl tərəfindən yerinə yetirilməsinin mümkünsüzlüyünü qeyd edirlər. Elmdə, tibbdə və hüquqi işlərdə də yeni biznes strategiyalarının hazırlanmasının yalnız insana xas xüsusiyyət kimi dəyərləndirirlər.

Biznes məsləhətləşmələri və araşdırma jurnalistikası peşələrinin icrasının da ancaq insanlar tərəfindən görülməsini məqsədəuyğun hesab edirlər. Düşünürlər ki, bu işlərdə insanları anlamağı bacarmalı, onların nə istədiyini bilməlisən. Süni intellekt isə insan zəkasına nisbətən bu əlaqələri inkişaf etdirməkdə çətinlik çəkir.

***Fidan HÜQUQQIZI,***
***"Xalq qəzeti"***

*İdman xəbərləri*

## Hindistanlı şahmatçı "Baku Open-2023"-ün qalibi olub

**Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan "Baku Open-2023" beynəlxalq şahmat festivalı başa çatıb. Şahmatçılarımız yarışın A, B və C qrupunda mübarizə aparıblar.**



Turnirin əsas yarışında təmsilçimiz Məhəmməd Muradlı son turda polşalı Aleksandar İndjicə uduzaraq 5-ci yerlə yerlə kifayətlənib. Digər şahmatçılarımızdan yalnız Aydın Süleymanlı və Nicat Abbasov ilk 10-da qərarlaşıblar. Əsas yarışın qalibi hindistanlı şahmatçı Leon Luke Mendonca olub.

Təmsilçilərimizdən B qrupunda Eldar Musayev, C qrupunda isə Şəmsi Qaraxanov birinci yeri tutublar.

Qeyd edək ki, əsas turnirdə 23 ölkədən 140 şahmatçı mübarizə aparıb. Festivalın mükafat fondu 55 min ABŞ dollarıdır.



## Boksçumuz dünya çempionatının finalında

**Azərbaycan millisinin boksçusu Alfonso Dominqes (86 kq) Özbəkistanın paytaxtı Daşkənddə keçirilən dünya çempionatında uğurla çıxış edərək finala vəsiqə qazanıb.**

Olimpiya mükafatçısı yarımfinalda Georgi Kuşitaşvilini (Gürcüstan) hər 3 raundda məğlub edib. Dünya çempionumuzun final qarşılaşması mayın 14-ə təsadüf edəcək.

Millinin daha bir boksçusu – Məhəmməd Abdullayev (+92 kq) yarımfinalda həlledici görüşə vəsiqə uğrunda kubalı Fernando Lopes Arzola ilə üz-üzə gəlib. Rəqibinə məğlub olan boksçumuz bürünc medalla kifayətlənib.

## Avropa Multi Oyunlarından 3 medal



**Gənc taekvondoçularımız Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən Avropa Multi Oyunlarında 3 medala sahib olublar.**

Azərbaycan millisinin aktivinə gümüş medalı Məhəmməd Həsənli (48 kq) qazandırıb. Hüseyn Xudiyev (78 kq) və Ruslan Həsənzadə (+78 kq) bürünc medal əldə ediblər.

***Leyla SABİRQIZI,***
***"Xalq qəzeti"***

*Sosial şəbəkələrdən seçmələr*

## Düzgün yazaq, aydın danışaq



**Azərbaycan dilinin gözəlliyi və onun qorunması ilə bağlı sosial şəbəkələrdə vaxtaşırı maraqlı paylaşımlar edilir. Filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızının "Facebook"dakı daha bir paylaşımı diqqətimi cəlb etdi:**

"Dilimizin gözəlliyini harada axtarmalıyıq? Yazılı ədəbi dilimizdə, yoxsa, bəzilərinin yanlış danışıq nitqində? Həqiqətləri [həqiqətdər], dişləri [dişdər], mərdliyi [mərtdiy], anlamağı [annamağ] və s. yazıb tələffüz qaydasına əməl etsək, qanadlı sözünü [qanatdı] kimi tələffüz etsək, tamamilə başqa məna (əlini qanatmaq) ilə qarşılaşacağıq. Yaxud, məşhur bayatımızı yada salaq:

***Mən aşiq, daşlı qala,***
***Çınqıllı daşlı qala.***
***Qorxuram gec gələsən***
***Gözlərim yaşlı qala...***

Bu bayatıda yuxarıdakı orfoepiya prinsipinə əsasən daşlı [daşdı], yaşlı [yaşdı] kimi deyilməlidir. Belə qənaətə gəlinir ki, bu cür deyilsə, ahəngdarlıq pozulur, sanki, misra ədəbilikdən kortəbii, eybəcər bir formaya düşür. Bu cür anormallıqdan nitqimizi qorumaq üçün yazdığımız kimi də tələffüz etməyimiz lazımdır. Bunu ədəbi dil normaları tələb edir.

Bu, bizim nitqimizin gözəlliyinə dəlalət edir. Nitqin gözəlliyi məzmun dərinliyi, məntiqi rabitəliklə yanaşı, aydın və dəqiq tələffüzə əsaslanır. Gözəl deyiblər: "dili dolaşıq şəxsin fikri də dolaşıqdır". Aydın nitq aydın düşüncəyə bağlıdır".

***Təqdim etdi:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

## Şəkidə futzal üzrə xatirə turniri

**Yeni Azərbaycan Partiyasının Şəki rayon təşkilatı və Gənclər İdman İdarəsinin təşkilatçılığı ilə Şəki şəhərində ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar 18 komandanın iştirakı ilə "Şəki kuboku-2023" futzal tuniri keçirilib.**



Şəki Regional Ədliyyə İdarəsindən, Şəki Rayonu üzrə İcra və Probasiya Şöbəsindən, Məhkəmə Ekspertizası Mərkəzinin Şəki Bölməsindən və Şəki Penitensiar Müəssisəsinin mühafizə sitaborundan təşkil olunan "Ədliyyə" komandası finalda Ədliyyə Nazirliyinin digər komandası "Penitensiar xidmət" ilə görüşmüşdür. 1:0 hesabı ilə qalib gələn "Penitensiar xidmət" turnirin qalibi olmuş, "Ədliyyə"nin heyəti ikinci yer tutmuşdur. Beləliklə, Ədliyyə Nazirliyini təmsil edən komandalar turniri yüksək nəticə ilə baş vurmuşlar.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

*Sağlamlıq guşəsi*

## Maşında ürəyiniz bulanırsa...

**Bəzi insanlar nəqliyyatdan istifadə edərkən, məsafənin yaxın-uzaq olmasından asılı olmayaraq, ürəkbulanma ilə qarşılaşır. Adətən, belə ürəkbulanmalara uşaqlar və yaşlı nəsil arasında, əsasən də, dəniz səyahəti zamanı təsadüf edilir.**



Nevropotoloqların fikrincə, belə ürəkbulanma kinetoz və ya hərəkət xəstəliyi adlanır. Lakin tibbi nöqteyi-nəzərdən bu, "yalançı" xəstəlikdir. "Yalançı xəstəlik" – orqanizmin xüsusi vəziyyətidir. Bu, görmə orqanlarından beyinə daxil olan siqnalların uyğunsuzluğu səbəbindən yaranır.

Məsələn, bir şəxs telefona baxırsa və ya yaxınlaşan üfüq xəttini görmürsə, nəticədə, reaksiyaların qarşıdurması yaranır və həmin insanın vəziyyəti kəskin şəkildə pisləşir. Bu xəstəliyin müalicəsi yoxdur. Buna görə də ürəkbulanma ilə mübarizə üsulları fərdi seçilməlidir. Lakin bəzi məsləhətlərə əməl etməklə vəziyyəti idarə etmək olar:

Avtomobilin ağırlıq mərkəzinə yaxın oturmaq, güclü qoxulardan uzaq durmaq, ətir vurmamaq, düz irəli baxmaq, başı sağa, sola və aşağı əyməmək, zəncəfilli su və ya limon istifadə etmək, kitab oxumamaq və telefona baxmamaqla ürəkbulanmanın qarşısını, az da olsa, almaq olar.

Onu da qeyd edək ki, sürücünün arxasında oturanda ürəkbulanma baş vermir.

## "Təhsildə süni intellekt"

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) İnformasiya kommunikasiya texnologiyaları mərkəzinin direktoru Sərxan Talıbzadə "Təhsildə süni intellekt" mövzusunda təqdimat keçirib.**



AzMİU-dan bildirilib ki, Sərxan Talıbzadə təqdimatında süni intellektlə bağlı nəzəri və praktik tendensiyaları diqqətə çatdırıb. Süni intellektin imkanlarından istifadə edərək universitetdə bir sıra sahələr üzrə səmərələşdirmə yolları təklif edilib. Qeyd olunub ki, idarəetmə, qərar qəbuletmə, planlaşdırma, plagiatlığa qarşı mübarizə və bu kimi məsələlər üzrə iş prosesinin effektivliyini əhəmiyyətli dərəcədə artırmaq mümkündür.

Sərxan Talıbzadə iştirakçıların suallarını cavablandırıb və toxunulan məsələlərə bağlı lokal müzakirələr təşkil olunub. Qeyd edilib ki, universitetdə süni intellektin imkanlarından effektiv yararlanmaq məqsədilə laboratoriyanın yaradılması və bu istiqamətdə tədqiqatların genişləndirilməsi vacibdir.

***M.QƏRİBOV,***
***"Xalq qəzeti"***

## "Pangenom" təbabətdə inqilab yaradacaq

**Alimlər tibbi tədqiqatları dəyişdirməyə kömək edə biləcək insan DNT-sinin yenilənmiş xəritəsini hazırlayıblar.**

İnsan genlərinin müxtəlifliyini daha yaxşı əks etdirən pangenom adlı xəritə elm adamlarına genetik fərqliliyin sağlamlığa və xəstəliklərə necə təsir etdiyini daha yaxşı anlamağa imkan verəcək. Genomik təbabətin hər kəsə müsbət fayda verəcəyi pangenom adlanan xəritə Afrika, Asiya, Amerika və Avropadan olan 47 nəfərin DNT məlumatlarından ibarətdir.

Bu xəritədən istifadə etməklə bir sıra xəstəliklərdə iştirak edən genləri araşdırmaq və daha yaxşı müalicə üsulları hazırlamaq mümkün olacaq.

***Fidan SALMANOVA,***
***"Xalq qəzeti"***

## COVID-19: 19 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 19 yoluxma faktı qeydə alınıb, 27 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 638 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 251 nəfər müalicə olunaraq sağalıb, 10 min 265 nəfər vəfat edib. Aktiv xəstə sayı 122 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 851, bu günə qədər isə ümumilikdə 7 milyon 602 min 283 test icra olunub.

***"Xalq qəzeti"***

**✓ MODUL EV MMC-yə verilmiş İN/L-102/2021 nömrəli,12.03.2021-ci il tarixli lisenziya və əlavəsi (1504343051) itdiyi üçün etibarsız sayılır.**

**✓ 2003-cü ildə Bakının Binəqədi rayonunun 126 nömrəli orta məktəbi tərəfindən Xudaverdiyeva Aynurə Xanəhməd qızının adına verilmiş 9 illik təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

*Proqnoz*

## Arabir yaz yağışı...

**Milli Hidrometeorologiya Xidmətindən redaksiyamıza verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək.**



Havanın temperaturu gecə 8-13° isti, gündüz 14-18° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütununda 765 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz olacaq.

Azərbaycanın rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 10-14° isti, gündüz 16-21° isti, dağlarda gecə 2-6° isti, gündüz 6-10° isti olacaq.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00